**Ramiz Mehdiyev**
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri,
Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü

# İKİLİ STANDARTLARIN DÜNYA NİZAMI VƏ MÜASİR AZƏRBAYCAN

Şərq-Qərb Nəşriyyat Evi
Bakı – 2015

**Ramiz Mehdiyev**
İkili standartların dünya nizamı və müasir Azərbaycan
Bakı, Şərq-Qərb Nəşriyyat Evi, 2015, 224 səh.

**Рамиз Мехтиев**
Миропорядок двойных стандартов и современный Азербайджан.
Баку, Издательский Дом Шарг-Гарб, 2015, 224 стр.

ISBN 978-9952-505-42-9

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin bu kitabı səmərəli dövlət idarəçiliyinin aktual məsələlərinə, korrupsiyaya qarşı mübarizə sahəsində hüquqi və institusional islahatlara, qeyri-hökumət təşkilatlarının fəaliyyətinə və vəzifələrinə, yeni təşəkkül tapmış dünya nizamına və Qərb tərəfindən Azərbaycana münasibətdə tətbiq olunan ikili standartlar siyasətinə həsr edilib.

Kitabda Sovet İttifaqı dağılandan sonra dünyada yaranmış ictimai-siyasi vəziyyət geniş təhlil edilir, "Ərəb baharı"nın, digər "məxməri" və "rəngli" inqilabların həqiqi səbəblərindən söhbət açılır.

Kitab politoloq alimlər, ali məktəblərin müəllimləri və tələbələri, habelə geniş oxucu auditoriyası üçün nəzərdə tutulub.

Şərq-Qərb Nəşriyyat Evi BAKI 2015 www.eastwest.az www.fb.com/eastwest.az
© Ramiz Mehdiyev, 2015
© Şərq-Qərb Nəşriyyat Evi, 2015

Издательский Дом Шарг-Гарб БАКУ 2015 www.eastwest.az www.fb.com/eastwest.az
© Рамиз Мехтиев, 2015
© Издательский Дом Шарг-Гарб, 2015

# İLHAM ƏLİYEV YENİ ƏSRİN YENİ LİDERİDİR

*AZƏRTAC-a müsahibə*
*(14.03.2013-cü il)*

***– Hörmətli Ramiz müəllim, XXI əsrin əvvəli dünyada ciddi qarşıdurmalar, qeyri-sabitlik, iqtisadi tənəzzül illəri kimi tarixə düşdü. Belə mürəkkəb dövrdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın inamlı inkişafı bütün dünyada, müxtəlif nüfuzlu auditoriyalarda müzakirə mövzusuna çevrilmişdir. Ölkəmizin əldə etdiyi nailiyyətləri, mövcud durumunu, daxili ictimai-siyasi vəziyyəti necə qiymətləndirərdiniz?***

– Ötən əsrin sonlarında SSRİ-nin süqutundan sonra dünyanın siyasi xəritəsində mühüm dəyişikliklər baş vermiş, yeni dünya nizamı formalaşmağa başlamışdır. Hesab edirəm ki, bu proses tam yekunlaşmamışdır və hazırda müşahidə olunan mürəkkəb siyasi və iqtisadi proseslər də məhz bu amillə bağlıdır. Lakin Azərbaycan xalqı bu nadir tarixi fürsətdən istifadə edərək ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında öz müstəqil dövlətini qurmağa, siyasi varislik prinsipinə birmənalı dəstək verməklə onu inkişaf etdirməyə, dünyanın nüfuzlu ölkələrindən birinə çevirməyə nail olmuşdur. Şübhəsiz, öz müstəqil siyasi kursunu həyata keçirən, dinamik inkişaf edən, regionun lider ölkəsi olan və dünya miqyasında söz sahibinə çevrilmiş Azərbaycan Respublikası xalqımızın tarixi nailiyyəti, ən böyük sərvəti, həqiqətən də fəxr mənbəyimizdir. Bu gün dünyanın aparıcı iqtisadi və maliyyə institutlarının rəyləri və proqnozları, ən əsası, uğurlarımızın

real mənzərəsi bir daha təsdiq edir ki, hələ 2004-cü ildə Prezident İlham Əliyevin bəyan etdiyi strateji hədəflər, qarşıya qoyduğu vəzifələr reallığa çevrilmişdir. Təsadüfi deyil ki, Azərbaycan artıq 2009-cu ildə iqtisadi keçid dövrünü başa çatdırmışdır və hazırda dünyanın müasir və inkişaf etmiş ölkələri ilə müqayisə olunur. Son 10 ildə biz iqtisadiyyatımızı şaxələndirməyə, ümumi daxili məhsulu 300 faiz artırmağa, ən əsası, iqtisadiyyatın qeyri-neft sektorunu 2,4 dəfə yüksəltməyə nail olduq. Ötən müddətdə ölkəmizin strateji valyuta ehtiyatları 30 dəfəyə yaxın çoxalaraq 46 milyard dolları ötmüşdür. Hesab edirəm ki, yoxsulluğun səviyyəsinin 49 faizdən 6 faizə, işsizliyin isə 5,2 faizə endirilməsi həyata keçirilən sosial siyasətin ən böyük uğuru hesab olunmalıdır. Respublikanın şəhər və rayonları, qəsəbə və kəndləri tanınmaz dərəcədə dəyişmiş və müasirləşmiş, əhalinin rifahı yüksəlmişdir.

Ölkəmiz öz tərəfdaşları ilə mühüm transmilli enerji və kommunikasiya layihələrini uğurla reallaşdırmaqla regionun və Avropanın iqtisadi xəritəsini dəyişdirməkdə və onu zənginləşdirməkdə davam edir. Bu gün Cənubi Qafqaz iqtisadiyyatının təxminən 80 faizi Azərbaycanın payına düşür. Öz enerji təhlükəsizliyini təmin etmiş ölkəmiz Avropanın enerji bazarında mühüm amilə çevrilir, həm də onun təhlükəsizliyinə öz töhfələrini verir. Hesablamalara görə, hazırda bir sıra Avropa ölkələrinin enerji bazarında Azərbaycanın payı 30-40 faiz təşkil edir.

Azərbaycan Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının üzvü kimi qlobal siyasətin formalaşmasında iştirak edir, sülhün və təhlükəsizliyin təmin olunmasına dəyərli töhfələr verir. "Eurovision", BMT-nin İnternet İdarəçilik Forumu, Beynəlxalq Humanitar Forum, İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə Toplantısı və onlarla digər mühüm beynəlxalq tədbirlərə ev sahibliyi edən ölkəmiz həm də sosial, iqtisadi, mədəni-humanitar və digər sahələrdə qlobal məsələlərin müzakirə edildiyi əlverişli məkana çevrilmişdir. Gələn ay Bakı şəhəri Davos İqtisadi Forumunu qəbul etməklə özünün dünya əhəmiyyətli iqtisadi mərkəz statusunu möhkəmləndirəcəkdir. 2015-ci ildə isə biz I Avropa Oyunlarını keçirən ölkə kimi tarixə düşəcəyik. Hesab edirəm ki, bu il ilk telekommunikasiya peykimizin orbitə çıxarılması, Azərbaycanda kosmik sənayenin yaradılması inkişafımızın zirvəsi olmaqla uğurlarımızın, nailiyyətlərimizin miqyasını təcəssüm etdirir.





Prezident İlham Əliyevin qeyd etdiyi kimi, inkişafımızın əsasında düşünülmüş siyasət, liberal islahatlar, dövlətin həyata keçirdiyi siyasətin xalq tərəfindən dəstəklənməsi, güclü hakimiyyət və sabitlik amilləri dayanır. Azərbaycan Prezidentinin praqmatik siyasi kursu, hakim komandanın səmərəli fəaliyyəti və ən əsası, xalqımızın güclü dəstəyi olmasaydı, bütün bu uğurlar əlçatmaz xəyal olaraq qalacaqdı. Buna görə də dünyanın nüfuzlu ekspertləri, politoloqları hesab edirlər ki, hazırda planetimizin müxtəlif bölgələrində münaqişələrin, siyasi kataklizmlərin müşahidə olunduğu, aparıcı ölkələr iqtisadi və maliyyə böhranından əziyyət çəkdiyi bir dövrdə Azərbaycanın dinamik inkişafı əsl möcüzədir. Davamlı iqtisadi inkişaf, ictimai-siyasi sabitlik, sosial rifah, xalqla hakimiyyət arasında vəhdət – budur, bugünkü Azərbaycanın reallıqları.

Təbii ki, bütün bunlar həm xalqımızın, həm də beynəlxalq ictimaiyyətin nəzərində, habelə dünyanın siyasi elitası arasında cənab İlham Əliyevin qurucu, yaradıcı, görkəmli dövlət və siyasi xadim obrazını şərtləndirən mühüm amillərdir. İlham Əliyev dövlətimizin möhkəmləndirilməsi, müstəqilliyimizin dönməzliyinin təmin olunması kimi məsul bir vəzifəni yerinə yetirməklə, həm də milli şüurumuzun inkişafı və cəmiyyətimizin müasirləşməsi üçün yorulmadan səy göstərir. O, hər bir situasiya üçün düzgün qərar verərək, onların həyata keçirilməsinə nail olur. İlham Əliyev siyasi lider kimi yeni dövrün tanınmış şəxsiyyətidir. Cənab Prezidentin qa-

zandığı uğurlar xalqımıza böyük ümidlər verir, gələcəyə geniş yollar açır.

İlham Əliyev yeni əsrin yeni lideridir. Onun yeni əsrdə Azərbaycanın Prezidenti olmasının özündə rəmzi məna vardır. O, postsovet məkanında tamamilə yeni tipli siyasi liderin nümunəsinə çevrilmişdir. Hesab edirəm ki, cənab İlham Əliyevi səciyyələndirən başlıca xüsusiyyəti onun hədsiz səmimiliyidir. Həm milli mədəniyyətimizin, həm xalqımızın əxlaqi-mənəvi dəyərlərinin təbliğində, həm də ölkəmizin dolğun müsbət imicinin formalaşmasında ailəsinin hər bir üzvü onunla həmrəydir, həmfikirdir.

Cənab Prezidentin şəxsiyyətini xarakterizə edən cəhətlər, bir tərəfdən milli mentalitetimizdən və xalqımızın tarixi köklərindən, digər tərəfdən isə onun qloballaşma dövrünün siyasət aləminin parlaq nümayəndəsi olmasından, mütərəqqi ümumbəşəri dəyərlərə bağlılığından irəli gəlir. Müxtəlif dilləri mükəmməl bilməsi, geosiyasi şəraiti dəqiq qiymətləndirməsi, qlobal siyasi və iqtisadi prosesləri əvvəlcədən və aydın təsəvvür etməsi sayəsində cənab İlham Əliyev xarici ölkələrə rəsmi səfərləri zamanı müxtəlif çəkili siyasi liderlərlə görüşlərində, BMT, İslam Əməkdaşlıq Təşkilatı, Davos İqtisadi Forumu çərçivəsindəki təmaslarında, istər Luvrda, istərsə də Sinqapurda, həm Milli Elmlər Akademiyasının yığıncaqlarında, həm sadə vətəndaşların, sahibkarların, neftçilərin arasında özünü tamamilə sərbəst hiss edir. O, ünsiyyətin ilk anlarından ətrafdakılara xoş əhval-ruhiyyə aşılaya bilir, insanlar da ondan aldıqları müsbət enerjini qarşılıqsız qoymurlar. Cənab İlham Əliyev hər kəs üçün, ilk növbədə Prezidentdir, dövlət başçısıdır, milli liderdir, bununla yanaşı, həm də xalqın hər bir nümayəndəsinin nəzərində xeyirxah, qayğıkeş, səmimi bir insandır. Hesab edirəm ki, məhz buna görə də Azərbaycan xalqı, vətəndaşlarımız onun bütün təşəbbüslərini ürəkdən və yekdilliklə dəstəkləyirlər.





Cənab İlham Əliyevin xarakterində təbiətən çox böyük məsuliyyət hissi vardır. Bu cəhət ən çətin və mürəkkəb şəraitlərdə onun yeganə düzgün qərar qəbul etmək bacarığını üzə çıxarır. Bu məsuliyyət hissi daxili və xarici siyasət məsələlərinin, bir çox problemlərin həllində, məsələn, müasir dövrün reallıqlarını nəzərə almaqla və inkişaf perspektivini düzgün qiymətləndirməklə iqtisadiyyatın yeni əsaslarının yaradılmasında, onun şaxələndirilməsində və neftdən asılılığının aradan qaldırılmasında dövlət başçısına yardım etmişdir.

***– "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransda Prezident İlham Əliyevin nitqi ölkə ictimaiyyəti tərəfindən rəğbətlə qarşılanmışdır. Cənab Prezidentin nitqi ətrafında gedən ictimai müzakirələrdə səmərəli dövlət idarəçiliyi məsələləri daha çox diqqəti cəlb etmişdir. Sizin bu məsələyə münasibətinizi bilmək maraqlı olardı.***

– Prezident İlham Əliyevin konfransdakı nitqi regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icra vəziyyətinin təhlili və qarşıda duran vəzifələrin müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etmiş, daha yüksək nəticələrin əldə olunmasına maneçilik törədən mənfi halların aradan qaldırılması ilə bağlı rəsmi strukturlar və dövlət qulluqçuları üçün fəaliyyət proqramı xarakteri daşımışdır. Cənab Prezident hesab edir ki, Azərbaycanın dinamik inkişafı və yüksək beynəlxalq statusu ilə səciyyələnən yeni strateji hədəflərə nail olmaq üçün vətəndaş cəmiyyəti qurucuğunun daha da dərinləşdirilməsi, bunun tərkib hissəsi kimi dövlət-vətəndaş münasibətlərinin ən mütərəqqi prinsiplərə uyğun təkmilləşdirilməsi, səmərəli dövlət idarəçiliyinin təmin olunması qarşıda duran vacib məsələlərdəndir.

Konfransda Prezident İlham Əliyev həyata keçirdiyi siyasətin başlıca prinsipini açıqlamışdır – dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır, hər şey Azərbaycan vətəndaşı üçün edilir. Cəmiyyətimizin demokratikləşməsi, Konstitusiyamızda təsbit olunmuş fundamental insan hüquq və azadlıqlarının təmin edilməsi, liberal bazar iqtisadiyyatı prinsiplərinin mənimsənilməsi, yəni, görülən bütün işlərin əsas hədəfi insan amilinin inkişaf etdirilməsi, onun sosial təminatının yaxşılaşdırılmasıdır. Cənab Prezidentin insan kapitalının inkişafına xüsusi önəm verməsi heç də təsadüfi deyildir. Bir tərəfdən, biz inkişaf deyəndə sadəcə iqtisadiyyatın tərəqqisini deyil, eyni zamanda, sağlam gələcək nəslin formalaşmasını nəzərdə tuturuq. İntellektual potensialın yaratdığı texnoloji innovasiyalar, beynəlxalq rəqabətədavamlı və ətraf mühitin qorunması ilə həmahəng olan iqtisadi fəaliyyət həm də bu məqsədə xidmət edir. Digər tərəfdən, həyata keçirilən dövlət siyasəti humanizm və insani dəyərləri idarəçiliyin əsas meyarına çevirməyi, Azərbaycanda əsl rifah dövləti yaratmağı hədəfləmişdir. Təbii ki, bu amillər də vətəndaşların cənab Prezidentə inam və etibarını gücləndirməklə yanaşı, həm də iqtisadi inkişaf prosesinə təkan vermiş, kollektiv səmərəliliyi artırmışdır.

*Müasir dövrdə səmərəli dövlət idarəçiliyi hüquqi, siyasi* və "dövlət menecmenti" adlanan yanaşmalardan irəli gələn prinsiplərin vəhdəti üzərində qurulur və dövlət qulluqçularının fəaliyyəti idarəçiliyin əsas meyarlarına uyğunluğuna görə qiymətləndirilir. BMT-nin geniş yayılmış metodikasına əsasən, hüququn aliliyi, bərabərlik və diskriminasiyanın yolverilməzliyi, vətəndaşların idarəetmə prosesində yaxından iştirakı, operativlik və konsensusa meyillilik, məhsuldarlıq və effektivlik, şəffaflıq və hesabatlılıq səmərəli dövlət idarəçiliyinin başlıca prinsipləridir. Rəsmi strukturların, dövlət qulluqçularının fəaliyyətinin qiymət meyarı həm onların qanunvericilik aktları və dövlət başçısının tapşırıq və tövsiyələri ilə müəyyən edilmiş vəzifə və öhdəliklərinin icra vəziyyəti, həm də vətəndaşların münasibəti ilə müəyyənləşir. Buna görə də Prezident İlham Əliyevin konfransda qeyd etdiyi mənfi təzahürlərin cəmiyyətimizdə yer alması yolverilməzdir və dövlət başçısının ölkəmizin gələcək inkişafı ilə bağlı baxışları ilə tam ziddiyyət təşkil edir. Mən bu fikri xüsusi olaraq qeyd etmək istərdim.





Bu gün hüquqi dövlətin və sosial rifah dövlətinin güclənməsi, Azərbaycanın inkişaf etmiş və güclü dövlətə çevrilməsi həyata keçirilən siyasi kursun prioriteti kimi müəyyən edilmişdir. Cənab Prezident konfransda bildirmişdir ki, əgər inkişaf etmiş ölkələrlə bir cərgədə dayanmaq istəyiriksə mənfi halları, korrupsiyanı aradan qaldırmalıyıq. Bu yanaşma, qəti siyasi iradə son illər ərzində ölkəmizin iqtisadi və sosial inkişafını stimullaşdıran əsas amillərdən biri olmuşdur. *Lakin biz növbəti tarixi mərhələyə daxil olduqca, bu inkişafla birgə təzahür edən problemlər də öz xarakterini dəyişir.* Nəticə etibarilə iqtisadi tərəqqi korrupsiyaya, digər mənfi hallara qarşı mübarizə sahəsində yeni çağırışların meydana çıxmasına səbəb olur və aparılan mübarizənin keyfiyyətcə yeni müstəviyə keçməsini tələb edir. Əlbəttə, belə mühitdə vətəndaşların da dövlət qurumlarına, vəzifəli şəxslərə olan tələbləri dəyişir. Onlar artıq rəsmi strukturlardan, məmurlardan səmərəli, nəzakətli, vətəndaşların arzu və istəklərini nəzərə alan şəffaf fəaliyyət gözləyirlər. Bütün bunlar cənab Prezidentin nitqinin mahiyyətini təşkil etməklə dövlət qulluqçularına və bütövlükdə cəmiyyətə olan çağırışıdır. Buna görə də Prezident İlham Əliyev konfransda vəzifəli şəxslərin fəaliyyətindəki bəzi nöqsanları tənqid etdi, sahibkarlara münasibətdə mövcud olan mənfi halların aradan qaldırılmasını ciddi tələb kimi qarşıya qoydu, yerli icra hakimiyyəti orqanlarının əhali ilə lazımi səviyyədə iş apar-

mamasından narazılığını bildirdi, dövlət qulluqçularını təvazökarlığa, dəbdəbəli ailə tədbirlərinə, insanları qıcıqlandıran məsələlərə və s. son qoymağa çağırdı, rüşvətxorluğa və korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi və s. tələblərini səsləndirdi. Cənab Prezident hesab edir ki, vəzifəli şəxslər daha yaxşı işləyə bilərlər və bunun üçün mövcud nöqsanları aradan qaldırmaq lazımdır. Bu da hər bir məmur üçün siqnaldır, göstərişdir və fəaliyyət proqramıdır.

***– Cənab Prezidentin nitqindən irəli gələn vəzifələrin yerinə yetirilməsi, xüsusilə mövcud mənfi halların aradan qaldırdması ilə əlaqədar hansı tədbirlərin görülməsi planlaşdırılır?***

– Artıq Prezident Administrasiyası bu nitqdən irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirməyə başlamışdır. İlk növbədə, ictimaiyyətin, vətəndaş cəmiyyəti institutlarının dövlət idarəçiliyində, qərarların qəbul olunması prosesində daha yaxından iştirakının təmin edilməsi, vətəndaşlarla vəzifəli şəxslərin təmaslarının intensivləşdirilməsi, insanların rəy və təkliflərinin ümumiləşdirilməsi və nəzərə alınması, onların dinlənilməsi və problemlərinin həlli yollarının tapılması və s. işlər görülür. Bildiyiniz kimi, keçən il Prezident Administrasiyası qeyri-hökumət təşkilatları və kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşlər keçirmiş, irəli sürülən təklifləri öyrənmiş, onları təhlil etmiş, ümumiləşdirmiş və baxılması üçün aidiyyəti dövlət orqanlarına göndərmişdir. Hazırda həmin təkliflərlə bağlı dövlət strukturlarından Prezident Administrasiyasına daxil olan rəylər nəzərdən keçirilir. Belə görüşlər vətəndaş cəmiyyəti institutlarının dövlət idarəçiliyi prosesində daha yaxından iştirakı, dövlət orqanları ilə kütləvi informasiya vasitələri arasında əməkdaşlığın güclənməsi üçün əlverişli şərait yaradır və buna görə də davam etdiriləcəkdir. Həmçinin biz daha işlək, səmərəli ictimai nəzarət mexa-





nizminin formalaşdırılması məsələləri üzərində düşünürük. Digər tərəfdən, mərkəzi icra orqanları rəhbərlərinin və rəhbər vəzifəli şəxslərinin yerlərdə müxtəlif sahələr üzrə açıq qəbullarının təşkil edilməsi nəzərdə tutulur. Həmin qəbulların nəticəsində hər bir rayon üzrə konkret sahələrlə bağlı problemlər öyrəniləcək, ümumiləşdiriləcək və cənab Prezidentin qarşıya qoyduğu vəzifələrə uyğun olaraq onların həlli təmin ediləcəkdir.

Azərbaycanda sahibkarlığın inkişaf etdirilməsi, əlverişli investisiya mühitinin təmin olunması dövlət siyasətinin başlıca istiqamətlərindən biridir. Ölkəmiz bazar iqtisadiyyatı yolu ilə inkişaf edir, iqtisadi sahədə liberal islahatlar davam etdirilir, azad sahibkarlığa böyük diqqət və qayğı göstərilir. Son illər ərzində Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə sahibkarlara güzəştli şərtlərlə 1 milyard 200 milyon kredit verilmiş, ötən il bu rəqəm 250 milyon manat təşkil etmiş, bu il də həmin məbləğdə vəsaitin ayrılması nəzərdə tutulmuşdur. Bu gün Azərbaycanda ÜDM-in 83 faizinin özəl sektorda formalaşması sahibkarlığın gücünün, onun cəmiyyətin, dövlətin inkişafına əvəzsiz töhfələrinin göstəricisidir. Sahibkarlar vergi ödəyiciləridirlər, iş yerləri açırlar, dövlətin iqtisadi gücünü, resurslarını artırırlar. Haqlı olaraq sahibkar da dövləti özünə arxa hesab edir, ona güvənir. Bütün bu işlərin fonunda bəzi yerli icra hakimiyyəti orqanları rəhbərlərinin sahibkarlara münasibətində xoşagəlməz halların mövcudluğu, əlbəttə ki, yolverilməzdir.

Prezident İlham Əliyev regionlara səfərlərində həmişə sahibkarlarla görüşür, onları narahat edən problemlərlə maraqlanır və bu məsələləri daim diqqət mərkəzində saxlayır. Təəssüf ki, bəzi yerli icra orqanlarının rəhbərləri bundan nümunə götürmürlər, sahibkarlara, yumşaq desək, soyuq münasibət bəsləyirlər. Bəzi hallarda isə sahibkarlıq subyektlərinə öz tabeçiliklərində olan strukturlar kimi yanaşırlar və

onlara aidiyyəti olmayan tapşırıqlar verirlər. Azərbaycan Prezidenti sahibkarlara ən yüksək səviyyədə dəstək verirsə, onların arxasında durursa, bütün problemlərinə diqqət və qayğı ilə yanaşırsa, dövlət orqanları, vəzifəli şəxslər bundan nəticə çıxarmalıdırlar. Dövlət strukturları iş adamlarının fəaliyyətinə şərait yaratmalı, onlara mane olmamalıdırlar. Vergi ödəyiciləri kimi sahibkarların fəaliyyətinin stimullaşdırılması istiqamətində həyata keçirilən tədbirlər daha da sürətləndirilməlidir. Bütün bunlar dövlət başçısının, qanunlarımızın qarşıya qoyduğu vəzifələr və tələblərdir.

Əlavə olaraq qeyd edim ki, cənab Prezidentin tənqid və iradları artıq öz müsbət nəticəsini vermişdir. Bəzi rayonlarda sahibkarla icra hakimiyyətləri arasında yaranmış mübahisəli məsələlər həllini tapmışdır.

Bir məsələni də xüsusi qeyd etmək istərdim. Cənab Prezident çox haqlı olaraq məmurların təvazökarlığı məsələsini qaldırdı və öz iradlarını bildirdi. Dövlət qulluğu imtiyaz deyil, vətəndaş, cəmiyyət, xalq qarşısında vəzifədir. Bu vəzifəni icra edənlər özlərini vətəndaşlardan fərqləndirməməlidirlər, onlara yuxarıdan aşağı baxmamalıdırlar, təvazökar, insanlarla ünsiyyətdə səmimi, mədəni olmalıdırlar. Hər bir vəzifəli şəxsin davranışı vətəndaşda hakimiyyət, idarəçilik haqqında təsəvvür formalaşdırır. Cəmiyyətdə davranış qaydaları, dövlət qulluqçularının etik standartları mövcuddur. Ona görə də vəzifəli şəxslər, ilk növbədə, bu qaydalara əməl etməli, bütün cəmiyyət üçün nümunə olmalıdırlar. Dövlət başçısı bu məsələlərlə bağlı qəti tələblərini ortaya qoymuş və son xəbərdarlığını etmişdir. Cənab Prezidentin xəbərdarlığını qısaca belə ifadə etmək olar ki, əgər hər hansı vəzifəli şəxs öz fəaliyyəti sahəsində insanlarla qarşılıqlı əlaqələr qura bilmirsə, onların ehtiyaclarına biganə yanaşırsa və rəğbətini qazanmırsa, həmin şəxslə bağlı ciddi ölçülər götürüləcəkdir. Konfransdan qısa müddət sonra bir neçə rayonda həyata keçirilən kadr





dəyişiklikləri bunun bariz nümunəsidir. Bu tədbirlər yalnız yerli icra hakimiyyəti orqanları ilə məhdudlaşmayacaqdır.

***– Prezident İlham Əliyev konfransda korrupsiya ilə mübarizənin gücləndirilməsinin zəruriliyi barədə danışdı. Azərbaycanda bu sahədə görülən işləri necə qiymətləndirirsiniz və dövlət başçısının qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar hansı tədbirlərin görülməsi nəzərdə tutulur?***

– Korrupsiya bütün cəmiyyətlərdə mövcud olan universal problemdir. Bu sosial təhlükə müxtəlif ölkələrdə özünü fərqli səviyyə və formalarda büruzə verir, sosial-iqtisadi inkişafa, cəmiyyətin mühüm problemlərinin həllinə, investisiya mühitinə, sahibkarlıq fəaliyyətinə birbaşa mənfi təsir göstərir. Son illər Azərbaycanda korrupsiya ilə mübarizə sahəsində beynəlxalq standartlara cavab verən hüquqi və institusional islahatlar həyata keçirilmiş, müvafiq qanunvericilik bazası, xüsusi təsisatlar yaradılmışdır. Bununla da ölkəmizdə korrupsiyaya qarşı mübarizənin işlək mexanizmi formalaşdırılmış, onun funksionallığı təmin edilmiş və hesab edirəm ki, ciddi nəticələr əldə olunmaqdadır.

Əlbəttə, indiyə kimi bu sahədə qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün lazımi işlər görülsə də, proses davam olunmalıdır. Bütün sahələr kimi, bu sfera da daim yeniləşməli və təkmilləşməlidir. Müasir dövrdə korrupsiyaya qarşı effektiv mübarizə yeni metodların tətbiqini, şəffaflığın təmin edilməsini, məsuliyyət və nəzarət mexanizmlərinin gücləndirilməsini, səmərəli maarifləndirmə tədbirlərini və informasiya texnologiyalarından istifadənin genişləndirilməsini zəruri edir. Düşünürəm ki, burada prioritet olaraq profilaktik-preventiv üsulların, sistemli islahatların, institusional dəyişikliklərin həyata keçirilməsi və yalnız son vasitə kimi cəza tədbirlərindən istifadə edilməsi vacibdir. Ona görə də, korrupsiyanın qarşısını almaq üçün ona şərait yaradan hal-

ların müəyyən edilməsi, risklərin daim qiymətləndirilməsi, struktur islahatlara, institusional metodlara geniş yer verilməsi, ictimai nəzarətin subyektləri olan vətəndaş cəmiyyəti, özəl sektor və kütləvi informasiya vasitələri ilə dövlət orqanları arasında əməkdaşlığın genişləndirilməsi böyük əhəmiyyət kəsb edir. Ölkəmizdə son illər həyata keçirilən tədbirlərin ardıcıllığına nəzər yetirsək, xüsusilə Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş iki mühüm sənədin – "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı" və "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın məzmununa və icra vəziyyətinə baxsaq, bu yanaşmanın bütün elementlərini görə bilərik. Fəaliyyət planlarının icrası nəticəsində həm dövlət orqanlarının, dövlət qulluqçularının fəaliyyəti, idarəetmə, xidmət sahələri təkmilləşdiriləcək, həm də rəsmi strukturların işində ictimaiyyətin iştirakı genişləndiriləcək və şəffaflıq təmin olunacaqdır.

Bununla yanaşı, sistem xarakterli islahatlar, institusional dəyişikliklər korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizədə ən səmərəli alətlərdən biridir. Yeni institutların təsis edilməsi vasitəsilə sistemdə elə dəyişikliklər edilməlidir ki, korrupsiyaya şərait yaradan, rüşvət amilini mümkün edən səbəblər aradan qaldırılsın. Cənab Prezident bu islahatlar sırasında "ASAN Xidmət"ini və "Elektron Hökumət" təşəbbüsünü xüsusi vurğulamışdır. "ASAN Xidmət" Azərbaycan Prezidentinin "dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır" devizinin praktiki reallaşmasıdır. Çünki bu xidmət vətəndaş məmnunluğunun təmin edilməsini, korrupsiya və rüşvət hallarının istisna olunmasını, müasir texnologiyaların tətbiqini, dövlət qulluqçusu-vətəndaş münasibətlərində yeni düşüncə tərzinin formalaşdırılmasını hədəfləmişdir. Hazırda "ASAN Xidmət" mərkəzində 9 dövlət





orqanı tərəfindən 23 hüquqi xidmət həyata keçirilir. Gələcəkdə bu xidmətin coğrafiyasının genişləndirilməsi ilə yanaşı, onun növlərinin sayının artırılması və daha geniş sahələr üzrə vətəndaşlara xidmətlərin göstərilməsi nəzərdə tutulur.

"Elektron Hökumət"in yaradılması və inkişaf etdirilməsi dövlət orqanlarının fəaliyyətində şəffaflığın təmin olunması üçün mühüm institusional islahat kimi xarakterizə olunur. Bilirsiniz ki, 2011-ci ildə "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Prezidentinin Fərmanı imzalanmışdır. Fərmana əsasən, dövlət orqanları öz fəaliyyət istiqamətlərinə uyğun olaraq elektron xidmətlər təşkil etmişlər. Elektron xidmətlərin "bir pəncərə" prinsipi əsasında təşkilinin təmin edilməsi məqsədi ilə müvafiq elektron hökumət portalı yaradılmışdır. Bu gün 417 elektron xidmətdən 187-si üzrə "bir pəncərə" prinsipi əsasında xidmətlər təklif olunur. Bu sistemə artıq 40 dövlət orqanı qoşulmuşdur.

Onu da qeyd etmək istərdim ki, Azərbaycan 2011-ci ildə Açıq Hökumət Tərəfdaşlığına qoşulan ilk dövlətlərdən biri olmuşdur və digər beynəlxalq səylərdə də fəal iştirak edir. Həyata keçirilmiş tədbirlər BMT, Avropa Şurası, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının aidiyyəti qurumları və digər beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir.

Nəhayət, korrupsiya cinayətlərinə qarşı sərt və qətiyyətli mübarizə tədbirləri davam etdirilir. Ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində cinayət təqibinin həyata keçirilməsi üzrə ixtisaslaşmış orqan olan Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsi fəaliyyət göstərir. Bu idarəyə beynəlxalq səviyyədə təqdirəlayiq təcrübə kimi qəbul edilən korrupsiya cinayətləri üzrə əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyəti verilmişdir. İdarənin hesabatına görə, 2012-ci ildə 298 şəxs barəsində 170 cinayət işi tamamlanaraq məhkəmələrə göndərilmişdir.

2013-cü ildə isə artıq 26 şəxs barəsində 19 cinayət işi tamamlanmışdır. Hazırda 120 cinayət işi idarənin icraatındadır.

Beləliklə, həyata keçirilən kompleks tədbirlərin son nəticədə korrupsiya hallarının qarşısının alınmasında mühüm rol oynayacağı şübhəsizdir. Bu da öz növbəsində Prezident İlham Əliyevin siyasi iradəsini və qətiyyətini açıq nümayiş etdirir, qarşıya qoyulan məqsədə çatmaq üçün zəruri resursların səfərbər olunduğunu göstərir. Hesab edirəm ki, cənab Prezidentin korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi barədə qəti tələbi, tapşırıq və tövsiyələri, habelə həyata keçirilən tədbirlərin ardıcıl şəkildə davam etdirilməsi sayəsində daha ciddi nəticələr əldə olunacaqdır.

***– Siz, eyni zamanda, Azərbaycan Respublikasının Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyasının sədrisiniz. Komissiyanın bir müddət əvvəl növbəti iclası keçirilmişdir. Bu iclasın nəticələrini necə qiymətləndirirsiniz?***

– Qeyd edim ki, Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2012-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2013-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında tapşırmışdır ki, təhsil sahəsində mənfi halların aradan qaldırılması, korrupsiyaya qarşı mübarizəni daha səmərəli təşkil etmək məqsədi ilə Azərbaycan Respublikasının Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyasında bu məsələ müzakirə olunsun. Bununla əlaqədar yanvarın 26-da təhsil idarəçiliyinə məsul vəzifəli şəxslərin iştirakı ilə Komissiyanın geniş tərkibli iclası keçirilmiş, mövcud vəziyyət ciddi müzakirə olunmuşdur. İclasda cənab Prezidentin təhsil sahəsində mövcud mənfi hallar barədə iradları və tapşırıqları iştirakçıların diqqətinə çatdırılmış və müvafiq tapşırıqlar verilmişdir. Tədbirdə təhsilin keyfiyyəti, təhsil sahəsində, xüsusilə ali təhsil müəssisələrində korrupsiya və digər mənfi halların





qarşısının alınması, təhsil idarəçiliyi, ümumi nəzarətin təşkili, təhsillə bağlı ictimai rəydə səslənən fikirlərə həssas yanaşılması, daxili resurslar hesabına müəllimlərin maaşlarının artırılması, ümumilikdə isə maliyyə şəffaflığının yüksəldilməsi və digər məsələlər müzakirə edilmişdir. Mənfi halların aradan qaldırılması məqsədilə Komissiya tərəfindən müvafiq qərar qəbul edilmiş, aidiyyəti dövlət qurumlarına bu istiqamətdə dönüş yaratmaq üçün təkliflərin hazırlanaraq Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyaya təqdim edilməsi tapşırılmışdır. Qeyd edilən mənfi hallar qısa müddət ərzində aradan götürülmədiyi təqdirdə Komissiya tərəfindən müvafiq tədbirlərin görüləcəyi iclas iştirakçılarına bildirilmişdir.

***– Ancaq konfransdan dərhal sonra müxalifət, bəzi mətbuat orqanları cənab Prezidentin tənqidi fikirlərini ümumiləşdirməyə və bütün idarəçilik sisteminə, ölkədəki vəziyyətə şamil etməyə cəhdlər göstərdilər. Ümumiyyətlə, bu gün müxalifətin aqressiv davranışı nə ilə izah oluna bilər?***

– Azərbaycanın hər bir uğurunu öz faciəsi kimi qəbul edən bəzi siyasi qruplar və onların xarici havadarları ölkənin inkişafı ilə bağlı cəmiyyətdə yanlış təsəvvür formalaşdırmaq üçün ciddi səylər göstərirlər. Ancaq bu gün dünyada hansı cəmiyyət mənfi hallardan sığortalanmışdır? Belə bir ölkə yoxdur. Cənab Prezidentin iradları təsdiq etdi ki, Azərbaycan hakimiyyəti populizmdən, siyasi kapital qazanmaq üçün süni görüntü yaratmaq niyyətindən uzaqdır. Əgər idarəetmədə hansısa qüsurlar, nöqsanlar varsa, biz onu açıq deyirik və bu mənfi halları aradan qaldırmaq üçün əməli tədbirlər görürük. Bunun üçün imkan da, qətiyyətli siyasi iradə də ortadadır.

Bu il Azərbaycanda prezident seçkiləri keçiriləcəkdir. Beynəlxalq təcrübə göstərir ki, əsasən müxalif qüvvələr növbəti

seçkiyə hazırlığı ötən seçkilərdən dərhal sonra başlayırlar, vətəndaşlarla, müxtəlif sosial təbəqələrlə təmas qurmaq üçün cəhdlər göstərirlər, niyyətlərini, hərəkət planlarını müzakirəyə çıxarırlar, öz elektoratını toplamağa və tərəfdarlarını səfərbər etməyə çalışırlar. Təbii ki, Azərbaycanda fəaliyyəti mövsümi xarakter daşıyan, heç bir sosial bazası olmayan siyasi qrupların cəmiyyətə deməyə sözü yoxdur. İqtidarın uğurları onları çox məyus edir, hakimiyyət ehtiraslarının qarşısına keçilməz sədd çəkir. Buna görə də onlar faktiki olaraq hakimiyyətə qarşı deyil, dövlətə, xalqa qarşı müxalifətçilik yolunu tutmuşlar. İsmayıllı rayonunda baş vermiş məişət xarakterli hadisə bir daha təsdiq etdi ki, Azərbaycanda bəzi siyasi qruplar mahiyyət etibarilə dağıdıcılıq fəaliyyəti göstərir, insanlar arasında süni narazılıq yaratmağa, ictimai-siyasi sabitliyi pozmağa, dövlət məmurlarına şər atmağa, onları şantaj etməyə və hörmətdən salmağa, hakimiyyət strukturları və vəzifəli şəxslər arasında qarşıdurmalar yaratmağa, rəsmi orqanların fəaliyyətinə qara yaxmağa cəhdlər göstərirlər. Üstəlik, onlar öz dağıdıcı fəaliyyətini demokratiya şüarları ilə pərdələməyə çalışırlar.

Demək istərdim ki, cəmiyyətin demokratik inkişafı şəraitində şəxsiyyət azadlığı vacib prinsiplərdən biridir. Lakin ictimai asayiş heç də bundan az əhəmiyyət kəsb etməyən, ümumi şəkildə cəmiyyəti və xüsusilə demokratik birgəyaşayışı xarakterizə edən kateqoriyadır, haldır. Buna görə də "şəxsiyyət azadlığını" spekulyasiya mövzusuna çevirərək ictimai asayişi pozmağa çalışanlar bilməlidirlər ki, demokratiya və anarxiya antipoddurlar. Hüquq mühafizə orqanlarının başlıca vəzifələrindən biri məhz cəmiyyətdə nizam-intizamı təmin etmək, "icazəsiz tamaşa azarkeşləri"nin antisosial məqsədlərinin həyata keçirilməsinə imkan verməməkdən ibarətdir. Qəti şəkildə deyə bilərəm ki, həm də son illər müxtəlif ölkələrdə baş verən hadisələrdən ruhlanan dağıdıcı müxalifət Azərbaycanda belə yollara əl atmağa çalışır. Ancaq onlar bu cəhdlərin heç vaxt nəticə verə bilməyəcəyinə əmin ola bilərlər.





Digər tərəfdən, son 20 ildən artıq bir dövrdə dağıdıcı müxalifətin siyasi hakimiyyət uğrunda "mübarizəsi" imitasiya xarakteri daşımış və əslində, özünüifşanın bariz nümunəsinə çevrilmişdir. Məhz ona görədir ki, radikal, siyasiləşmiş dindar qruplara üz tutmuş və onları özlərinə tərəfdaş seçmişlər. Qeyd etməyi vacib bilirəm ki, cəmiyyət, Azərbaycan ictimaiyyəti əsassız şəkildə onun adından çıxış etməyə çalışan müxalif qrupların, özlərini "ziyalı" adlandıranların Əkrəm Əylislinin mənfur "Daş yuxular" əsəri ilə bağlı xəyanətə bərabər mövqeyini gördü və bir daha bunların hansı məzhəbə qulluq etdiklərinə əmin oldu. Hakimiyyətə iddialı olan, özünü iqtidara opponent hesab edən dağıdıcı müxalifət, yüksək ziyalı adından sui-istifadə edənlər ümummilli məsələlərdə də xalqın tərəfində yox, onun iradəsinə zidd mövqedə durdular və əsl simalarını açıq nümayiş etdirdilər. Çox təəssüf ki, cəmiyyətimizdə belələrinə hələ ki, yer tapılır. Ancaq ictimaiyyətimiz, vətəndaşlarımız, əsl ziyalılarımız, gənclərimiz həm Əkrəm Əylisli kimilərinin, həm də onun havadarlarının əməllərini görür və öz qəti mövqelərini ortaya qoyurlar.

Təəssüf ki, bu qruplar həm də gəncləri çaşdırmağa, onlardan vasitə kimi istifadə etməyə çalışırlar. Bununla bağlı bildirmək istərdim ki, Facebook sosial şəbəkəsində ölkə həyatında baş vermiş ayrı-ayrı hadisələrə dair təxribat xarakterli çağırış edənlərin mövqeyi ictimai rəyi əks etdirmir. Ayrı-ayrı gənclərin emosiyalarının məhsulu olan, əsasən satqın-radikal müxalifət tərəfindən dəstəklənən və qızışdırılan sosial şəbəkələrdəki bu çağırışlar qanunla qorunan ictimai asayişi pozmaq üçün bəhanə ola bilməz. Lakin planlaşdırılan cinayətin üstünün bu günlərdə Milli Təhlükəsizlik

Nazirliyi və Respublika Baş Prokurorluğu tərəfindən həyata keçirilən əməliyyat tədbirləri nəticəsində açılması əyani şəkildə göstərdi ki, ictimai sabitliyi pozmaq istəyən qruplar sadəcə çağırışlar etmirlər. Bu, kifayət qədər narahatedici məsələdir. Çünki "Molotov kokteyli", narkotik vasitələr, külli miqdarda pul vəsaiti bu niyyətin kifayət qədər ciddi olduğunu açıq-aydın göstərir. Əlbəttə, hüquq mühafizə orqanlarının fəaliyyətinə, istintaqa təsir edə biləcək hər hansı şərh vermək düzgün olmazdı. Lakin hadisədən məlumatı olan hər bir şəxsi heç bir yerdə işləməyən gənclərdə bu qədər narkotik vasitənin, pulun haradan olduğu maraqlandırır. Yəqin ki, istintaq bu məsələlərə aydınlıq gətirəcəkdir.

Bu xüsusda xatırlatmaq istərdim ki, 2011-ci ildə əsasən gənclərdən ibarət kütlələr sosial narazılıq zəminində Böyük Britaniyada iğtişaşlar törətdilər. Hakimiyyət, hüquq mühafizə orqanları repressiv metodlardan istifadə etməklə 2000-ə yaxın adamı saxladı, iğtişaşların təşkilatçıları olan gənclər məhkum olundu, internetə çıxış, Facebook, Twitter kimi sosial şəbəkələrə giriş məhdudlaşdırıldı. Əlbəttə, burada Azərbaycanla hər hansı paralel aparmaq düzgün olmazdı, çünki ölkəmizdə belə hallar üçün heç bir zəmin yoxdur. Ancaq hesab edirəm ki, ölkəmizlə bağlı davamlı şəkildə əsassız və qərəzli iddialar irəli sürən bəzi maraqlı xarici dairələr, təşkilatlar dünyada və Azərbaycanda baş verən hadisələrə adekvat, obyektiv yanaşmalı, ikili standartdan əl çəkməlidirlər.

***– Bu gün Azərbaycan gəncliyi dövlətin diqqət və qayğısı ilə əhatə olunmuşdur. Tam əksəriyyət təşkil edən sağlam gəncliyin öz həmyaşıdlarının belə hərəkətlərinə münasibəti necə olmalıdır?***

– Əlbəttə, müxalifətin, müəyyən xarici anti-Azərbaycan dairələrin təsiri altına düşən belə qeyri-vətənpərvər gənclərin sayı çox azdır. Çünki bu gün dövlətin həyata keçirdiyi siyasət gənc nəslin hərtərəfli inkişafına, problemlərinin həllinə, onların dövlət idarəçiliyində, ictimai həyatda, cəmiyyətdə gedən proseslərdə fəal iştirakına, vətənpərvər, öz dövlətinin və xalqının təəssübünü çəkən vətəndaş kimi formalaşmasına tam şərait yaradır. Cənab Prezident həmişə gənclərlə görüşür, onlarla fikir mübadiləsi aparır, problemləri ilə maraqlanır və bu problemlərin həlli məqsədilə müvafiq fərman və sərəncamlar imzalayır, tapşırıqlar verir. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətini daha da inkişaf etdirmək, gənclərin menecment sahəsində fəal iştirakına şərait yaratmaq, gənc mütəxəssislərin işlə təminatı və digər sosial-iqtisadi problemlərinin həllini təmin etmək məqsədilə qəbul olunmuş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı və bu sənəd çərçivəsində həyata keçirilən tədbirlər cənab İlham Əliyevin gəncliyimizə diqqət və qayğısının bariz nümunəsidir. 2012-ci ildə yaradılmış Gənclər Fondu gənclər təşkilatlarının müxtəlif layihələrinin maliyyələşməsini təmin etməklə onların fəallığını artırır, müxtəlif sahələrdə potensiallarının daha geniş realizə olunması üçün əlavə stimul yaradır.

Azərbaycanda təhsilin keyfiyyətinin yüksəldilməsi, savadlı, yüksək intellektli gənclərin yetişdirilməsi, onların irəli çəkilməsi və dövlət idarəçiliyində yaxından iştirakının təmin edilməsi üçün zəruri tədbirlər görülür. Dövlətin kadr potensialının gənclərin hesabına inkişaf etdirilməsi idarəçiliyin aktual məsələlərindən birini təşkil edir. Xarici ölkələrin aparıcı ali məktəblərində gənc azərbaycanlıların təhsil almasını dəstəkləmək məqsədilə xüsusi dövlət proqramı qəbul edilmişdir. Proqram çərçivəsində xaricdə təhsilini davam etdirən gənclərimizin sayı artıq 1800 nəfəri keçmişdir. Onlar yüksək bilikləri və dünyagörüşü ilə Azərbaycanın gələcəyinə öz töhfələrini verir, ölkəmiz haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması işində fəal iştirak edirlər.

Bütün bunlar onu deməyə əsas verir ki, ölkənin tam əksəriyyət təşkil edən sağlam gəncliyi indiyə qədər olduğu kimi, bundan sonra da dövlət başçısının yürütdüyü siyasəti dəstəkləyəcək, heç vaxt dağıdıcı qrupların siyasi avantürasının iştirakçısına çevrilməyəcəkdir. Bu gün sağlam gənclik müxtəlif antimilli qrupların təsiri altına düşmüş həmyaşıdları ilə təmas qurmalı, onları səhv yoldan çəkindirməlidir. Bunun üçün onlar müxtəlif tədbirlərdə, auditoriyalarda, kütləvi informasiya vasitələrində, sosial şəbəkələrdə disput və müzakirələrdə daha fəal iştirak etməli, öz mövqelərini ortaya qoymalıdırlar. Universitetlərdə tələbə gənclər təşkilatları bu istiqamətdə səylərini artırmalıdırlar.

***– Siz bəzi maraqlı xarici dairələri, təşkilatları obyektivliyə dəvət etdiniz. Lakin Azərbaycanda fəaliyyət göstərən bəzi beynəlxalq qeyri-hökumət təşkilatlarının və onların yerli nümayəndəliklərinin fəaliyyətində gizli korrupsiya, vəsaitlərin narahatlıq doğuran məqsədlərə istifadə olunması halları mövcuddur. Bu barədə nə deyə bilərsiniz?***

– Hazırda Azərbaycanda 100-dən artıq beynəlxalq qeyri-hökumət təşkilatı Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. Ancaq qeydiyyatdan keçməyən, lakin faktiki işləyən təşkilatlar da var ki, onların fəaliyyəti bir sıra suallar doğurur. Qeydiyyatdan keçən beynəlxalq QHT-lərin maliyyə hesabatlığı çox acınacaqlı vəziyyətdə olduğundan, xarici donorlardan daxil olan qrantların və ianələrin böyük hissəsinin gerçəkdə hara xərcləndiyi bilinmir. Bu məsələdə şəffaflıq yoxdur. Mövcud qanunvericiliyə görə, yerli və xarici QHT-lərin gəlirləri və xərcləri barədə məlumat dövlət və ya kommersiya sirri ola bilməz. Onlar hər il Maliyyə Nazirliyinə müvafiq hesabat verməli, nazirlik isə qanunun tələblərinin yerinə yetirilməsinə ciddi nəzarət etməlidir. Bir sıra hallarda bu təşkilatların əsl hədəfləri qeyri-müəyyən qalır. Azərbaycanın





milli təhlükəsizliyinə təhdidlər yarananda, hökumət hansısa addımlar atanda onların maliyyələşdirdiyi yerli müdafiəçilər, beynəlxalq havadarları dərhal hay-küy salır, birləşmək, söz azadlığının pozulduğunu iddia etməyə başlayırlar. Bəzən həmin saxta QHT-lər diplomatik müdafiədən də istifadə etməkdən çəkinmirlər.

Aparılan təhlillər göstərir ki, hətta qrantlar qeydiyyata alındıqdan sonra külli miqdarda maliyyə vəsaitinin ayrılması davam etdirilir və onların barəsində məlumatlar verilmir. Vəsaitlərlə bağlı aparılan əməliyyatlar, məlumatsızlıq latent korrupsiya təzahürlərindən xəbər verir.

Araşdırmalar zamanı başqa gizli mexanizmlər də aşkarlanmışdır. Beynəlxalq QHT-nin yerli nümayəndəliyi qeydiyyata alınmır, amma baş təşkilat yerli QHT-lərə qrant verir və ya əksinə, yerli nümayəndəlik qeydiyyata alınır, amma baş təşkilat yenə də yerli QHT-lərə birbaşa qrant verməkdə davam edir. Yerli nümayəndəliklərin qeydiyyata alınmamasına baxmayaraq, bəzi beynəlxalq QHT-lərin baş təşkilatları hər hansı bir şəxsə etibarnamə verir və onu nümayəndə təyin edirlər. Həmin şəxs ölkədə fəaliyyətə başlayır. Bu fəaliyyət isə hüquqi baxımdan qanunsuzdur.

Bəzi beynəlxalq QHT-lər reallıqda mandatlarına aid olmayan məsələlərlə məşğuldurlar. Onlar rəsmi olaraq müəyyən qrant layihəsi elan edir, lakin reallıqda tamamilə başqa, bir çox hallarda dağıdıcı məqsədlər üçün vəsait ayırırlar. Təhsil sahəsində ixtisaslaşan bəzi təşkilatlar qeyri-təhsil layihələrini, qaçqın və məcburi köçkünlərə yardım etməli olan beynəlxalq QHT-lər müxalifət QHT-lərini maliyyələşdirməklə məşğul olurlar. Onların donorları qrant verəndə pulun nəyə xərclənəcəyini yaxşı bilirlər. Demək, əsl məqsəd təhsil, qaçqınlara və məcburi köçkünlərə yardım layihələri deyil, öz təsir dairələrini genişləndirməkdir. Hətta humanitar təşkilat kimi qeydiyyatdan keçən bəzi xarici QHT-lər anlaşma me-

morandumlarına zidd olaraq Vergilər Nazirliyində qeydiyyatdan keçməklə kommersiya fəaliyyəti ilə məşğul olurlar.

Bu mövzuda əlavə olaraq qeyd etmək istərdim ki, bəzi xarici QHT nümayəndələrinin vaxtaşırı öz hesablarından iri məbləğdə nağd pul çıxarmaları ilə ölkədə baş verən hadisələr arasında sinxron bağlılıq müşahidə olunur. Bu çıxarışların həm də aylıq xarakter daşıması ayrı-ayrı beynəlxalq QHT-lərin həmin vəsaitləri müxalifətə aylıq maaş şəklində payladıqları barədə şübhələr yaradır. Sosial şəbəkələr vasitəsilə gənclərin dünyagörüşü radikallaşdırılır, onlar təşkilatlandırılır, pul hesabına qanunsuz tədbirlərdə iştiraka stimullaşdırılırlar. Belə təşkilatların bəzi nümayəndələri əvvəllər işlədikləri ölkələrdə vətəndaşları kütləvi iğtişaşlara təhrik etdikləri üçün oradan xaric edilmişlər. Hazırda isə qərəzli fəaliyyətlərini Azərbaycanda davam etdirirlər. Halbuki, həmin QHT-lər uzun müddət Azərbaycanda qeydiyyatdan keçmək üçün dəfələrlə müraciət etmiş və öz üzərlərinə bitərəflilik, qərəzsizlik və balanslılıq prinsiplərinə riayət edəcəkləri barədə öhdəliklər götürmüşlər.

Beynəlxalq QHT-lərin Azərbaycandakı fəaliyyəti ilə bağlı bir fakta münasibət bildirmək istərdim. Bu günlərdə yerli mətbuatda ABŞ Milli Demokratiya İnstitutunun Azərbaycandakı nümayəndəliyinin rəhbəri Aleks Qriqoryevsin ölkəmizdə ictimai-siyasi sabitliyin pozulmasına yönəlmiş fəaliyyəti haqqında məlumat yayıldı. Əgər orada göstərilən faktlar təsdiq olunsa, biz bu qurumla əməkdaşlığımızı dayandırmalı olacağıq. Üstəlik, MDİ-nin nümayəndəsi martın 10-da "Fəvvarələr" meydanında keçirilməsinə cəhd olunmuş qeyri-qanuni aksiyada iştirakını etiraf etmişdir. Görünür ki, MDİ-nin Bakı nümayəndəliyi və onun əməkdaşları haqqında yayılan məlumatlar ciddi yoxlanılmalıdır.

Biz müşahidələrimizi və tədqiqatlarımızı davam etdiririk. Bu gün Azərbaycan qanunvericiliyinin tələblərini pozan





digər təşkilatların adının çəkilməsini hələ ki, məqsədəmüvafiq hesab etmirəm. Lakin nəticə çıxarmasalar, onları Azərbaycan qanunlarına hörmət etməyə məcbur edəcəyik. Ədliyyə Nazirliyi də nizamnamə məqsədlərindən kənara çıxan QHT-lərə bir neçə dəfə xəbərdarlıq etmişdir. Əgər həmin QHT-lər bu iradlardan nəticə çıxarmasalar, onlar barəsində də ciddi tədbirlər görüləcəkdir. Ümumiyyətlə, belə hallar Azərbaycan cəmiyyətində ciddi narahatlıq yaradır, ölkəmizin daxili işlərinə müdaxilə kimi qiymətləndirilir. Bu məsələlər aidiyyəti dövlət orqanlarını ciddi düşündürməlidir.

***– Ancaq bir sıra hallar ölkəmizdə fəaliyyət göstərən diplomatik missiyaların da həm beynəlxalq, həm də Azərbaycan qanunvericiliyinin tələblərinə laqeyd yanaşdığını deməyə əsas verir.***

– Sizinlə razıyam. Beynəlxalq münasibətlər haqqında 1961-ci il Vyana Konvensiyasına əsasən diplomatik nümayəndəliyin əməkdaşları qəbul edən dövlətin ərazisində hər hansı şərait və hadisəni aydınlaşdırarkən və ya öyrənərkən bunu qanuni vasitələrlə, başqa sözlə desək, qəbul edən dövlətin qanunvericiliyi ilə qadağan edilməyən vasitələrlə yerinə yetirmək öhdəliyi daşıyırlar. Həmçinin sözügedən beynəlxalq konvensiyaya əsasən, diplomatik nümayəndəliklərin əsas funksiyalarından biri məhz iki ölkə arasında dostluq münasibətlərini təşviq etmək və bu münasibətlərin irəli aparılmasına çalışmaqdır. Lakin bəzi hallarda xarici səfirliklərin nümayəndələri Azərbaycanın daxili işlərinə müdaxilə edir, siyasi proseslərə, öz təlimatları ilə onun icraçılarına təsir göstərməyə çalışır və müəyyən mənada maraqlı tərəfə çevrilərək həm beynəlxalq, həm də Azərbaycan qanunlarının tələblərini pozurlar.

Digər tərəfdən, Vyana Konvensiyasına əsasən qəbul edən dövlətin diplomatik missiyanın əməkdaşlarının toxunulmazlığını təmin etmək üçün zəruri tədbirlər həyata keçirmək

öhdəliyi vardır. Bu öhdəliyin icrası ilə əlaqədar Azərbaycan Xarici İşlər Nazirliyi həm ölkəmizdə akkreditə olunmuş diplomatik missiyalara müvafiq rəsmi bildiriş ünvanlamış, həm də həmin sənədi öz internet səhifəsində yerləşdirmişdir. Bildirişdə qeyd olunur ki, diplomatik missiyaların əməkdaşları və onların ailə üzvləri, Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş əraziləri və qoşunların təmas xətti istisna olmaqla, ölkənin bütün ərazisində qarşılıqlılıq prinsipi əsasında sərbəst hərəkət etmək imkanına malikdirlər. Bununla yanaşı, onlara tövsiyə olunur ki, sərhəd bölgələrinə səfərlər planlaşdırarkən öncədən bununla bağlı Xarici İşlər Nazirliyi ilə məsləhətləşmələr aparılsın. Həmçinin Azərbaycanın hər hansı bölgəsində rəsmi görüşlər keçirmək və ya rəsmi tədbirlərdə iştirak etmək planlaşdırılırsa, bu halda nəzərdə tutulan səfərdən 7 iş günü əvvəl Azərbaycan XİN-ə nota ilə yazılı müraciət olunmalıdır. Bəzi hallarda Konvensiyanın tələblərinin və Xarici İşlər Nazirliyinin tövsiyələrinin nəzərə alınmaması, ilk növbədə, diplomatların təhlükəsizliyinin təmin edilməsinə maneə yaradır. Bütün bunları nəzərə alaraq, hesab edirəm ki, ölkədə akkreditə olunmuş diplomatik missiyalar fəaliyyətlərində Vyana Konvensiyasının müddəalarını rəhbər tutmalı və Azərbaycanın daxili işlərinə müdaxilə etməməlidirlər.

***– Ramiz müəllim, Siz bu il keçiriləcək seçki mövzusuna da toxundunuz. Prezident Administrasiyası namizədlə bağlı nə düşünür, seçkilərə neçə hazırlaşır və konkret olaraq budəfəki seçkidən nə gözləyir? Bütün əvvəlki seçkilərdə beynəlxalq təşkilatlarla yaxından əməkdaşlıq edilmişdir. Builki seçkilərdə də belə əməkdaşlıq olacaqmı?***

– Son 20 ilin təcrübəsi göstərir ki, Azərbaycan vətəndaşları öz intellekti, böyük dövlət xadimi qabiliyyəti, idarəçilikdə yenilikçiliyi ilə seçilən və müasir beynəlxalq siyasətin





bütün nüanslarını bilən lider ətrafında birləşirlər. Prezident İlham Əliyev milli liderə xas bütün keyfiyyətlərə malikdir. Ötən 10 ildə onun rəhbərliyi ilə həyata keçirilən siyasət Azərbaycanın hərtərəfli və dinamik inkişafını, cəmiyyətimizin rifahını, ölkəmizin milli maraqlarını və beynəlxalq nüfuzunun yüksəlməsini təmin etmişdir. Cənab Prezident ümummilli lider Heydər Əliyevin siyasi kursunu dönmədən davam etdirmiş, xalqın etimadına və dəstəyinə arxalanaraq bütün qüvvəsini və hakim komandanın potensialını səfərbər etməyi bacarmış, bugünkü inkişafa nail olmuşdur. Buna görə də xalqımız birmənalı şəkildə cənab İlham Əliyevin həyata keçirdiyi siyasi kursu dəstəkləyir, onun gələcəkdə də davam etdirilməsini zəruri sayır, bu gün ölkədə ona alternativ görmür. Təsadüfi deyil ki, Həmkarlar İttifaqları Konfederasiyası, Ağsaqqallar Şurası, Qızıl Aypara Cəmiyyəti kimi Azərbaycanın ən kütləvi, böyük təşkilatları artıq cənab İlham Əliyevin namizədliyini irəli sürmüşlər. Bir daha qeyd etmək istəyirəm ki, əgər biz cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizin əldə etdiyi heyrətamiz nailiyyətləri, keçirilmiş sosioloji sorğuların nəticəsi olaraq onun xalq arasında 87-93 faiz təşkil edən yüksək reytinqini və beynəlxalq nüfuzunu, habelə cənab Prezidentin öz sıralarında 600 mindən artıq vətəndaşı birləşdirən, ölkənin ən böyük və nüfuzlu siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasına rəhbərlik etdiyini nəzərə alsaq, bu ilin payızında keçiriləcək prezident seçkilərinin nəticəsini görmək çətin olmaz – seçicilərin böyük əksəriyyəti öz səslərini Prezident İlham Əliyevə verəcəkdir.

Buna baxmayaraq, təbii ki, biz Administrasiya olaraq bu seçkilərə təşkilati nöqteyi-nəzərdən hazırlaşırıq, Mərkəzi Seçki Komissiyası ilə birlikdə üzərimizə düşən işləri görürük, fəaliyyətimizi seçki praktikasının təkmilləşdirilməsi, demokratik, azad və ədalətli seçkilərin keçirilməsi istiqamətində qururuq.

Əvvəlki illərdə olduğu kimi, beynəlxalq təşkilatlarla əməkdaşlığı yenə də davam etdirəcəyik. Həm ATƏT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, MDB, GUAM və digər beynəlxalq təşkilatlarla, həm də bizimlə ikitərəfli əlaqələri olan ölkələrlə, onların seçki institutları ilə əməkdaşlıq edəcəyik.

Hesab edirik ki, seçkinin təşkili və seçki prosedurlarının şəffaflığının təmin olunması istiqamətində xarici tərəfdaşlarımızla birgə səmərəli və faydalı iş aparacağıq. Ancaq bütün hallarda son sözü Azərbaycan vətəndaşı deyəcək və kimin nə düşünməsindən asılı olmayaraq yalnız seçici səsi hər şeyi həll edəcəkdir.



# AZƏRBAYCAN YALNIZ BƏRABƏRHÜQUQLU VƏ QARŞILIQLI HÖRMƏTƏ ƏSASLANAN DİALOQ APARMAQ ƏZMİNDƏDİR VƏ BUNA HAZIRDIR, DÖVLƏTLƏRARASI MÜNASİBƏTLƏRİN BAŞQA FORMALARI ONUN ÜÇÜN QƏBULEDİLMƏZDİR

*AZƏRTAC-a müsahibə*
*(22.05.2014-cü il)*

***– İcazə verin, ilk növbədə, müsahibə üçün sizə təşəkkür edək. ABŞ-ın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Riçard Morninqstar bu günlərdə "Azadlıq" radiosunun müxbirinə müsahibə vermişdir. Bu müsahibə Azərbaycan cəmiyyətində anlaşılmazlıq yaratmışdır. Politoloqlar, ekspertlər, deputatiar, sıravi vətəndaşlar həmin müsahibəyə mənfi münasibət bildirmiş və onu diplomat üçün rəva görülməyən tonun təzahürü kimi qiymətləndirmişlər. Müsahibəni Prezident Administrasiyasının nümayəndələri də şərh etmişlər. Bu barədə sizinlə daha ətraflı söhbət etmək istərdik. Siz ABŞ səfirinin bu müsahibəsini Birləşmiş Ştatlar ilə Azərbaycan arasında qarşılıqlı münasibətlər kontekstində bütövlükdə necə qiymətləndirirsiniz?***

– Mən, ilk növbədə, səfir Morninqstarın həmin müsahibədə ifadə olunmuş mövqeyinə münasibət bildirməyi zəruri hesab etmiş insanların hamısına təşəkkür etmək istərdim. Bu, bizim insanların əsl vətəndaşlıq mövqeyidir.

Doğrudan da dünyada, o cümlədən postsovet məkanında da bir çox cəhətdən məhz Qərbin təqsiri üzündən

kəskinləşmiş geosiyasi proseslər fonunda ABŞ səfirinin qərəzli müsahibəsi ən azı heyrət doğurur. Hər halda onu belə bir müsahibə verməyə və diplomatik etiket baxımından bu qədər qeyri-korrekt fikirlər söyləməyə hansı motivlərin və səbəblərin sövq etdiyini deməyə çətinlik çəkirəm. Bu, ölkənin daxili işlərinə açıq-aydın və kobudcasına müdaxilə deməkdir. İstənilən halda buna haqq qazandırmaq mümkün deyil və ola da bilməz. Bir daha vurğulamaq istəyirəm ki, səfirin söylədiyi fikir mahiyyət etibarilə onun olduğu ölkənin daxili işlərinə açıq və bilavasitə müdaxilədir. Bu isə Diplomatik əlaqələr haqqında Vyana Konvensiyasına görə yolverilməzdir. Üstəlik, həmin müsahibənin tonu öz baxışlarını müstəqil dövlətə diktə etmək və qəbul etdirmək cəhdini xatırladır.

**Səfir Morninqstar unutmamalıdır ki, Azərbaycan heç kimin müstəmləkəsi deyil, müstəqil dövlətdir.** Morninqstar ABŞ-ın səfiri kimi çalışdığı ölkənin suverenliyinə hörmətlə yanaşmağa sadəcə borcludur. Yeri gəlmişkən, bu sözlər bəzi Qərb ölkələrinin səfirlərinə də birbaşa aiddir, onlar ABŞ səfirindən nümunə götürərək onun kimi hərəkət etməyə çalışırlar. Biz Azərbaycana hörmətsiz münasibətə dözmək niyyətində deyilik.

Azərbaycan Prezidenti cənab İlham Əliyev dəfələrlə demişdir ki, o, istər Azərbaycana, istərsə də onun xalqına etinasız və hörmətsiz münasibətə dözməyəcək və buna yol verməyəcəkdir. Hesab edirəm ki, bizim amerikalı həmkarlar ölkəmizin rəhbərliyinin mövqeyini yaxşı bilirlər. Lakin əgər ABŞ səfiri heç nəyə məhəl qoymadan Azərbaycanın ünvanına bu cür kobud hücumlar etməyi özünə rəva görürsə, deməli, onun statusu ilə bağlı ciddi problemləri vardır. Təəssüf ki, səfir Morninqstarın diplomat üçün yolverilməz formada bizə diktə etməyə, ölkəmizin daxili işlərinə qarışmağa cəhd etməsi birinci dəfə deyildir. Bu, onun diplomat kimi





peşəkarlığını çox böyük sual altına qoyur. Səfirin Azərbaycanın qonşuları barədə söylədiklərində daha bir mühüm fakt diqqəti cəlb edir. Bu cür bəyanatlar sırf təhrikçilikdən başqa bir şey deyildir. Azərbaycan üçüncü qüvvələrin arzularından asılı olmayaraq, öz qonşuları ilə mehriban qonşuluq münasibətləri saxlayır və həmişə saxlayacaqdır. İndiki dövrdə dünyada yaranmış vəziyyət bizim fəaliyyətimizin düzgün və səmərəli olduğunu növbəti dəfə sübut edir.

Bu müsahibənin kontekstindən çıxış edərək deyə bilərəm ki, səfir əndazəni aşmışdır. O, özünü Azərbaycanda qaraqışqırıq salmaqla hökmranlıq edən bir qubernator zənn etmişdir. Səfirin özünə güvənməsi elə özünə qarşı çevrilmişdir. Çoxsaylı görkəmli ekspertlər, o cümlədən amerikalı ekspertlər hesab edirlər ki, Vaşinqtonun indiki xarici siyasətində böhran elementləri göz qabağındadır. ABŞ dövlət katibi cənab C.Kerrinin bu sahədə konseptual dəyişikliklərin zəruri olması barədə bəyanatı da bu fikri təsdiqləyir. Görünür, Morninqstar dünyada yeni siyasi meyilləri sezməmişdir. Aşkardır ki, səfir Morninqstarın və onun fəaliyyətinə bilavasitə rəhbərlik edənlərin dünyagörüşü keçmişdə ilişib qalmışdır və müasir dövrün tələblərinə ziddir. Çoxqütblü dünya müstəmləkəçilik təfəkküründən imtina etməyə çağırır.

***– Gəlin, söhbətimizi daha konkret şəkildə davam etdirək. Səfirin belə bir fikrindən başlayaq ki, guya Azərbaycanın müstəqilliyinin qarantları məhz ABŞ və Avropa İttifaqıdır. Guya əgər sabah ABŞ "qapını çırparaq" Azərbaycandan çıxıb getsə, bizim işlərimiz pis olacaqdır. Səfir Azərbaycanın suverenliyi üçün təhdidlər kimi qonşularımızı göstərir, Rusiyanı xüsusi vurğulamağa çalışır. Bu fikir real vəziyyətə nə dərəcədə uyğundur?***

– Heç kəs unutmamalıdır ki, Konstitusiyaya uyğun olaraq ölkəmizin müstəqilliyinin qarantı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevdir. Heç bir kənar

qüvvə heç vaxt bizim müstəqilliyimizin qarantı kimi çıxış etməmişdir, etmir və edə bilməz. Qoy, Morninqstar bizim üçün heç fikir çəkməsin, Azərbaycanın indiki inkişaf səviyyəsi, iqtisadiyyatın artımı və dövlətçilik təsisatlarının möhkəmlənməsi bizə xalqın dəstəyinə güvənərək ölkənin müstəqilliyini müdafiə etmək imkanı verir.

Dövlətlərin müstəqilliyinə təhdidlər həmişə dünyanı təkbaşına idarə edənlərdən yaranmışdır. Bu gün vəziyyət başqadır.

Sizin sualınızın ikinci hissəsinə gəldikdə isə məlum həqiqəti xatırlatmaq istəyirəm – diplomatların vəzifəsi qapıları açmaqdır, onu arxasınca çırpmaq deyildir. Bunu hər kəs edə bilər, lakin əgər sizə diplomat missiyası həvalə edilmişdirsə, zəhmət çəkin, bu missiyanı məsuliyyətlə və vicdanla yerinə yetirin. Regiondan çıxıb getmək və təhrikçi fikirlər söyləməklə Azərbaycanı şantaj etmək lazım deyil. Şantaj, hədə-qorxu dili ilə etimad və rəğbət qazanmaq mümkün deyil. Yaxşısı budur, münasibətlər bərabərhüquqlu əsasda qurulsun və dövlət müstəqilliyini boğmaq siyasətinə ümid bəslənməsin.

Morninqstarın sözlərinə görə o, Prezident İlham Əliyevlə artıq 19 ildir ki, tanışdır. Lakin görünür, bu müddətdə səfir bir həqiqəti dərk etməmişdir ki, Azərbaycan lideri yüksək tonla danışmağı, hədələri və şantajı qəbul etmir. Yoxsa Morninqstar Azərbaycanda vəziyyət barədə qeyri-korrekt fikirlər söyləməyi özünə rəva görməzdi. Biz yalnız bərabərhüquqlu və qarşılıqlı hörmətə əsaslanan dialoq aparmaq əzmindəyik və buna hazırıq, dövlətlərarası münasibətlərin başqa formaları bizim üçün qəbuledilməzdir. Mən şübhə etmirəm ki, Vaşinqtonda Azərbaycanla bağlı siyasəti sağlam düşüncəli və təcrübəli siyasətçilər müəyyən edir. Onlar çox gözəl başa düşürlər ki, Azərbaycandan getmək onlara hansı geosiyasi qiymətə başa gələcəkdir. Avropa İttifaqı ölkələrində





də bunu yaxşı başa düşürlər. Beynəlxalq məsələlərin mövcud vəziyyətini nəzərə alsaq, ABŞ səfirinin mövqeyi olduqca qeyri-ciddi səslənir. Mən güman etmirəm ki, ABŞ özünün çoxdanışan səfirinin məsuliyyətsiz bəyanatları ucbatından Avropanın enerji təhlükəsizliyi məsələsində mühüm rol oynayan Azərbaycan ilə münasibətləri korlayacaqdır. Razılaşın ki, ABŞ diplomatiyasının ənənəvi praqmatizmi buna imkan verməz. Morninqstara gəldikdə isə, məndə belə bir fikir yaranır ki, o, Azərbaycanda səfir kimi özünü doğrultmadı.

İndi isə ABŞ nümayəndəsinin Azərbaycanın öz qonşuları ilə qarşılıqlı münasibətləri barədə sözlərinə diqqət yetirək. Mən növbəti dəfə vurğulamaq istərdim ki, Azərbaycanın xarici siyasəti onunla həmhüdud ölkələrlə mehriban qonşuluq və sülh münasibətlərinə əsaslanır. Biz onların daxili işlərinə qarışmırıq və özümüzə münasibətdə də bunu tələb edirik. Rusiyaya gəldikdə isə, bu ölkə bizim ən yaxın qonşumuzdur və onunla münasibətlər Azərbaycanın xarici siyasətində həmişə xüsusi bir vektor olmuşdur. Ölkələrimiz arasında qarşılıqlı anlaşma vardır. Ortaya çıxan bütün məsələlər yalnız danışıqlar və bərabərhüquqlu dialoq yolu ilə həll edilir. Həllini gözləyən yeganə məsələ Dağlıq Qarabağ problemidir. Belə hesab etmək qeyri-obyektiv olardı ki, indiki məqamda Rusiya ilə Azərbaycan arasında hansısa bir gərginlik vardır. Hərçənd, istər daxildə, istərsə də xaricdə müəyyən qüvvələr Azərbaycan ilə Rusiya arasında münasibətləri korlamaq üçün dəfələrlə cəhd göstərmişlər. Lakin bu iki dövlətin rəhbərlərinin müdrikliyi və qarşılıqlı etimadı sayəsində belə təhriklər uğursuz olmuşdur.

Səfir Morninqstar hesab edir ki, Azərbaycanın cənubdan İranla və şimaldan Rusiya ilə qonşu olması guya bizim ölkəmiz üçün təhlükədir. Hərçənd, o, nədənsə Azərbaycanın ərazi bütövlüyünə əsas təhlükəni unutmuşdur. Azərbaycan torpaqlarının 20 faizini işğal etmiş Ermənistan təkcə Azər-

baycanın ərazi bütövlüyü üçün başlıca təhlükə deyil, həm də regionda barıt çəlləyidir. ABŞ-da bu barədə narahat olmalıdırlar, nəinki bizim qonşumuzun kim olması barədə. Erməni işğalçılar bizim torpaqları tərk edib getməyincə regionda hərbi münaqişənin başlanması təhlükəsi qaçılmazdır.

Əgər ABŞ həqiqətən özünü müstəqilliyin qarantı hesab edir və bizim qeydimizə qalırsa, onda nəyə görə o, "Azadlığa Dəstək Aktı"na 907-ci düzəlişi indiyə qədər ləğv etməyib? Düzdür, Vaşinqton hazırda həmin düzəlişin qüvvəsini dayandırmışdır, lakin əgər amerikalılar ikitərəfli münasibətlərin inkişafında, həqiqətən, bu dərəcədə səmimi maraqlıdırlarsa, onda nə üçün həmin düzəlişi birdəfəlik ləğv etmək istəmirlər? Yaxud, nə üçün ABŞ Ermənistana təsir göstərmir ki, o, Azərbaycanın işğal olunmuş torpaqlarını tərk etsin? Axı, elə hallar məlumdur ki, ABŞ-ın mənafeyi bunu tələb edəndə dərhal praktiki fəaliyyətə başlayıb. Məsələn, Liviyada ABŞ və NATO suveren dövlətə qarşı güc tətbiq etmək aksiyasına başladılar, özü də BMT Təhlükəsizlik Şurasının müvafiq sənədinin mürəkkəbi qurumamış. Bircə anda müvafiq qərar qəbul edildi və operativ şəkildə həyata keçirildi. Yaxud, İraqı və keçmiş Yuqoslaviyanı xatırlayaq, orada ABŞ BMT Təhlükəsizlik Şurasının qərarlarını gözləmədən güc tətbiq etmişdir. Bəs səbəb nədir ki, ABŞ Ermənistan tərəfdən Azərbaycana münasibətdə beynəlxalq hüququn pozulmasına bu dərəcədə laqeyddir? Mənim fikrimcə, ABŞ səfiri ilk növbədə, Azərbaycan ictimaiyyəti üçün məhz bu məsələləri aydınlaşdırmalı idi, – iyirmi ildən artıqdır ki, bu məsələlər, o cümlədən elə Morninqstarın ölkəsinin təqsiri üzündən öz həllini tapmır.

***– Qarabağ mövzusunu davam etdirək. Müsahibəsindən görünür ki, Azərbaycanın daxili işlərinə açıq-aşkar müdaxilə edən Morninqstar Qarabağla əlaqədar isə birbaşa cavabdan yayınır. Başa düşürük ki, Ş.M.Taleyranın məşhur ifadəsinə görə, dil diplomata fikirlərini gizlətmək üçün verilmişdir. Lakin nədənsə bu prinsip Qərb, o cümlədən Amerika diplomatlarında yalnız Qarabağ münaqişəsinə münasibətdə özünü göstərir. Nə üçün? Bundan əlavə, səfir Ukrayna hadisələri ilə əlaqədar ABŞ-ın Cənubi Qafqazda fəallaşmasının zəruri olduğunu qeyd edir. Bu barədə sizin fikriniz necədir?***

– Atəşkəs rejiminin 20 illiyi bu yaxınlarda tamam olmuşdur. Bu müddətdə Azərbaycan münaqişənin sülh yolu ilə tənzimlənməsi üçün çox səy göstərmişdir. Biz ATƏT-in Minsk qrupu ilə sıx əməkdaşlıq edir və sülhə nail olmaq üçün bütün imkanlardan istifadə etməyə çalışırıq. Lakin çox təəssüf ki, hələ nəticə yoxdur. Nə üçün? Cavab sadədir. Ona görə ki, ABŞ-ın heç də sonuncu rol oynamadığı ATƏT-in Minsk qrupu guya təcavüzkarı işğal etdiyi torpaqlardan çıxıb getməyə məcbur edə bilmir.

Məlum olduğu kimi, Qərbin bütün siyasi strukturları Azərbaycan torpaqlarının işğal edilməsi faktı ilə razıdırlar. Lakin onların hamısı ABŞ-ın təsiri ilə tərəfləri bu problemi sülh yolu ilə həll etməyə çağırırlar. Ermənistan yaxşı görür ki, ATƏT-in Minsk qrupunun üzvləri olan ölkələr bu problemin həllində fəallıq görüntüsü yaradır, əslində isə özlərinin fəaliyyətsizliyi ilə təcavüzkarın bu münaqişənin həllini uzatmasına kömək edirlər.

Hətta sıravi obıvatel də şübhə etmir ki, əgər hər hansı qonşu dövlət ATƏT-in Minsk qrupunun üzvləri olan ölkələrin ərazisinin bir hissəsini zəbt edərsə, həmin ölkə dərhal bu işğala cavab olaraq öz silahlı qüvvələrinin bütün gücünü tətbiq edər. Ermənilərin təcavüzünə isə onlar nədənsə barmaqarası baxırlar. Sizcə bu, ikili standartların aşkar təzahürü deyilmi?

Lakin fakt faktlığında qalır – amerikalılar beynəlxalq hüquq normalarını təcavüzkara münasibətdə tətbiq etməkdə

fəallıq göstərməyi zəruri hesab etmirlər. Bunun əvəzinə onlar erməni işğalçıların hərəkətlərini sanki təşviq edirlər.

ABŞ Konqresi Dağlıq Qarabağ separatçılarına hər il maddi yardım göstərir. Müxtəlif məlumatlara görə 1998-ci ildən bəri bu tanınmamış rejimə 83 milyon dollar məbləğində maddi yardım ayrılmışdır. Faktiki yardımın həcmi isə 40 milyon dollar olmuşdur. Bundan əlavə, 1992-ci ildən bu günə qədər ABŞ Ermənistana 2 milyard dollardan artıq maliyyə yardımı göstərmişdir. Bu pulun hansı hissəsinin separatçı rejimə çatması məlum deyil. Keçən il ABŞ Konqresinin Alt komitəsi qondarma "Dağlıq Qarabağ Respublikası"na maliyyə yardımının həcmini artıraraq 2 milyon dollardan 5 milyon dollara çatdırmağı təklif etmişdi. Sual edilir: Nə üçün? Əgər ABŞ həqiqətən beynəlxalq hüququn zəfər çalmasını istəyirsə, onda separatçılara kömək etməyin və üstəlik, onları maliyyələşdirməyin nə mənası var?

Heç kəs üçün sirr deyildir ki, ABŞ Dağlıq Qarabağ münaqişəsi həll edilənə qədər Ermənistanla sərhədlərin açılması məqsədilə Türkiyəyə böyük təzyiq göstərir. Amerikalılar belə səylər göstərərkən yaddan çıxarmamalıdırlar ki, bu sərhədlər Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal edilməsi ilə əlaqədar bağlanmışdır. Türkiyə rəhbərliyi daim bəyan edir ki, işğal edilmiş rayonlar azad olunmayınca Ankara öz qərarını dəyişməyəcəkdir. ABŞ isə məlum olmayan səbəblərə görə belə hesab edir ki, əgər təcavüzkara münasibətdə güzəştə gedilərsə, bu, onu kompromis cavab addımı atmağa məcbur edər. Əlbəttə, amerikalıların məntiqi heyrət doğurur, mən deyərdim ki, bu məsələdə, ümumiyyətlə, məntiq yoxdur. Hamıya aydındır ki, ABŞ sərhədlərin açılmasına çalışmaqla heç də Qarabağ münaqişəsini həll etmək məqsədi güdmür. Onun yalnız bir məqsədi var: Ermənistanı öz təsir dairəsinə daxil etmək. Vaşinqton bu cür dolaşıq oyunlar oynayarkən başa düşməlidir ki, bütün bunlar kənardan





kifayət qədər açıq görünür. ABŞ səfirindən soruşmaq istərdik: onun dövləti nə vaxta qədər separatçıları təşviq edəcək və eyni zamanda, özünü elə göstərəcək ki, guya münaqişənin həll olunmasını ürəkdən istəyir?

ABŞ-ın bu cür hərəkətlərinin daha bir aşkar məqsədi var: Azərbaycan ilə Türkiyə arasında münasibətləri korlamaq. Bu geosiyasi oyunları başa düşməmək üçün nə qədər sadəlövh olmaq lazımdır!

Qərbdə, o cümlədən ABŞ-da başa düşməlidirlər ki, Ermənistan tərəfindən işğal olunmuş ərazilər azad edilməyincə Azərbaycan başqa dövlətin forpostu olan bu ölkə ilə, – nə qədər vədlər verilsə də, – heç vaxt əməkdaşlıq etməyə razı olmayacaqdır.

Ukrayna hadisələri ilə əlaqədar ABŞ-ın Cənubi Qafqazda diplomatik fəallaşması barədə səfirin sözləri təəccüb doğurmaya bilməz. O, elə belə də deyir: Ukrayna böhranından sonra Dağlıq Qarabağ probleminin həlli məsələsində bizim mövqeyimiz daha əhəmiyyətli olmuşdur. Beləliklə, o etiraf edir ki, ABŞ Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün indiyə qədər lazımınca səy göstərməmişdir.

Qərb birdən-birə ayılmışdır ki, Ukraynanın ərazi bütövlüyü məsələsində beynəlxalq prinsipə riayət edilməlidir. Azərbaycana münasibətdə bu prinsip, eləcə də "təcavüzkar" ifadəsi nədənsə bütün beynəlxalq sazişlərdən və beynəlxalq təşkilatların sənədlərindən pozulur.

Buna görə də amerikalı diplomatın bu fikrinin səmimi etiraf, yoxsa heç nə ilə təsdiqlənməyən növbəti bəyanat olmasını deməyə çətinlik çəkirəm. Əgər bu, səmimi etirafdırsa, onda çox məsələlərə yenidən baxmaq lazım gələcək, əks halda Morninqstarın bu sözləri heç bir öhdəlik doğurmayan növbəti bəyanatdır.

***– Morninqstar qeyd edir ki, Azərbaycanda hakimiyyət monolit deyildir, bu hakimiyyətdə Azərbaycan-Ame-***

***rika münasibətlərini korlamağa çalışan qüvvələr var, ölkənin xarici siyasət xəttinə baxışlar müxtəlifdir. O hesab edir ki, iqtidarın bəzi nümayəndələri qərbpərəst əhval-ruhiyyədədir və ölkənin gələcəyini Qərb ilə sıx əlaqələrdə görür, lakin başqa qüvvələr – Qərbin əleyhinə olanlar da vardır. Bu barədə nə deyə bilərsiniz?***

– Bu, səfirin növbəti yanılmasıdır. Onun sözlərinin həqiqətlə heç bir əlaqəsi yoxdur. Prezident İlham Əliyevin komandası kifayət qədər monolitdir. Azərbaycanın uğurlu xarici və daxili siyasəti bu cür iyrənc insinuasiyalara ən yaxşı cavabdır. Ölkə hökuməti tarazlaşdırılmış xarici siyasət yürüdür və milli mənafelərin tələb etdiyi kimi hərəkət edir. Azərbaycanın tarazlaşdırılmış xarici siyasətini hakimiyyətdə monolitliyin olmaması kimi qələmə vermək arzuedilənin həqiqət kimi təqdim edilməsi cəhdidir, bəlkə də təhrikçilikdir. Hökumət xarici siyasətini müəyyən edərkən ayrı-ayrı şəxslərin simpatiyalarını və antipatiyalarını əsas götürmür, ölkənin həyati mənafelərini rəhbər tutur. Bu mənafelər Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasında aydın yazılmışdır. ABŞ səfiri istəsə bu sənədlə tanış ola bilər.

Görünür, səfir belə bir fikir söyləməklə öz ölkəsinin təcrübəsindən çıxış edir, orada ABŞ-ın siyasi elitası arasında xarici siyasətin bu və ya digər istiqaməti barəsində ciddi fikir ayrılıqları mövcuddur. Əyani misal kimi bir faktı xatırlamaq olar ki, ABŞ Prezidenti düz bir il ərzində Azərbaycanda səfir təyin edə bilmədi. Məgər bu fakt ABŞ-ın siyasi elitasında aşkar ziddiyyətlərin göstəricisi deyilmi? Bu fakt onu sübut edir ki, ABŞ-ın Cənubi Qafqazda xarici siyasəti erməni lobbiçilərinin əhval-ruhiyyəsindən nə qədər asılıdır. Zənnimcə, hər şeyi öz adı ilə adlandırmaq lazımdır və səfir bunu başqalarından daha yaxşı bilməlidir.

***– ABŞ səfirinin Ukraynada Maydan hadisələri barədə sözləri də suallar doğurur. Cənab Morninqstarın fikrincə, bu hadisələrdən müvafiq nəticələr çıxarmaq və ibrət dərsi almaq lazımdır. Sizin fikrinizcə, səfir nəyə eyham vurur?***

– Morninqstar haqlıdır, Ukrayna hadisələri hər bir suveren dövlət üçün dərs olmalıdır. Bu hadisələr bizim inkişaf yolumuzun düzgün olmasını bir daha sübut edir. Demokratiya uzun və çox mürəkkəb prosesdir, ona can atmaq lazımdır, lakin bunu səliqə ilə etmək və hərtərəfli ölçüb-biçmək lazımdır. Avantüra və emosional çıxışlar, kənardan qızışdırılan qüvvələr heç vaxt ölkədə sabitliyin bərqərar olmasına və inkişafa şərait yaratmayacaqdır. Biz uzun illər boyu bu dərsləri öyrənirik. Maydanda baş verən faciəli proseslərdə Qərbin fəal iştirakı göz qabağındadır. Qərb nümayəndələri pozucu qüvvələri hüquqazidd hərəkətlərə açıq təhrik edir, Kiyevdə qanuni hakimiyyətə qarşı etiraz aksiyalarında iştirak edir, nümayişçiləri dəstəkləyir, Ukraynanın o vaxtkı Prezidenti Yanukoviçə qarşı sanksiyalar tətbiq ediləcəyi barədə hədələyirdilər. Bütün bu hərəkətləri suveren ölkənin daxili işlərinə bilavasitə və kobud müdaxilə kimi səciyyələndirmək olar. ABŞ və Aİ gizlətmirdilər ki, onlar Prezident Yanukoviçi devirmək və onların maraqlarına cavab verən qüvvələri hakimiyyətə gətirmək üçün hər cür səy göstərirlər. Onlar buna 1990-cı illərin əvvəlindən hazırlaşırdılar. Təsadüfi deyildir ki, ABŞ Dövlət Departamentinin rəsmi nümayəndəsi V.Nuland bəyan etmişdir ki, ABŞ hakimiyyət orqanları 1991-ci ildən bəri Ukraynada demokratik proseslərə 5 milyard dollar xərcləmişlər. Lakin təcrübə göstərir ki, əksər hallarda bu pullar dağıdıcı qüvvələrin yaradılmasına xərclənir. Ukraynada qeyri-hökumət təşkilatlarının və millətçi qüvvələrin fəaliyyətinin Qərb tərəfindən maliyyələşdirilməsinin hansı fəlakətə gətirib çıxarması heç kəsdə şübhə doğurmur.

Müqayisə üçün demək istəyirəm ki, müxtəlif vaxtlarda bizə də informasiya daxil olurdu ki, müəyyən qüvvələr ölkə-

mizdə də buna oxşar ssenariləri reallaşdırmağa cəhd göstərirlər. Ekspertlərin və analitiklərin fikrincə, 2013-cü ilin baharında "feysbuk inqilabı" üçün 3 milyon dollardan artıq vəsait sərf edilmişdir. Özü də bu, demokratiyanın dəstəklənməsi kimi qələmə verilir. Gərək siyasi cəhətdən tam savadsız olasan ki, bu qondarma "inqilab" arxasında nələr gizləndiyini başa düşməyəsən. Bütün ərəb dünyası gözümüzün qabağındadır.

Bu və ya digər dövlətdə demokratik təsisatların təşəkkülünə kömək etmək müsbət addımdır, lakin yalnız o zaman ki, həmin niyyətlər vətəndaş cəmiyyətinin maraqlarına xidmət etsin, "nüfuz agentləri" və ya "beşinci kolon" xarici dövlətlərin xüsusi xidmətləri tərəfindən qarşıya qoyulmuş vəzifələri yerinə yetirəndə yox.

Maydan hadisələri göstərdi ki, ölkələrin daxili işlərinə müdaxilə və onları qonşularla münaqişəyə sövq etmək sonda faciəli nəticələrə gətirib çıxarır. İnkişafın təbii dinamikasını pozmaq və demokratiyanı zorakı üsullarla bərqərar etmək olmaz. Başa düşmək lazımdır ki, demokratiyanın güclə tranziti strategiyası demokratik təsisatların inkişafına gətirib çıxara bilməz, əksinə, nəticələri məlum olmayan yeni münaqişələr yaranmasına kömək edir. Belə təcrübə həmişə bu təşəbbüsü irəli sürənlərin özləri üçün qanlı sonluqla bitir. Bu gün Ukrayna öz dövlətçiliyini itirmək təhlükəsi ilə üzləşmişdir, lakin münaqişənin tənzimlənməsi üçün Qərb tərəfdən praktiki tədbirlər görülməsi müşahidə olunmur. Bəs, Ukraynanın siyasi və kriminal qruplarını bu cür canfəşanlıqla demokratik inqilaba çağıranlar və bunun üçün sanballı məbləğlər ayıranlar indi haradadırlar?

Qərb özünün, necə deyərlər, "gözaltı etdiyi" ölkələrdə öz agentlərinə mövcud hakimiyyətdən necə yaxa qurtarmaq, Qərbi qane etməyən hakimiyyəti hansı üsullarla devirmək, necə inqilab etmək barədə təlimatlar verir. Lakin "beşinci





kolon" fəaliyyətə başlayan kimi Qərb dərhal özünün bütün təbliğat arsenalını onun nəzarət etdiyi dağıdıcı qrupların dəstəklənməsinə səfərbər edir.

Səfir Morninqstar Azərbaycan barədə heç narahat olmasın və həyəcan keçirməsin. Biz özümüz üçün çoxdan lazımi nəticələr çıxarmışıq, özü də bunlar heç də "ən pis" nəticələr deyil. Daha dəqiq desək, biz həmin nəticələri hələ 2003-cü və 2005-ci illərdə çıxarmışıq. Tarix təkrarlanır və biz həmin qanunauyğunluğu növbəti dəfə Ukrayna nümunəsində izləyirik. Ukraynanın bugünkü qarmaqarışıqlıqdan sonra özünə gəlməsi üçün hələ çox vaxt lazımdır.

***– Səfir Morninqstar müsahibəsində korrupsiyaya qarşı mübarizə məsələsinə də toxunur. O, iddia edir ki, bu mübarizə seçmə xarakter daşıyır və əsasən məişət korrupsiyasına aiddir. Məsələnin bu cür qoyuluşu həqiqəti nə dərəcədə əks etdirir?***

– İcazə verin, məsələnin bu şəkildə qoyuluşu ilə razılaşmayım. Azərbaycanda korrupsiyaya qarşı mübarizə sistemli xarakter daşıyır, o cümlədən də səhiyyə və təhsil sahələrində. "ASAN xidmət"in yaradılması buna sübutdur. Bu, dövlət orqanlarının fəaliyyətində şəffaflığın təmin edilməsi və korrupsiyaya qarşı mübarizə sahəsində son onilliyin ən əhəmiyyətli institusional islahatıdır. O, Qərbin özü üçün də nümunə ola bilər. 2013-cü ilin yanvarında fəaliyyətə başlayandan bəri 1 milyon 711 min nəfər "ASAN xidmət"dən istifadə etmişdir.

Azərbaycan ABŞ Prezidenti Barak Obamanın təşəbbüsü ilə yaradılmış Açıq Hökumət Tərəfdaşlığına qoşulmuş birinci ölkədir. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, "Transparency International" kimi ixtisaslaşdırılmış beynəlxalq təşkilatların əksəriyyəti Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində fəaliyyəti yüksək qiymətləndirmişdir. "Transparency International" tərəfindən aparılmış son tədqiqatlara görə, ölkə əhalisinin 68 faizi korrupsiyaya qarşı mübarizə

sahəsində görülmüş tədbirləri səmərəli hesab edir. Bundan əlavə, vətəndaş cəmiyyəti təsisatlarının korrupsiyaya qarşı mübarizəyə və maarifçiliyə cəlb edilməsi üçün "İctimai iştirakçılıq haqqında" Qanun qəbul edilmişdir. Preventiv tədbirlərə gəldikdə isə, təkcə 2013-cü ildə korrupsiya ilə bağlı 201 iş, 2014-cü ilin ilk beş ayı ərzində isə 66 iş məhkəməyə verilmişdir. Gördüyümüz kimi, bu məsələdə də səfirin rəyi qərəzlidir. Mənim fikrimcə, göstərilən rəqəmlər sizin suala ən yaxşı cavabdır.

***– Səfir Morninqstar hesab edir ki, Azərbaycanda hakimiyyət orqanları demək olar ki, bütün istiqamətlərdə QHT-lərin fəaliyyətinə ciddi əngəllər törədir, Vergilər və Ədliyyə nazirlikləri isə daim onları yoxlayırlar. Bu ittihamlar nə dərəcədə əsaslıdır?***

– Mən hələ keçən il bir müsahibəmdə qeyd etmişdim ki, qeydiyyatdan keçmiş beynəlxalq təşkilatlarla yanaşı, qeydiyyatdan keçməmiş təşkilatlar da fəaliyyət göstərir. Təbii ki, onların fəaliyyəti şübhə doğurur. Eyni zamanda, qeydiyyatdan keçmiş beynəlxalq QHT-lərin maliyyə hesabatı praktiki olaraq yoxdur. Xarici donorlardan alınan qrantların və ianələrin çox hissəsinin nəyə xərclənməsi əslində məlum deyildir. Bu məsələdə şəffaflıq yoxdur. Qüvvədə olan qanunvericiliyə görə, yerli və xarici QHT-lərin gəlirləri və xərcləri barədə informasiya dövlət sirri və ya kommersiya sirri ola bilməz. Onlar hər il Maliyyə Nazirliyinə müvafiq hesabat təqdim etməli, nazirlik isə qanunun tələblərinin yerinə yetirilməsinə ciddi nəzarət etməlidir. Bütün sivil ölkələrdə bu cür qayda vardır. Bəzi hallarda belə təşkilatların həqiqi məqsədləri gizli qalır. Hökumət milli mənafelərin müdafiə edilməsi məqsədilə bu işdə qayda yaratmağa, müəyyən addımlar atmağa çalışanda yerli QHT-lər və onların beynəlxalq himayədarları dərhal hay-küy qaldırır, söz və toplaşmaq azadlığının pozulmasından dəm vurmağa başlayırlar.





Aparılmış araşdırmalar göstərir ki, hətta qrantlar qeydiyyata alınandan sonra da iri maliyyə vəsaitləri ayrılması davam edir, bu vəsaitlər haqda məlumat verilmir. Maliyyə axınları barədə informasiyanın olmaması latent korrupsiya təzahürlərinə dəlalət edir. Bəzi beynəlxalq QHT-lər əslində onların mandatlarına uyğun olmayan məsələlərlə məşğul olurlar. Onlar rəsmən müəyyən qrant layihəsi elan edir, əslində isə tamamilə başqa, çox vaxt dağıdıcı məqsədlər üçün vəsait ayırırlar.

***– Sirr deyildir ki, son vaxtlar bəzi xarici QHT-lərin nümayəndələrinin maliyyə əməliyyatları ilə ölkədə dağıdıcı qüvvələrin fəallaşması arasında sinxron əlaqə müşahidə olunur. ABŞ Milli Demokratiya İnstitutunun Azərbaycandakı nümayəndəliyinin keçmiş rəhbərinin fəaliyyəti yaqin ki, yadınızdadır. Bu cür hərəkətlər Azərbaycanın daxili işlərinə qarışmaq deyildirmi?***

– Bir daha vurğulamaq istəyirəm ki, ölkəmizdə fəaliyyət göstərən beynəlxalq QHT-lər öz fəaliyyətlərini Azərbaycan qanunlarının tələblərinə müvafiq şəkildə təşkil etməlidirlər. Beynəlxalq QHT-lərin əsas məqsədlərindən biri ölkənin daxili işlərinə qarışmaq, qanunazidd hərəkətlərə təhrik etmək, öz fəaliyyətinə siyasi don geydirmək deyil, vətəndaş cəmiyyəti təsisatlarının inkişafına kömək etməkdir.

Bu suala rəqəmlərlə cavab vermək istərdim. ABŞ-ın IREX, ABA, NDI, Revenue Watch Institute, USAID, NED kimi qeyri-hökumət təşkilatlarının Azərbaycandakı filialları və nümayəndəlikləri 2003-2013-cü illərdə yerli QHT-lərə təqribən 25 milyon dollar məbləğində qrantlar ayırmışlar.

Bundan əlavə, təqribi hesablamalara görə, Soros Fondu və onunla əlaqədar təşkilatlar 1996-cı ildən bəri Azərbaycan QHT-lərinə təqribən 50 milyon dollar vəsait ayırmışlar. Fond ölkəmizdə fəaliyyətini rəsmən hələ 2012-ci ildə dayandırmasına baxmayaraq, QHT sektorunun maliyyələşdirilməsini da-

yandırmamışdır. O, özü ilə affiliasiya edilmiş təşkilatlar vasitəsilə maliyyələşdirməni davam etdirir. Xatırlatmaq istəyirəm ki, Soros Fondunun – Açıq Cəmiyyət İnstitutunun Yardım Fondunun fəaliyyətini dayandırmasına səbəb iqtidar ilə onun qarşılıqlı münasibətləri deyil, məhz yerli QHT-lərə ayrılmış pullarla bağlı korrupsiya qalmaqalları olmuşdur. Bu işin təşəbbüsçüləri isə radikal müxalifətçi partiyaların mənafelərinə xidmət edən yerli QHT-lər idi. Fondun baş ofisi bu qalmaqaldan diqqəti yayındırmaq üçün belə bir addım atmağa məcbur olmuşdu. Bu, aysberqin yalnız görünən hissəsidir.

Morninqstar iddia edir ki, vətəndaş cəmiyyəti institutlarına, beynəlxalq və xarici QHT-lərə təzyiq göstərilir. Vergilər Nazirliyi və Ədliyyə Nazirliyi onları yoxlayır. Sırf məntiqdən çıxış etmək lazımdır: məgər bu nazirliklər onları yoxlamalı deyilmi? Belə halda ABŞ-da Vergilər Nazirliyi və Ədliyyə Nazirliyi necə hərəkət edərdi? Axı, ABŞ qanunvericiliyi də qanunun pozulmasına görə ən ciddi tədbirlər nəzərdə tutur.

***– Sonuncu sual. ABŞ səfiri hesab edir ki, Azərbaycanda söz və toplaşmaq azadlığı sahəsində ciddi problemlər vardır. Guya hakimiyyət orqanları vətəndaşların öz iradələrini müstəqil ifadə etməsinə mane olur və müasir vətəndaş cəmiyyətinin təşəkkülü yolunda əngəllər yaradır. Səfir guya Qərb dəyərlərinin daşıyıcıları olan vətəndaşların təqib edilməsinə görə xüsusi təəssüflənir. Bu barədə siz nə deyə bilərsiniz?***

– Sizin sualınıza sualla cavab verəcəyəm. Siz deyin, ABŞ-ın özündə söz azadlığına və insan hüquqlarına riayət edilməsi baxımından hər şey qaydasındadırmı? Sadəcə məsələ bu problemə hansı rakursdan və hansı niyyətlə baxmağımızdan asılıdır. Elə həmin Birləşmiş Ştatları götürək. Quantanamoda və ABŞ-ın Avropadakı başqa məxfi həbsxanalarında amerikalı əsgərlərin müsəlman əsirlərə necə işgəncələr verməsini bütün dünya dəhşət içində müşahidə





edirdi. Sonradan məlum oldu ki, məhbusların əksəriyyətinin cinayətlərdə və terrorizmdə, ümumiyyətlə, əli olmamışdır, onları Amerika xüsusi xidmətlərinin anlaşılmaz gümanları əsasında həbs etmişlər. İnsanlar qandallanmış və uzun müddət ən dəhşətli şəraitdə saxlanmışlar. ABŞ-da və Avropada "Uoll Striti zəbt et", "Frankfurtu zəbt et" və başqa etiraz aksiyalarını xatırlamaq olar. Bu ölkələrin polisinin nümayişçilərlə necə kobud və qəddar rəftar etməsini dünya ictimaiyyəti unutmamışdır. Bəs bu yaxınlarda Belçikada və Almaniyada nümayişlər zamanı polisin həddi aşan hərəkətlərini necə izah etmək olar? Axı, adlarını çəkdiyimiz ölkələrin hamısı inkişaf etmiş vətəndaş cəmiyyətinə malik olan demokratik ölkələr hesab edilir.

Son illərdə ABŞ-ın nəinki ayrı-ayrı şəxslərə, hətta bütöv dövlətlərə münasibətdə beynəlxalq hüquq normalarını pozması ilə bağlı təkzibedilməz faktlar vardır. Avropa dövlətlərinin başçılarının telefon söhbətlərinin dinlənilməsi halları buna parlaq nümunədir. Bəs, özündə insan hüquqlarının çox kobud şəkildə pozulması ilə bağlı çoxsaylı faktlar olduğu halda, ABŞ nə üçün başqalarına demokratiya dərsi keçməyə çalışır?

Azərbaycan Respublikasında insanların bütün hüquq və azadlıqları təmin edilmişdir. Müxalifət partiyaları fəaliyyət göstərir, müxalifət qəzetləri nəşr edilir. Müxalifət partiyaları öz fikirlərini söyləmək və qanun çərçivəsində kütləvi toplantılar keçirmək üçün hər cür imkana malikdirlər. Polisin icazəsiz aksiyaların qarşısını alması normal haldır, çünki hamı qanun qarşısında bərabərdir və qanunun tələblərinə hamı riayət etməlidir. Hakim partiya da qanunun müddəalarına riayət edir və biz qanunun pozulmasını təşviq etmək niyyətində deyilik.

Qərb dəyərlərinin daşıyıcıları anlayışına gəldikdə isə, səfir Morninqstarın konkret kimi nəzərdə tutduğunu bil-

mirəm. Mənə belə bir kateqoriya məlum deyil. Vətəndaşların iki kateqoriyası var. Birinci – ölkənin qanunlarına hörmətlə yanaşanlar, ikinci – öz tamahkar məqsədlərini təmin etmək üçün üçüncü qüvvələrin əlində alətə çevrilməyə hazır olan şəxslər. Onların dəqiq dəyərlər sistemi yoxdur. Bu cür adamlar Şərqdə də var, Qərbdə də və mənim fikrimcə, səfirin bu cür bölgü aparması bizim milli dəyərlərə açıq-aşkar hörmətsizlik təzahürüdür.

Nəhayət, Amerika səfirini bizə necə yaşamaq lazım olduğunu öyrətməkdən əl çəkməyə çağırmaq istərdim. Əgər tərəflər bir-birinə hörmət etməsələr, bir-birini başa düşməsələr onların münasibətləri heç vaxt yaxşı nəticə verməyəcəkdir. Bizə saxta təbəssümlər lazım deyil. Bizə səmimi tərəfdaşlar lazımdır. Biz öz dostluğumuzu dəfələrlə sübut etmişik və səfir Morninqstar bunu yaxşı bilir. Azərbaycan xalqı adekvat münasibət gözləyir.

***– Sağ olun.***



## İKİLİ STANDARTLARIN DÜNYA NİZAMI VƏ MÜASİR AZƏRBAYCAN

Biz hamımız son 25 ildə dünyanın geosiyasi xəritəsinin necə dəyişməsinin şahidiyik. Şərqi Avropa ölkələrində "məxməri inqilablar" "sosializm düşərgəsi"nin dağılmasının və dünya arenasında qüvvələrin yenidən yerləşməsinin başlanğıc nöqtəsi oldu. Dünyanın yalnız bir mərkəzdən idarə edilməsinin təməli qoyuldu. SSRİ dağılandan sonra ikiqütblü dünya faktiki olaraq birqütblü dünya ilə əvəz edildi və belə dünyada mövcud olmağın bütün xüsusiyyətlərini biz artıq öz gündəlik həyatımızda hiss etməyə başlayırıq.

İstər-istəməz bir faktı xatırlayıram. XX əsrin 80-ci illərinin axırlarında Sov.İKP MK yanında İctimai Elmlər Akademiyasında müxtəlif, o cümlədən xarici ölkələrdən olan politoloqlarla söhbətlərdə dəfələrlə eşitmişdim ki, SSRİ-nin dağılması praktiki olaraq həll edilib və bunun ardınca Yaxın Şərqin "yenidən formatlanması" dövrü başlanacaq.

İllər keçdi. "Ərəb baharı" hadisələrini müşahidə edərkən bu qənaətə gəldim ki, kütlələrin şüuruna "üsyan etmək hüququ vətəndaşların hakimiyyətin qəsb edilməsinə müqavimət göstərməsi kimi təbii hüququdur" tezisinin yeridilməsi ilə yanaşı, burada, əlbəttə, mükəmməl hazırlanmış texnologiyalar işləyir. Həmin texnologiyaların müəllifləri və bu cür aksiyaların hazırlanma mexanizmləri yaxşı məlumdur. Bu halda, nə qədər qəribə də olsa, demokratik səsvermə və seçki prosedurları nəticəsində hakimiyyətə gəlmiş hökumətlərə qarşı müqavimət göstərilir.

Hələ SSRİ-nin mövcud olduğu dövrdə Baltikyanı ölkələrə gələn məşhur Cin Şarp vaxtilə Cənub-Şərqi Asiya materialı üzərində işlənib hazırlanan metodların müəllifi və onların sınaqdan çıxarılmasının təşəbbüsçüsüdür. Bu gün onu Vladimir Leninin və Mahatma Qandinin bir növ simbiozu adlandırır və faktiki olaraq "ərəb baharı"nın ideya atası hesab edirlər. Doğrudan da, "müsəlman qardaşlar" və onlara yaxın təşkilatlar Şarpın "Diktaturadan demokratiyaya doğru" və "Qeyri-zorakı hərəkətlərin 198 metodu" kimi əsərlərini ərəb dilinə tərcümə edib kütləvi tirajla nəşr etməkdən əlavə onları öz saytlarında da yerləşdiriblər. Lakin Lenini ruhlandıran ayrıca götürülmüş bir ölkədə kommunizm qurmaq ideyası idisə, Qandi isə passiv müqavimət yolu ilə öz vətəninin müstəqilliyinə nail olmaq istəyirdisə, Şarp ilə bağlı halda biz yüksək ideyalar və ideologiyalar görmürük. Əsas məqsəd dağıtmaqdır. Məhz dövlət maşınının sındırılması xarici qüvvələrin "idarə edilən xaos" deyilən vəziyyət yaratmasına imkan verir.

Siyasi ekspertlər hesab edirlər ki, Şarp Qərbin müxtəlif ölkələrinin, xüsusi xidmətlərinin, o cümlədən ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin göstərişlərini yerinə yetirir. Aşkar görünür ki, onlar həqiqətdən çox uzaqlaşmayıblar. Bununla belə etiraf etmək lazımdır ki, o, həqiqətən dövlət hakimiyyəti ilə mübarizə arsenalına yeni metodlar və yanaşmalar daxil edib. Nümunə kimi məsələn, bunu xatırlatmaq kifayətdir ki, Qahirədəki Beynəlxalq Qeyri-Zorakılıq Münaqişələr Mərkəzi müxtəlif ölkələrdən olan müxalifətçiləri onun ideyaları ilə tanış etmək üçün onları müvafiq treninqlərə cəlb edirdi.

Bu gün politoloqların çoxu qeyd edir ki, "rəngli inqilablar" istənilən regionda təhlükəsizlik üçün təhdid mənbəyinə çevrilir və müstəsna olaraq ABŞ-ı qane etməyən hökumətləri onun nəzarəti altında olan rejimlərlə əvəz etmək məqsədi güdür. Bütün bunlar müxtəlif ölkələrdə, o cümlədən keçmiş SSRİ məkanındakı respublikalarda demokratikləşmə və üzdəniraq "demokratiya proqramları" həyata keçirmək arzusu adı altında baş verir.





ABŞ-ın Rusiyadakı sabiq səfiri Maykl Makfl riyakarlıqla deyir ki, bu gün ABŞ Prezidenti Barak Obamanın nümayəndələri "rəngli inqilablar"a sponsorluq etmirlər. Bununla belə, o da etiraf edir ki, ABŞ əvvəllər bu işlə məşğul olurdu. O, Yuqoslaviyadakı "buldozer inqilabı" və sonradan Serbiyada baş verən hadisələrdən bəhs edərək açıq etiraf edir ki, "vəziyyətin sabitliyini pozmaq üçün müxalifətə birbaşa pul verilirdi və bu, öz işini gördü".

Lakin Şarpın texnologiyaları hakimiyyətin iflic olmasını təmin etmək lazım gələndə işə düşürsə, guya Amerikanın siyasi mədəniyyət modelini populyarlaşdıran ictimai təsisatlar şəbəkəsi yaratmaq praktikası bir qədər fərqlidir. Aparılan təhlil göstərir ki, əslində xaricdəki müvafiq strukturlar "Amerika demokratiyası"nın irəlilədilməsi üzrə potensial baxımdan fəal agentə çevrilə biləcək hər kəsin qeyri-hökumət təşkilatları çərçivəsində dəstəklənməsi, öyrədilməsi və təşkil edilməsi ilə məşğul olurlar.

Onlar yaxşı bilirlər ki, yalnız müvafiq sayda QHT-lər olduqda, onlar müntəzəm maliyyələşdirildikdə və təlimatlandırıldıqda bu QHT-lərə kafi sayda şəxs cəlb etmək olar. Yalnız bundan sonra müvafiq instansiyalara raport vermək mümkün olacaq ki, bu və ya digər ölkədə "rəngli inqilab" üçün artıq baza yaradılıb. Bundan sonra artıq sınaqdan çıxarılmış sxemlər işə düşəcək. Bu halda ədalət uğrunda mübarizənin qeyri-zorakı metodlarının nə vaxt öz yerini zorakılığa güzəşt edəcəyi və qarşısıalınmaz faciəli nəticələrə gətirib çıxaracağı həddi müəyyən etmək çətindir.

Kütlələrin şüuruna əvvəlcədən "xalqın üsyan etmək hüququ" kimi müəyyən fikirlər yeridilir. Belə bir tezis də yayılır ki, inqilab guya rasional və kortəbii şəkildə baş verən ha-

disədir, yaranmış ziddiyyətlər düyünündən çıxış yoludur. Lakin "rəngli inqilablar" dövrünü yaşamış ölkələrin təcrübəsi göstərir ki, bu inqilablar həyata keçiriləndən sonra problemlərin və ziddiyyətlərin həcmi qat-qat artır.

Biz xalqın hüququ barədə danışanda bu problemin hüquqi aspektlərini təfsilatı ilə öyrənmiş mütəfəkkirlərə müraciət etmək yerinə düşərdi. Bu aspektlər hüquq məsələlərində şəksiz nüfuz sahibi olan İmmanuil Kantın əsərlərində yetərincə aydın şərh edilib.

## Hüquq prinsipləri və qiyam

İ.Kant 1793-cü ildə yazılmış "Zərb-məsəl haqqında" əsərində üsyanı "cəmiyyət çərçivəsində ən mənfur və ən ciddi cəzalandırılan cinayət" hesab edir, çünki o, cəmiyyətin əsaslarını dağıdır. O, öz fikrini davam etdirərək yazır: "Xalq öz hüququna bu yolla nail olmaqla ən böyük ədalətsizlik edir, çünki hüquq ən azı təsir göstərmir"[1]. Bu halda filosof belə hesab edir ki, qiyamların ədalətli olması barədə bütün mülahizələr ona əsaslanır ki, bu halda təsəvvürəgəlməz nemətlər haqqında bütün vədlərə baxmayaraq, "hüquq prinsipi" özü nəzərə alınmır. Məhz bu hüququn pozulması ona gətirib çıxarır ki, hər bir qiyam anarxiya vəziyyəti ilə başa çatır. Beləliklə, yüksək ideallar naminə edilən hərəkətlər xalqın bir hissəsi tərəfindən onun digər hissəsinə münasibətdə törədilən ən böyük ədalətsizliyə gətirib çıxarır.

Mütəfəkkirin mülahizələrində iki prinsip qarşı-qarşıya qoyulur: hüquq prinsipi və xoşbəxtlik prinsipi. Paradoks ondan ibarədir ki, məhz bu prinsiplərin saxtalaşdırılması xalqın

[1] Кант, Иммануил. Сочинения в шести томах. М., "Мысль", 1965. Т.4. Ч.2., с.59-105.





dövlət hakimiyyətini devirmək hüququ barədə məsələlərdə çaşqınlığa gətirib çıxarır, bu da öz növbəsində xalqın hüququnu kobud şəkildə pozur.

Xalqın istənilən hakimiyyətə, o cümlədən istibdadçı hakimiyyətə müqavimət göstərmək hüququ prinsipini Kantın nəyə görə inkar etməsini təhlil etməyə çalışaq. Kantın arqumentlərini nəzərdən keçirək:

– təbəələr xoşbəxtliyə təbii can atmaq naminə hökmdarı devirmək istəyirlər, lakin "müqavimət hüququnun əsaslandırılması zamanı xoşbəxtliyə istinad etmək prinsipcə yararsızdır, çünki o, təqdim edilən və tələb olunan maddi məqsədlərə aiddir", onlar isə subyektivdir və deməli, ümumilik çatışmır. Təbəənin vəzifəsi istənilən hakimiyyətə qanuni hakimiyyət kimi tabe olmaqdır;

– dövlət qanunvericiliyində müqavimət göstərmək hüququnun nəzərdə tutulması "dövlətin nüfuzunun ikiləşməsinə" və dövlət hakimiyyətinin vəhdətinin pozulmasına gətirib çıxarardı, çünki o, narazı təbəələrin hakimlərə çevrilməsinə imkan verərdi;

– müqavimət hüququ konstitusiyada ziddiyyət yaradır, çünki müqavimət hüququ mövcud olduqda "qanunverici hakimiyyət başqa bir hakimiyyətə onun qanunvericiliyini, eləcə də onun özünü dağıtmaq hüququ verir. Bu dağıtma dağıdıcı normanın özünün əsasında baş verir, bu isə ziddiyyətlidir";

– qarşıdurmada istər-istəməz belə bir sual yaranır: hökmdar ilə xalqın mübahisəsində hakim kim olacaq? Hər bir ali hakimə qarşı yeni müqavimət hüququ irəli sürülə bilər, buna görə də biz sonsuzluğa gedib çıxa bilərik;

– xalqın dövlət haqqında mühakimə yürütmək səlahiyyəti yoxdur, çünki o, şəxsi fikirlərlə məhduddur, dövlət təsis edildikdə isə "xalq özünün məcburedici mühakimə səlahiyyətini ona verir";

– xalqın dövlətə münasibətdə məcburi hakimiyyət hüququ yoxdur, çünki xalq dövlət deyil, amma dövlətin tabeliyindədir;

– müqavimət hüququ yalnız məcburi hakimiyyətə məxsus olmalıdır, o, bütün məcburiyyət hüquqlarını həyata keçirməyə borcludur.

Kanta görə müqavimət yalnız qanuni konstitusiyanı məhv edən müqavimət kimi, bütün mülki-hüquqi münasibətlərin və deməli, istənilən hüququn çevrilişi kimi başa düşülür.

Beləliklə, müqavimət hüququ, ilk növbədə, dövlətin konstitusiyası ilə uzlaşmır. Dövlət hakimiyyətinin mümkün qeyri-mükəmməlliklərinə baxmayaraq, onun dəyişdirilməsi üçün müəyyən mexanizmlər mövcuddur. Bu mexanizmlərin hər hansı şəkildə pozulması, ilk növbədə, hüquqi kollapsa gətirib çıxarır.

Kanta bu qədər müfəssəl müraciətdən aydın olur ki, hakimiyyətin dəyişdirilməsinin yeni mexanizmləri əhalinin bir hissəsinin hüquqi savadsızlığından istifadə edərək, onun şüuruna hüquq ideyasına tamamilə yabançı fikirlər yeridir. Kantın irsinə müraciətdən aydın olur ki, "xalqın üsyan etmək hüququ" söz birləşməsinin özü yüksək dərəcədə absurddur.

## İkili standartlar siyasəti və "beşinci kolon"

Bu il sentyabrın axırlarından başlayaraq, artıq iki aydır ki, dünya bu dəfə Honkonqda növbəti "rəngli inqilab" cəhdinin şahididir. Bu hadisələr bizə bir daha göstərdi ki, dünyada müəyyən qüvvələr onları qane etməyən hakimiyyətin dəyişdirilməsi üçün "rəngli inqilablar"dan istifadə etmək praktikasından hələ imtina etməyiblər. Hərçənd, bu inqilabların bütün mənfi nəticələri və onların doğurduğu hərcmərclik göz qabağındadır.





Belə kəskin etirazların təşkil olunmasında əsas rol oynayan üzdəniraq "beşinci kolon"dur. Bəs "beşinci kolon" nədir və onun ilhamvericisi kimlərdir? Müxtəlif ölkələrdə "beşinci kolon" fərqli ola bilər. Təcrübə göstərir ki, müvafiq ekspertlər konkret ölkədəki vəziyyəti hərtərəfli öyrənir və çoxsaylı amillərdən asılı olaraq əhalinin bu və ya digər qruplarından "beşinci kolon" formalaşdırmaq üçün həmin qrupları seçirlər.

Məlumdur ki, bu anlayış ilk dəfə keçən əsrin 30-cu illərinin ortalarında Madridə hücum edən frankistlər tərəfindən işlədilib. Həmin dövrdə general Frankonun ordusu Madrid üzərinə dörd kolonla hücum edirdi, beşinci kolon dedikdə isə, onun arxa cəbhədə işləyən agentlərinin və təxribatçılarının pozucu fəaliyyəti başa düşülürdü. Sonrakı illərdə bu terminin mənası xeyli dəyişib.

Bu gün "beşinci kolon" anlayışının interpretasiyaları çoxdur – ölkə daxilində agentura şəbəkəsindən başlamış, digər dövlətlərin mənafelərini təmin edən, yığcam şəkildə yaşayan etnik və dini qruplara qədər. Tarixçilər bu söz birləşməsindən düşmən ölkələrin pozucu agenturasını göstərmək üçün istifadə edirlər. Çox vaxt bu termin kollaborasionizmə, yəni, düşmənin mənafeyi üçün, öz dövlətinin ziyanına düşmənlə şüurlu, könüllü və bilərəkdən əməkdaşlığa bərabər tutulur. Beləliklə, "beşinci kolon" birbaşa və ya dolayısı ilə xarici hökumətlər üçün işləyən və fəaliyyəti öz ölkəsinin milli maraqlarına müxtəlif üsullar və metodlarla ziyan vurmaq məqsədi güdən ayrı-ayrı insanlar, yaxud insan qrupları, təşkilatlar və hərəkatlardır. Ən təəccüblüsü budur ki, bəzən hər hansı mühüm proseslərdə özünün iştirak etməsi faktına aludə olan "sütül" gənclər onlardan öz məqsədlərinə nail olmaq üçün alət kimi istifadə edilməsini yaxşı təsəvvür etmirlər.

Bu sahədə spesifik meyil ondan ibarətdir ki, beynəlxalq münasibətlərdə qarşılıqlı asılılığın qloballaşması və güclənməsi, ayrı-ayrı qeyri-hökumət təşkilatlarının (QHT) beynəlxalq arenaya çıxması və insan hüquqları kateqoriyasının transmilliləşməsi nəticəsində "beşinci kolon" müasir şəraitə uyğunlaşaraq yeni forma kəsb edib.

Bu gün müxtəlif beynəlxalq hüquq-müdafiə təşkilatları, ABŞ-ın, onun Avropadakı müttəfiqlərinin beyin mərkəzləri və adi QHT-lər öz həqiqi məqsədlərini maskalayaraq guya insan hüquqlarının müdafiəsi, demokratik dəyərlərin və bazar iqtisadiyyatının təşkilati əsaslarının yayılması üçün bütün dünyada öz filiallarının nəhəng şəbəkəsini yaradıblar. Yeni tipli "beşinci kolon" rolunda çıxış edənlər də məhz onlardır. İnkişaf etməkdə olan ölkələrdə, xüsusən postsovet məkanındakı ölkələrdə göstərilən strukturlar həmin dövlətlərin qanunvericiliyi ilə hesablaşmadan işləyirlər. Bu təşkilatların əksəriyyəti Qərb dövlətlərinin hökumətlərindən birbaşa və ya xüsusi xidmətlərin formalaşdırdığı müxtəlif fondlar vasitəsilə çox böyük məbləğdə maliyyə dəstəyi alır.

XXI əsrdə Qərbin başqa regionlardakı dövlətlərə münasibəti yalnız forma etibarilə dəyişib. İnkişaf etmiş Qərb dövlətləri, o cümlədən ABŞ bu gün də əvvəlki kimi açıq-aydın ikili standartlar siyasəti yürüdür, insan hüquqlarından hökumətlərə təzyiq aləti kimi istifadə etməklə dünyanın əksər ölkələrinin daxili işlərinə qarışır. Onlar məhz bu məqsədlə həmin ölkələrdə yeni tipli "beşinci kolon"lar formalaşdırır və onların köməyi ilə həmin dövlətlərin daxili və xarici siyasətini müəyyən etməyə çalışırlar. Bu praktikanın məqsədi insan azadlıqlarının və hüquqlarının müdafiəsi deyil, konkret siyasi və iqtisadi səmərə əldə etmək üçün bu və ya digər dövləti arzu olunan güzəştlərə məcbur etməkdir. XXI əsrdə beynəlxalq münasibətlərdə güc siyasətinin yeni formasının reallaşması məhz bundan ibarətdir.





## Demokratiyanın yayılması ABŞ-ın milli mənafeləri kontekstində

Tədqiqatçıların çoxu bu fikirlə razıdır ki, beynəlxalq münasibətlər sistemi üçün ən təhlükəli amil demokratiya ideyası pərdəsi altında siyasi xarakterli müxtəlif ideyaların təbliğ edilməsidir. Faktiki olaraq birqütblü dünyaya transformasiya etmiş müasir postbipolyar dünyada ABŞ-ın siyasətini məhz bu sözlərlə təsvir etmək olar. Bu, o cümlədən Barak Obamanın baxışlarında aydın təzahür edir. O, "sülh" şüarları altında ABŞ-ın milli maraqlarını fəal təbliğ edir. Obama, məsələn, "Klintonun qlobal təşəbbüsü" adlı illik forumdakı çıxışında bildirib ki, xarici ölkələrdə vətəndaş cəmiyyətinin dəstəklənməsi milli təhlükəsizlik məsələsidir və Vaşinqton həmişə, bütün dünyada müxtəlif QHT-ləri dəstəkləyəcək.

İlk baxışda demokratiyanın yayılması kimi humanist niyyətlərin arxasında ABŞ-ın tamamilə real siyasi məqsədləri dayanır. Barak Obamanın bu bəyanatı əyani şəkildə göstərir ki, ABŞ-ın QHT-lərə, vətəndaş cəmiyyəti təşkilatlarına, insan hüquq və azadlıqlarına diqqəti yalnız və yalnız Amerikanın geosiyasi maraqlarından irəli gəlir. Onların arasında sözəbaxan və ABŞ-ın göstərişlərini yerinə yetirən qrupların hakimiyyətə gəlməsinin dəstəklənməsini, Amerika kapitalının yeni bazarlara nüfuz etməsini və başqa ölkələrin təbii sərvətlərinin istismarının yeni formalarının tətbiq olunmasını, onları özündən daha çox asılı etmək məqsədilə müxtəlif millətlərin milli və mədəni xüsusiyyətlərinin nivelirlənməsini, "istehlakçı demokratiya və mədəniyyət" formalaşmasını və s. qeyd etmək olar. Bəziləri bunu müstəmləkəçiliyin müasir forması adlandırır, bəziləri dünya iqtisadiyyatının yeni bazarlar axtarmağa məhkum olması barədə danışır və s. Lakin məsələnin mahiyyəti bununla dəyişmir.

Digər tərəfdən, Barak Obama bəyan edir ki, demokratiyaya doğru irəliləyən və insan hüquqlarının müdafiəsi təsisatlarını inkişaf etdirən hər bir ölkə bizim dostumuzdur və biz onları həmişə dəstəkləyirik. Bu bəyanatlar da həqiqətdən son dərəcə uzaqdır və yuxarıda göstərilən siyasətin davamıdır. Məsələn, Vaşinqton demokratiyanın yayılması məramını deyil, özünün geosiyasi maraqlarını əsas götürərək İran-İraq müharibəsi dövründə Səddam Hüseynin qeyri-demokratik rejimini silahla təchiz etməklə onu dəstəkləyirdi. Əlbəttə, "düşmənimin düşməni mənim dostumdur" prinsipinə istinad etmək olar, lakin indiki halda bu tezis regionda sülh yaradılmasına kömək etmək istəyindən daha çox ABŞ-ın siyasi və iqtisadi maraqlarını əks etdirir.

Amerika Administrasiyası onilliklər boyu siyasi realizmin, hələ bu məktəbin banisi Hans Morgentau tərəfindən ifadə edilmiş başlıca prinsiplərini pozur. Biz bütün bu prinsipləri hərtərəfli müzakirə etmək fikrində deyilik. Onlardan yalnız birini göstərək: "Universal mənəvi dəyərlər bu və ya digər dövlətlərin siyasətini qiymətləndirmə vasitəsi ola bilməz. Dövlətlər salamat qalma prinsipini mənəvi dəyərlərdən üstün tutmalıdırlar... Müxtəlif dövlətlərdə mənəvi normalar müxtəlifdir"[1].

Morgentaunun bu tezislərindən çıxan nəticə belədir: dövlətlərin siyasəti barədə xeyir və şər baxımından mühakimə yürütmək olmaz. Başqa sözlə desək, ABŞ üçün şər hesab edilə biləcək məsələ başqa dövlətlər üçün heç də belə deyildir. Siyasətdə mənəvi normalar ilə manipulyasiya etməkdən çəkindirən "milli maraq" kateqoriyası bu problemi çox səmərəli şəkildə həll edir. Beynəlxalq arenada dövlətlərin milli mənafeləri qarşısında hətta hüquqi öhdəliklər də

[1] Hans Morgenthau, 1948. Politics Among Nations (New York: Knopf), Chapters 1 and 2. http://www.people.fas.harvard.edu/~plam/ /irnotes07/Morgenthau1948.pdf





geri çəkilməlidir və bu, Morgentauya görə "beynəlxalq siyasətin dəmir qanunu"dur.

Digər tərəfdən, Morgentaunun mənəvi normaların heç də universal olmaması barədə fikri onu göstərir ki, beynəlxalq münasibətlər sistemi milli maraqlardan və siyasi məqsədəuyğunluqdan çıxış edərək interpretasiya olunmalıdır. Əks halda, mənəvi normalar dövlətlərin dünya arenasında davranışını qiymətləndirmək üçün sadəcə səmərəsiz olacaq.

Buna baxmayaraq, bugünkü Obama Administrasiyası bu və ya digər dövlətlərin fəaliyyətinə yalnız öz siyasi istəkləri baxımından çıxış edərək qiymət verməyə çalışır. Ağ Ev hətta bununla da hesablaşmaq istəmir ki, dünyada hər bir ölkənin öz maraqları, inkişaf məqsədləri və siyasi mədəniyyət xüsusiyyətləri vardır. Dünyada bütün ölkələrin ABŞ tərəfindən göstərilən qaydalar üzrə yaşayacağını gözləmək olmaz. Bu, apriori qeyri-mümkündür, çünki dünya özü eyni deyil, müxtəlifdir.

Hətta eyni ailədə doğulmuş və eyni tərbiyə almış uşaqlar da müxtəlifdir, nəinki Yer kürəsinin müxtəlif nöqtələrində yerləşən, tarixən formalaşmış sosial, iqtisadi, mənəvi və siyasi struktura, özlərinin milli mənafelərinə malik olan ölkələr. Müxtəlif dövlətlər arasında siyasi münasibətlərin məzmunu müxtəlif olduğu kimi, dünya da rəngarəngdir. Ağ Evin xarici siyasət strateqlərinin bunu başa düşməsinin vaxtıdır. Hərçənd, onların bunu dərk etmədiklərini güman etmək çətindir. Lakin iş burasındadır ki, müxtəlif, o cümlədən ABŞ-ın "milli maraqları" haqqında şüarlarla pərdələnən siyasi məqsədləri bütün gerçəklikləri üstələyir.

Beynəlxalq münasibətlərin regionallaşması ideyasını Kopenhagen Beynəlxalq Təhlükəsizlik Məktəbi də təsdiq edir. Bu məktəbin nümayəndəsi, London İqtisadiyyat və Siyasi Elmlər Məktəbinin professoru Barri Buzan yazır ki, bipolyar (ikiqütblü) beynəlxalq münasibətlər sisteminin dağılması və

Qərb ilə Şərqin ideoloji qarşıdurmasının başa çatması şəraitində müxtəlif regionlarda müstəqil beynəlxalq siyasi prosesin həcmi artır[1].

Ona görə də bu müəllifin fikrincə, postbipolyar dünyada beynəlxalq münasibətlərin qlobal səviyyəsi prinsiplərinin regiona proyeksiyası imkanları azalır. Regional dövlətlər öz xarici siyasətinin manevr dərəcəsini daha çox gücləndirmək imkanı qazanırlar. Bütün bunlara əsasən güman etmək olardı ki, qlobal qüvvələr müxtəlif regionlarda inkişafın dəyişən məntiqinə uyğunlaşmalıdırlar. Lakin reallıqda belə deyil. ABŞ-ın və onun Qərbdəki müttəfiqlərinin xarici siyasət strategiyası öz hegemonluğunu nümayiş etdirərək hələ də bu və ya digər regional şəraitə uyğunlaşmaq istəmir. Belə hərəkətlər reallığa uyğun gəlmir, dünyanın müxtəlifliyi ilə ziddiyyət təşkil edir. Məsələn, ABŞ-ın yürütdüyü xarici siyasətin effektivliyinin məhdudlaşdırıcısı məhz budur.

Lakin Qərbin ən səmimi politoloqlarından biri olan Zbiqnev Bjezinski bu fikirlə razılaşmır. O hesab edir ki, lider mövqeyi tutan ABŞ dünyada qaydanı bərpa edən "böyük qardaş" rolunda çıxış edir. Onun fikrincə, "ABŞ əsas sülhməramlı rolunda çıxış edib və bundan sonra da çıxış edəcəkdir". Lakin təəssüf ki, faktlar hələlik tamam başqa mətləbdən xəbər verir. ABŞ-ın xarici siyasətində ədalətsizlik və subyektivizm üstünlük təşkil edir.

Müasir dünyanın inkişaf təcrübəsi göstərir ki, birqütblülük, bir güc mərkəzinin üstünlüyünün artması xalqlar və dövlətlər arasında etimadın azalmasına gətirib çıxarır. Bu qeyri-sabit konstruksiya beynəlxalq münasibətlərin harmo-

[1] Security: A New Framework for Analysis Barry Buzan, Ole Wæver, Jaap de Wilde 1997
http://www.uni-erfurt.de/fileadmin/public-docs/Internationale_Beziehungen/BA_Einfuehrung_in_die_IB/BUZAN%20+%20WAEVER+%20WILDE_%201998_Security_CH%201+2.pdf





nikləşməsinə təsir göstərməyə, dünyada nizam yaradılması, regional və qlobal təhlükəsizliyin təmin edilməsi üçün əsas kimi xidmət etməyə qabil olmamasını sübut edib. Dünyanı öz maraqlarına uyğun olaraq yenidən qurmaq əsla ağlabatan deyildir. Axı, asanlıqla görmək olar ki, demokratik dəyərlər pərdəsi altında gizlədilmiş mənafelərin aqressiv şəkildə irəlilədilməsi Barak Obamanın hesab etdiyi kimi, liberal Amerika ideyalarının lokomotivi deyil, əksinə, bu ideyaların yayılması yolunda əngəl olur. Bunu hətta beynəlxalq münasibətlər sahəsində görkəmli Amerika alimləri, məsələn, Stiven Uolt da vurğulayır.

O yazır: "Liberalizmin əsas xüsusiyyətləri olduqca cəlbedicidir və mən taleyimdən çox razıyam ki, demək olar, bütün həyatımı (əsasən) liberal Amerikada yaşamışam. Lakin bu cür baza əhəmiyyətli liberal prinsiplərin mənəvi cəhətdən cəlbediciliyi heç də o demək deyildir ki, bu, xarici siyasətin həyata keçirilməsi üzrə sağlam və məntiqli rəhbər vasitədir. Əslində, son iki onilliyin tarixi onu göstərir ki, əgər böyük dövlət öz xarici siyasətini əsas etibarilə liberal ideallara uyğun olaraq həyata keçirsə, bu, labüd surətdə həmin siyasəti baha başa gələn uğursuzluqlara gətirib çıxaracaqdır. Təəssüf ki, son 20 ilin təcrübəsi liberalizmin xarici siyasətin həyata keçirilməsində pis məsləhətçi olduğunu göstərir..."[1].

Onun fikrincə, liberalizm xarici siyasət məsələlərində dəqiq strategiya verə bilməz. Əgər bu və ya digər dövlət beynəlxalq arenada beynəlxalq siyasətin həyata keçirilməsinin Qərb anlayışlarını və dəyərlərini rəhbər tutmursa, Vaşinqton buna ciddi qəzəb və nifrət bildirməklə reaksiya verir. Bu isə

[1] Democracy, Freedom, and Apple Pie Aren't a Foreign Policy. Stephen M. Walt http://www.foreignpolicy.com/articles/2014/07//01/american_values_are_to_blame_for_the_worlds_chaos_democracy_human_rights_ukraine_iraq
http://inosmi.ru/world/20140703/221401996.html

reallıqda yaranmış mürəkkəb vəziyyəti daha da gərginləşdirir.

Belə stereotip onunla şərtlənir ki, liberalizm konsepsiyası amerikalı siyasətçilərin əksəriyyətinə liberal Qərb dəyərlərinin alternativsizliyi ideyasını aşılayır. Buna görə də amerikalı siyasətçilər hətta təsəvvür edə bilmirlər ki, onların dünyasından fərqli, öz dəyərləri və əxlaqı olan dünya da var. Bu cür davranış ABŞ-ın xarici siyasətinin manevr imkanlarını xeyli məhdudlaşdırır və çox güman ki, bu siyasətin həyata keçirilməsinə kömək etməkdən daha çox münaqişələrdə "özününkülər və yadlar" qütbləşməsini gücləndirir.

ABŞ-ın xarici siyasətinin patriarxlarından biri olan professor Henri Kissincer də "Dünya nizamı: millətlərin xarakteri və tarixin gedişi barədə düşüncələr" adlı yeni kitabında bugünkü dünya nizamının böhranından bəhs edərək yazır: "Birqütblü zaman kəsiyi bu gün özünün şərəfsiz sonluğuna yaxınlaşır. Kiçik Corc Buş dövründə 11 sentyabr (2001-ci il) terror aktlarından sonra Amerika öz üzərinə gücü çatmayan bir vəzifə götürüb, onun birinci prezidentlik müddətində isə xarici siyasətin militaristləşdirilməsi baş verib, bunun nəticəsində ən yaxşı halda Əfqanıstanda işlər düyünə düşüb, İraqda mürəkkəb vəziyyət yaranıb. Nəticə budur: Qərb alyansında parçalanma, Amerika cəmiyyətində məyusluq və teokratik İranın güclənməsi. Barak Obama dövründə Birləşmiş Ştatlar öz fəaliyyət xəttinin təshihində ola bilsin ki, çox uzağa gedib. Əvvəlcə İraqdakı, sonra isə Əfqanıstandakı Amerika əsgərlərinin evə qaytarılması vurğulanır. Lakin indiki dövrdə Birləşmiş Ştatlar Yaxın Şərqdə yenidən hərbi əməliyyatlara başlamağa hazırdır, habelə Putini dayandırmaq üçün səy göstərir. Ərəblərin oyanmasından sonra yürüdülən siyasəti də ardıcıl siyasət adlandırmaq çətindir...".

Henri Kissincerin gəldiyi qənaət qlobal geosiyasətin əsas prinsiplərini yeniləşdirməyin zəruri olmasından ibarətdir. Onun "beynəlxalq münasibətlərin mövcud sistemi böhran keçirir" tezisi müasir reallığı əks etdirir. H.Kissincerin fikrincə, bu gün hətta sərt güc tətbiq edilməsi bahasına da olsa, Amerika dəyərlərinin bütün dünyada yayılmasının tərəfdarları ABŞ-ın xarici siyasətində möhkəm mövqe tutur.

Dünya nizamının təmin edilməsi mexanizmlərinin əksəriyyəti yetərincə çoxdan formalaşıb. Beynəlxalq münasibətlərdə müasir böhranın səbəbi onunla bağlıdır ki, bu münasibətləri ağlabatan şəkildə yenidən qurmaq, müasir reallıqlara uyğunlaşdırmaq əvəzinə onları sındırırlar. Heç də təsadüfi deyil ki, "Müasir dünyanın əsasını təşkil edən qayda konsepsiyasının böhran vəziyyətində olmasını" vurğulayan Henri Kissincer bunu iri dövlətlərin qüvvələr tarazlığı yaratmağa deyil, özlərinin maraqlarını maksimum təmin etməyə çalışmaları ilə izah edir. Yeri gəlmişkən, o, dünya nizamının böhranının başqa bir səbəbi barədə də yazır: bütün bunların arxasında Amerika Birləşmiş Ştatlarının dünyada liderliyi təmin etmək üçün yeni üsullar axtarması dayanır.

Lap yaxın vaxtlarda – noyabr ayının ortalarında Avstraliyanın Brisben şəhərində "böyük iyirmiliyin" (G20) sammitində Barak Obama Henri Kissincerin gəldiyi bu nəticələri bir növ təsdiq edərək, ABŞ-ı hər hansı təhdidə davam gətirməyə qabil olan "yeganə dünya dövləti" adlandırıb. Bu, dünya birliyinə yeni xəbərdarlıq siqnalı idi ki, o, "çoxqütblü dünya arzusunda olmasın".

Həqiqətən də, Ağ Evin "regionda sülhü və həmrəyliyi təmin edirik", "demokratiyanı yayırıq", "regiona sabitlik gətirmək istəyirik" kimi bəyanatlarının arxasında bu gün tamam başqa məqsədlər dayanır. Bunu yəqin etmək üçün müasir dünyada dövlətlərarası münaqişələrin və müharibələrin yaranması səbəblərinə obyektiv nəzər salmaq kifayətdir.

Amma hər halda, hətta Henri Kissincer kimi görkəmli alim, beynəlxalq münasibətlər üzrə mütəxəssis və ABŞ-ın

xarici siyasətində böyük iş təcrübəsi olan bir adam sistemin böhranından danışırsa, Barak Obama Administrasiyası ABŞ-ın bu cür xarici siyasətinin qüsurlu olması barədə düşünməlidir.

Şübhə yoxdur ki, beynəlxalq münasibətlərdəki müasir böhran ABŞ-ın siyasəti ilə bağlıdır. Bu böhranın kökü amerikalı alim C.Nay tərəfindən neoliberalizm baxımından işlənib hazırlanmış "yumşaq güc" *(soft power)* nəzəriyyəsinin düzgün implementasiya edilməməsi ilə bağlıdır. "Yumşaq güc" dedikdə, ilk növbədə, qeyri-hərbi vasitələr, iqtisadi, informasiya, mədəni və digər təsir tədbirləri nəzərdə tutulur. Bu nəzəriyyənin inkişafında əsas oyunçular qeyri-dövlət subyektləridir. C.Naya görə, "yumşaq güc" "sənin ölkənin istədiyini başqa ölkələrin istəməsinə nail olmaq, çəkindirmək və məcbur etmək əvəzinə onları cəlb etmək və onlarla əməkdaşlıq etmək bacarığıdır"[1].

Bəli, dünya birliyi qlobal səviyyədə Amerikanın siyasətinə alternativ təqdim edə bilməyib. Sonuncu alternativ kommunizm idi, lakin bu eksperiment özünü doğrultmadı. Sosialist düşərgəsi parçalanandan sonra ABŞ bütün dünyada vesternləşmə siyasətində nəzərəçarpacaq uğurlar qazandı. Lakin çox vaxt Amerikanın dünyaya gətirdiyi "aydınlıq və demokratiya" ideyaları heç də humanist üsullarla inkişaf etdirilmir. Nümunələr istənilən qədərdir. Amerika demokratik tranzit nəzəriyyəsində bu postulata hətta "gücə əsaslanan demokratik tranzit nəzəriyyəsi" deyilən ayrıca bir istiqamət də həsr edilib. Lakin təcrübə göstərir ki, Yaxın Şərqdə bu cür eksperimentlər tərəqqiyə, sülhə və demokratiyaya deyil, daha çox terrorizmin, ümumi hərc-mərcliyin və gərginliyin görünməmiş dərəcədə artmasına gətirib çıxarır. Bu strategiya kiçik C.Buşun prezidentliyi dövründə çox populyar idi.

[1] Nye, Joseph. *Bound to Lead: The Changing Nature of American Power* (New York: Basic Books, 1990)





Yeri gəlmişkən, ABŞ-ın sabiq dövlət katibi Madlen Olbrayt da bunu etiraf edir. O, 2014-cü il noyabrın 21-də Demokratiyaya Dəstək Milli Fondunda çıxışında qeyd edib ki, demokratiyanı irəlilətmək səyləri onun militaristləşmiş aspekti ilə assosiasiya edilməyə başlayıb. "Amerikanın səsi" radiosu 2014-cü il noyabrın 21-də Olbraytın bu sözlərini sitat gətirib: "Demokratiya əvvəlki administrasiyanın fəaliyyəti nəticəsində, o cümlədən İraqda baş verənlərə görə pis reputasiya qazanıb".

Dünya ictimaiyyəti Barak Obamanın ABŞ rəhbərliyinə gəlməsi ilə bu təcavüzkar xarici siyasətin dəyişəcəyinə ümid edirdi. Bəs bu gün biz nə görürük? Suriyada və İraqda özlərini "İraq-Şam İslam Dövləti" (İŞİD) adlandıran terrorçu qruplaşmaya qarşı əməliyyat genişlənir. Halbuki bu qruplaşmanı ABŞ özü Suriya müxalifətini silahlandırmaqla, bunun nəticələrini proqnozlaşdırmadan yaradıb. Bu gün Amerika generalları hətta hava hücumları ilə kifayətlənmir, İŞİD-in məhv edilməsi üçün təkcə hava hücumlarının səmərəli olmamasına əsaslanaraq, Ağ Evdən quru qoşunlarının buraya yeridilməsini tələb edirlər. Məğrib ölkələri ABŞ tərəfindən öz keçmiş "demokratik" müttəfiqlərinə qarşı çox fəal dəstəklənən "Ərəb baharı"nın dağıtdığı ictimai nizamı hələ də tam bərpa edə bilmirlər. Bu regionda bütün xalq tərəfindən seçilmiş liderlər hərbi çevrilişlər yolu ilə devrilir, Qərb demokratiyaları isə yalnız "dərin narahatlıq keçirmələri" barədə bəyanatlar dərc edirlər. Demokratiyaya doğru durmadan irəliləyən hər kəsin arxasında ABŞ-ın dayanması barədə Obamanın ideyalarının gerçəkləşməsi bəs harada qaldı? Məgər bu, C.Nayın "yumşaq güc" barədə danışarkən istinad etdiyi cəlbetmə və kooperasiyadırmı? Bombardmanlar, rəngli inqilablar hazırlanması və buna oxşar pozucu ssenarilər vasitəsilə başqa ölkələri də ABŞ-ın istədiklərini istəməyə sövq etməyin mümkün olması ehtimalı azdır. Bütün bu faktlar onu göstərir ki,

Amerika xarici siyasətinin qondarma liberal məzmunu, əslində Hans Morgentaunun dediyi kimi, dəyişməz olan xudbin "milli maraqlar"ın həyata keçirilməsi üçün yalnız pərdədir.

Əgər ABŞ öz milli maraqlarına dönmədən əməl edirsə, onda başqa ölkələr nəyə görə öz maraqlarını inkar etməli və ya anlaşılmaz, dağıntılara gətirib çıxara biləcək güzəştlərə getməlidirlər. ABŞ-da E.Sunouden barəsində qaldırılmış işi nəyə görə cinayət işi (amma siyasi motivləri olmayan iş) hesab edirlər? Halbuki o da guya əsl liberal kimi hərəkət edib – azadlığı təhlükəsizlikdən üstün tutub, bir sıra milli və beynəlxalq qanunların, normaların ABŞ tərəfindən pozulmasını dünyaya açıqlayıb. Eyni zamanda, ABŞ-dakı və Avropadakı beynəlxalq "qeyri-hökumət" təşkilatları nə üçün Leyla Yunus və Arif Yunus, həmçinin "beşinci kolon"un digər nümayəndələri barəsində cinayət işləri üzrə araşdırmaları siyasi motivli araşdırma hesab edirlər? Nəyə görə ABŞ hamıdan transparentlik tələb edir və korrupsiya ilə mübarizəyə çağırır? Halbuki onun dünyanın müxtəlif guşələrində yaratdığı QHT-lərin fəaliyyəti yetərincə korrupsiyalaşıb və ictimai nəzarət üçün açıq deyildir.

## Qeyri-hökumət təşkilatları (QHT) yeni nəsil "beşinci kolon"lar rolunda

Dövlətlərin tarixindən bildiyimiz kimi, xarici dövlətlərin xeyrinə işləyən müxtəlif agentlər, terrorçular və separatçılar əsasən şüurlu şəkildə dövlətçiliyin zəiflədilməsinə çalışır, konstitusiyaya zidd hərəkətlər törədirlər. Bu işdə onlara inam verən o idi ki, onların fəaliyyəti xaricdən güclü dəstəklə təmin olunur və yaxşı haqq ödənilirdi. Xarici dövlətlər üçün ən böyük risk onların "beşinci kolon" yaratmaq planlarının üstünün açılması idi. Onlar ehtiyat edirdilər ki, bu planın iştirakçıları özlərinin xaricdəki himayədarlarını ələ verə, bununla da





dövlətlərarası ikitərəfli rəsmi münasibətlərə ziyan vura bilərlər. Sovet İttifaqının dağılması dalğasında ABŞ-da məhz bu cür riskləri minimuma endirmək üçün postsovet dövlətlərində "beşinci kolon"larla iş konsepsiyası hazırlanmışdı.

Əgər əvvəllər "beşinci kolon" üzvlərinin ələ alınması məsələləri ilə əsasən xüsusi xidmətlər məşğul olurdusa, keçən yüzilliyin 90-cı illərinin əvvəlində "beşinci kolon"ların dəstəklənməsi və formalaşması üzrə səlahiyyətlərin və maliyyə vəsaitlərinin xeyli qismi ABŞ Dövlət Departamentinə həvalə edildi. O da öz növbəsində bu işi ona yaxın olan QHT-lər və fondlar vasitəsilə həyata keçirirdi. Bu, artıq Mərkəzi Kəşfiyyat İdarəsinin ictimaiyyətdən gizlədilən qara büdcəsi deyildi. İndi bu mənbə demokratiyanın dəstəklənməsi, insan hüquqlarının müdafiəsi, KİV azadlığının təmin edilməsi və digər yetərincə ümumi bölmələri ilə dünya üçün açıq idi. Bu bölmələrə çox böyük məbləğlər sərf edilirdi, lakin əsas xidmət heç də bu deyildi. ABŞ birbaşa ələalma metodlarından bir növ imtina edərək "beşinci kolon"ların agentləri və rezidentləri arasında bilavasitə əlaqələri xeyli təkmilləşdirdi.

İnkişaf etməkdə olan ölkələrdə ABŞ tərəfindən yaradılmış QHT-lərin nümayəndələrinin çoxu əksər hallarda heç ağıllarına da gətirmir ki, onlar "beşinci kolon"lar rolunda çıxış edir və onların informasiyasından elə öz ölkələrində sabitliyi pozmaq üçün istifadə edilir. Onlar bilmirlər ki, "demokratiya dəyərlərinin yayılması" anlayışı ilə pərdələnmiş böyük Amerika siyasətinin agentləridirlər. Nəticədə bu cür şəbəkələrin üstü açıldıqda belə, onların nümayəndələri çox söz deyə bilmirlər, çünki hansı konkret planların həyata keçirilməsi üçün işlədiklərindən özlərinin də dəqiq məlumatı olmur. Yeni nəsil "beşinci kolon"ların əsas fərqli xüsusiyyəti, həmçinin ABŞ və onun müttəfiqlərinin bu agentlərlə işinin bugünkü özəlliyi məhz budur.

Dövlət Departamentinə yaxın QHT-lərin qeyri-transparent fəaliyyəti, həmin QHT-lərdə korrupsiya faktları və bu

təşkilatların büdcələrində dövlət vəsaitlərinin üstünlük təşkil etməsi daha bir mühüm reallıqdır. Məsələn, Azərbaycanda "beşinci kolon" yaradılması üzrə müxtəlif QHT-lərin fəaliyyətinin maliyyələşdirilməsi sxemi təxminən belədir. Dövlət Departamenti demokratiyanın yayılması üzrə əsas təşkilat olan USAİD (ABŞ Beynəlxalq İnkişaf Agentliyi) üçün pul ayırır. USAİD də öz növbəsində rəngli inqilabların NED (Milli Demokratiya Fondu), İRİ (Beynəlxalq Respublika İnstitutu) və NDİ (Milli Demokratiya İnstitutu) kimi təşkilatçılarını maliyyələşdirir. Bundan əlavə, USAİD yerli QHT-ləri və xarici təşkilatların Azərbaycandakı digər nümayəndəliklərini birbaşa maliyyələşdirir. Bununla yanaşı, Milli Demokratiya Fondu (NED) yerli QHT-ləri və xarici təşkilatların ölkəmizdəki nümayəndəliklərini bilavasitə özü maliyyələşdirir.

**QHT sektorunun Amerika fondları vasitəsilə maliyyələşdirilməsi sxemi**








Maliyyə axınlarının hərəkəti yuxarıdakı sxemdə əyani şəkildə görünür. Bu sxem başlıca məqsədi "beşinci kolon"ları formalaşdırmaq və dəstəkləmək olan bütün qeyri-hökumət fondlarının və təşkilatlarının əslində necə işlədiklərini yalnız qismən anlamağa imkan verir. ABŞ-ın vergi ödəyicilərinin pulları əslində bu və ya digər ölkədə hakimiyyətin dəyişdirilməsinə və ya həmin ölkənin hökumətini Amerika Administrasiyasının tələblərini yerinə yetirməyə məcbur etmək üçün xərclənir. Ağ Ev qeyri-hökumət təşkilatlarının şəxsində bu xəyali vətəndaş sektorunu demokratiyanı yayanlar kimi təqdim etməyə çalışır.

Nyu-Yorkdan olan geosiyasi analitik Erik Drayserin fikrincə, ABŞ və onun müttəfiqləri Azərbaycanda vəziyyətin sabitliyini pozmaq məqsədilə "insan hüquqları", "vətəndaş cəmiyyətinin azadlığı" və "demokratiya" haqqında standart demoqoqluğa keçiblər. Məsələn, üzdəniraq "siyasi məhbuslar"dan biri Anar Məmmədli seçkilərin monitorinqi və demokratiya üzrə tədris mərkəzinin rəhbəridir. Müəllif yazır: "Təşkilat 2002-ci ildə yaradıldığı andan ABŞ-ın "yumşaq güc"ünün əlavəsi olub. O, ABŞ hökuməti tərəfindən maliyyələşdirilən demokratiyaya dəstək milli fondunun bir qolu olan Milli Demokratiya İnstitutunun (NDİ) maliyyə dəstəyi ilə QHT-nin və vətəndaş cəmiyyəti təşkilatlarının köməyi ilə bütün dünyada "yumşaq güc" yaymaq məqsədilə yaradılıb".

Erik Drayser hesab edir ki, Anar Məmmədli və onun "siyasi məhbus" həmkarları əslində ABŞ-ın və onun müttəfiqlərinin agentləridir, onların siyasi və ictimai həyatı bütünlüklə Qərb təşkilatlarına borcludur. ABŞ nə üçün vəzifəsi seçkiləri şübhə altına almaq olan agentlər yerləşdirir və bununla da onun qəzəbinə tuş gəlmiş hökumətləri mütiliyə məcbur edir? Cavab üçün uzağa getmək lazım deyil. 2003-cü ildə Gürcüstanda "Qızılgül inqilabı"nı, 2004-cü ildə Ukraynada "Narıncı inqilab"ı xatırlamaq kifayətdir.

E.Drayser mülahizələrini davam etdirərək yazır ki, Vaşinqton və Brüssel tərəfindən təqdim olunmuş qondarma "siyasi məhbus"ların siyahısına nəzər salsaq aşkar görünər ki, bu adamlar Azərbaycanı Amerikanın tələblərinə uyğun çalışmağa məcbur etmək məqsədilə xaricdəki sponsorların adından fəaliyyət göstərirlər. Burada təzə heç nə yoxdur, çünki ABŞ bütün dünyada vətəndaş cəmiyyəti təşkilatlarından və QHT-lərdən öz məqsədlərinə çatmaq, hakimiyyəti dəyişmək və ya onları ABŞ-ın göstərişlərini yerinə yetirməyə məcbur etmək üçün təzyiq aləti kimi istifadə edir. Qısası, "sözə baxmayan"lara təsir tədbirləri yaxşı məlumdur və dəfələrlə sınaqdan çıxarılıb: güc aksiyaları, iqtisadi və təbliğat xarakterli təzyiq, daxili işlərə qarışmaq.

Başqa sözlə desək, vətəndaş cəmiyyəti haqqında hər hansı mülahizələr ABŞ-ın "yumşaq güc" sxeminin reallaşdırılması üçün kodlaşdırılmış dildir. Ona görə dövlətlər tərəfindən bu cür təşkilatlara qarşı hər hansı hərəkətlər Amerikanın maraqlarının zəiflədilməsi cəhdləri hesab edilir. Vaşinqton strateqlərinin fikrincə, Azərbaycan NDİ-nin fəaliyyətini, "World vision" təşkilatının, Amerika Hüquqşünaslar Assosiasiyasının (ABACELLİ), habelə Beynəlxalq Araşdırmalar və Mübadilə Şurasının (İREX) aktivlərini dondurmaqla hüquqazidd hərəkət edib. Onlar hesab edirlər ki, bütün bu qurumlar bilavasitə ABŞ, Avropa dövlətləri və təşkilatları tərəfindən maliyyələşdirildiyinə görə, Azərbaycan dövləti onların fəaliyyətini tənzimləyən tədbirlər görməməli idi.

Bununla yanaşı, aşkardır ki, qeyri-hökumət təşkilatlarının fəaliyyəti ilə bağlı yeni normativ-hüquqi aktların qəbul edilməsi də bu sahədə qanunçuluğun təmin olunmasına və QHT-lərin müvafiq dövlət strukturları ilə qarşılıqlı fəaliyyətinin asanlaşdırılmasına yönəlib.

Şəffaflığın artırılması Azərbaycanda həyata keçirilən bütün islahatların məzmununun əsasını təşkil edir. Biz bu müddəanı əsas tuturuq ki, şəffaflığın təmin edilməsi tədbirləri həm dövlət sektorunun, həm də vətəndaş cəmiyyəti təsisatlarının fəaliyyətini əhatə etməlidir və bu, ədalətlidir.





Noyabrın 20-dən etibarən QHT-lərin fəaliyyəti barədə qanunvericilik aktı – "Qrantlar haqqında" Qanun qüvvəyə minib. Həmin Qanuna əsasən qrantları yalnız ölkəmizdə donorlar qismində çıxış etmək hüququna malik olan, filialları və ya nümayəndəlikləri qeydiyyatdan keçmiş xarici təşkilatlar ayıra bilər. Bu, QHT-lər üçün qrantlar ayrılmasının və ən başlıcası, onlardan hansı məqsədlər üçün istifadə olunmasının şəffaflığını təmin edəcəkdir.

Bu, ondan irəli gəlir ki, vətəndaş cəmiyyətinin iştirakçılarının, xüsusən beynəlxalq QHT-lərin Azərbaycanda fəaliyyəti yetərincə şəffaf deyildir. Burada korrupsiya və pulların yuyulması faktları mövcuddur, özü də təkcə Azərbaycanda yox, Qərb ölkələrində də.

Nümunə kimi Amerikanın məşhur United Way qeyri-hökumət təşkilatı ilə bağlı əhvalatı xatırlatmaq olar. Bu QHT-nin sədri Uilyam Aramoni bir milyon dollardan artıq vəsaiti mənimsədiyinə görə 7 il azadlıqdan məhrum edilib.

Helsinki Beynəlxalq İnsan Hüquqları Federasiyasının maliyyə meneceri 1,2 milyon avro məbləğində vəsaiti mənimsədiyinə görə Avstriya məhkəməsi tərəfindən 3 il həbs cəzasına məhkum edilib.

Azərbaycanda "Milli və Beynəlxalq Araşdırmalar Mərkəzi" İctimai Birliyi bir neçə il ərzində 9 qrant sazişi üzrə təqribən 358 min manat alıb. Qanuna görə, bu cür sazişlər qeydiyyata alınmaq üçün Ədliyyə Nazirliyinə təqdim edilməlidir. Lakin bu mərkəz 9 qrant sazişindən yalnız ikisini qeydiyyatdan keçirib.

Daha bir nümunə kimi "Sülh və Demokratiya İnstitutu"-nu göstərmək olar. Bu institutun rəhbəri Leyla Yunus "Azərbaycan qadınları Qafqazda sülh və demokratiya uğrunda"

QHT-nin təsisçisi olmadığı halda məhz bu təşkilatın hesablarından müxtəlif valyutalarda iri məbləğlər çıxararaq onlardan şəxsi məqsədləri üçün istifadə edib.

Yalnız təəssüflənmək olar ki, xarici QHT-lərin Azərbaycandakı filialları və nümayəndəlikləri çox vaxt milli qanunvericiliyin tələblərini və beynəlxalq hüquq normalarını pozurlar.

Məsələn, son illərdə ABŞ-ın Milli Demokratiya Fondu (National Endowment for Democracy – NED) tərəfindən Azərbaycan QHT-lərinə 83 saziş üzrə təqribən 2,8 milyon manat, Amerika Milli Demokratiya İnstitutu (NDİ) tərəfindən 12 saziş üzrə təqribən yarım milyon manat, Beynəlxalq Araşdırmalar və Mübadilə Şurası (İREX) tərəfindən 35 saziş üzrə təqribən 900 min manat, Avropa Demokratiyaya Dəstək Fondu (EED) tərəfindən 300 min manat, Açıq Cəmiyyətə Dəstək Fondu (Lixtenşteyn) tərəfindən 625 qrant sazişi üzrə 7,6 milyon manat vəsait ayrılıb. Bu qrant sazişlərinin xeyli hissəsi qeydiyyata alınmayıb.

Bəzi donorlar QHT-lərə pulu nağd, yəni, rəsmi sənədləşdirmə olmadan verirlər. Bu, ciddi hüquq pozuntusudur. Bütün bunlar heyrət doğurur, ən azı ona görə ki, nəticədə QHT-lər aldıqları vəsaitlərdən müvafiq vergiləri ödəmirlər.

Bəzi QHT-lər aldıqları qrantları vətəndaş cəmiyyəti strukturlarının inkişafına deyil, ölkədə konstitusion quruluşu zorakılıqla dəyişmək cəhdlərinə yönəldirlər. Xarici donorlar müəyyən təşkilatları maliyyələşdirməklə onları Azərbaycan qanunlarını və ölkədə sabitliyi kobud şəkildə pozmağa məcbur edirlər. Bununla da həmin donorlar faktiki surətdə vətəndaş cəmiyyəti təsisatlarının inkişafı ilə məşğul olmaq əvəzinə, "beşinci kolon"dan olan müəyyən şəxslərə pul verərək onlardan Azərbaycan dövlətinə qarşı istifadə edirlər.

Məsələn, Avropa Demokratiyaya Dəstək Fondu yeganə məqsədi Azərbaycan dövlətinə qara yaxmaq, Azərbaycanın





nüfuzunu azaltmaq olan Meydan TV layihəsinə təqribən 300 min dollar məbləğində qrant ayırıb.

Bu cür fəaliyyət siyasi riyakarlığın sübutu olmaqla bərabər, həm də vətəndaş cəmiyyəti ideyasının özünün əhəmiyyətinə ziyan vurur.

Vətəndaş cəmiyyəti təsisatlarına dövlət dəstəyində prinsip etibarilə heç bir pis cəhət yoxdur. Ölkədə vətəndaş cəmiyyəti quruculuğu yolunda Azərbaycan hökuməti də çox tədbirlər görür. Məsələn, 2007-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Respublikası Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurası yaradılıb. Bu Şura 2008-ci ildə insan hüquqları və demokratiya sahəsində 20 layihəyə 166 min AZN məbləğində maliyyə ayırmışdısa, artıq 2013-cü ildə belə layihələrin sayı 46-ya, onların büdcəsinin ümumi həcmi isə 543 min AZN-ə çatıb. Məgər, bu, Azərbaycan dövləti tərəfindən vətəndaş sektorunun və demokratiyanın əsaslarının inkişafına diqqət və dəstəyin göstəricisi deyilmi? Elə isə bizim vətəndaş cəmiyyətini inkişaf etdirmək və dəstəkləmək cəhdlərimiz Qərb tərəfindən nə üçün tənqid edilir?

Paradoksal vəziyyət yaranır: Nə üçün Qərb ölkələrinə başqa dövlətlərdəki QHT-ləri maliyyələşdirmək olar və bu, "demokratiyanın inkişafına kömək" kimi təqdim edilir, amma dövlətlər özləri bunu edə bilməzlər. Məsələn, bizi ittiham edirlər ki, Azərbaycan öz QHT-lərini maliyyələşdirməklə və öz qanunları ilə vətəndaş sektorunun fəaliyyətini guya məhdudlaşdırır. Məgər, hər hansı demokratik dövlətin qanunvericiliyinin tələb etdiyi hesabat verilməsi, maliyyə aşkarlığı və pul köçürmələrinin transparentliyi təzyiq kimi qiymətləndirilə bilərmi? Bəlkə Azərbaycan xarici QHT-lər üçün xüsusi qanunvericilik yaratmalıdır? Bəlkə onlar üçün ümumiyyətlə qanunlar yazılmayıb?

Lakin faktlar bunu deməyə əsas verir ki, xarici donorlar tərəfindən yaradılmış təşkilatlar demokratiyanın və vətəndaş cəmiyyətinin inkişafı naminə işləmir, onlar hökumətə təzyiq üçün əsas mexanizmlərdir və qrant verənlərin siyasi məqsədlərinin, iqtisadi maraqlarının reallaşdırılmasına xidmət edirlər. Xaricdən maliyyələşdirilən yerli QHT-lərin böyük əksəriyyəti demokratik ibarələrdən istifadə etməklə "beşinci kolon"lar rolunu yerinə yetirir, onların məqsədi ölkədə qeyri-sabitlik və ya kənardan idarə edilən hərc-mərclik yaratmaqdır.

Yeri gəlmişkən, istintaqla müəyyən edilib ki, saxlanılmış və həbs edilmiş üzdəniraq "insan hüquqları və azadlıqları uğrunda mübarizlər"in fəaliyyəti Qərbdə yaradılmış beynəlxalq strukturlar tərəfindən qeyri-qanuni şəkildə maliyyələşdirilirdi. Bu adamlar siyasi fəaliyyətinə görə deyil, cinayət xarakterli konkret əməllərə görə həbs ediliblər. Xaricdəki müəssisə və idarələr gizlətmirlər ki, üzdəniraq "siyasi məhbuslar" onların yaratdıqları "beşinci kolon"un nümayəndələridir. Buna görə də həmin şəxslərin həbs edilməsinə onların kəskin reaksiya verməsini anlamaq çətin deyil.

Ağ Evdə belə bir fikri gizlətməyə heç çalışmırlar ki, Amerikanın xaricdəki QHT-ləri üçün qanun yazılmayıb. Məsələn, Barak Obamanın bu yaxınlarda imzaladığı "Vətəndaş cəmiyyəti haqqında" memorandumda açıq-aşkar deyilir ki, ABŞ xaricdəki vətəndaş cəmiyyəti təsisatlarının inkişafını dəstəkləmək üçün hətta xarici dövlətlərin qanunvericiliyinə qarşı çıxmağa hazır olmalıdır. Sənəddə deyilir: "Əgər yerli qanunlar vətəndaş cəmiyyəti təşkilatlarının fəaliyyət imkanlarını məhdudlaşdırırsa və ya yerli qanunlar vətəndaş cəmiyyətinin iştirakçılarının və onların missiyalarının təhlükəsizliyi nəzərə alınmaqla əsas ifadə azadlığı, dinc yığıncaqlar və assosiasiyalar azadlığını məhdudlaşdırırsa, ABŞ hökuməti hətta bu halda da vətəndaş cəmiyyəti təşkilatları ilə işlə-





yir. Xarici siyasət məsələlərinə cəlb edilmiş idarələr müvafiq vəsaitlərin köməyi ilə xarici dövlətlərin hökumətlərinin vətəndaş cəmiyyətinə Amerikanın köməyinin xarakterinə, ABŞ hökumətinin proqramlarının həyata keçirilməsi üçün fiziki və ya hüquqi şəxslərin, yaxud bu proqramların istifadəçilərinin seçiminə təsir göstərmək cəhdlərinə qarşı çıxış edəcəklər..."[1].

Beləliklə, ABŞ başqa dövlətlərin daxili işlərinə qarışmasını gizlətməyə heç cəhd də göstərmir. Ağ Ev birmənalı bəyan edir ki, bütün dünyada işləyən bu cür təşkilatlara, yəni, "beşinci kolon"lara Amerika dövləti, həmin ölkələrin qanunvericiliyinin pozulmasına baxmayaraq, açıq dəstək verəcək və bunu ABŞ-ın milli maraqlarının irəliləməsi xatirinə edəcəkdir. Memorandumda göstərilən sahədə fəaliyyəti gücləndirmək üçün hətta bu siyasətə cəlb edilmiş dövlət idarələrinin sayı artırılıb.

ABŞ-ın özündə isə xarici agentlərin qeydiyyatı haqqında 1938-ci ildə qəbul edilmiş Akt (FARA) hələ də qüvvədədir. Həmin Akta əsasən xarici şirkət və təşkilatların hökmən qeydiyyata alınması tələb edilir. Bəs, ABŞ-ın başqa ölkələrdən tələb etdiyi bərabər şərait hanı? Barak Obama bu ilin may ayında Vest-Pointdə çıxışında vurğulayıb ki, ABŞ özü dünyaya nümunə göstərir və bütün başqa ölkələrin riayət etdiyi qaydaların təsirindən özünü kənarlaşdıra bilməz. Onda belə bir sual yaranır: Bəs nə üçün Amerika qanunları xarici şirkətlərin və təşkilatların qeydiyyata alınmasını və hesabat vermələrini tələb edir və bu, ABŞ tərəfindən qanuni hesab edilir, amma başqa ölkələrin (o cümlədən Azərbaycanın) bu cür siyasəti QHT-lərin azadlığının məhdudlaşdırılması kimi qiymətləndirilir? Nəyə görə Amerika QHT-ləri olduqları ölkələrdə qeydiyyatdan keçmək və hesabat ver-

[1] Президентский меморандум о гражданском обществе *23 сентября 2014 года, раздел 2*

mək istəmir, qanunvericiliyin müvafiq tələblərini vətəndaş cəmiyyətinə və qeyri-hökumət təşkilatlarına təzyiq kimi qiymətləndirirlər, halbuki ABŞ-ın özünün qanunları Birləşmiş Ştatlarda işləyən xarici təşkilatlar üçün bunu tələb edir?

Məgər Barak Obama "Mən düşünmürəm ki, Amerikada seçkiqabağı kampaniyalar güclü maraq qrupları və bundan daha betəri, xarici təşkilatlar tərəfindən maliyyələşdirilməlidir" sözlərini məhz "beşinci kolon"un ABŞ siyasətinə təsirindən ehtiyat edərək deməyibmi?

Doğrudan da, qədim yunanlar demişkən, Yupiterə icazə verilən, Öküzə icazə verilməyib.

Yenə ikili standartlar və güclünün hüququ. ABŞ-ın bəyan edilmiş siyasətindəki bütün bu uyğunsuzluqlar, onun qərəzliliyi və dövlətlərin ikitərəfli münasibətlərinin ziyanına olaraq xarici ölkələrdəki "beşinci kolon"ların açıq dəstəklənməsi Azərbaycana da, yəqin ki, dünya dövlətlərinin əksəriyyətinə də aşkar görünür. Deməli, bu dövlətlər müvafiq nəticələr çıxarmaqda və öz qanunvericiliklərinə düzəlişlər etməkdə haqlıdırlar.

QHT-lərin fəaliyyəti və onlarla bağlı problemlər Amerikanın başqa ölkələrə demokratiya və vətəndaş cəmiyyəti modelini zorla qəbul etdirməsi məsələsinin bir tərəfidir. Məsələnin digər tərəfi lobbizm və Amerikanın xaricdəki nümayəndələrinin işi üçün onun beyin mərkəzlərində analitik adlandırılan materiallar hazırlanmasıdır. ABŞ-ın bəzi ştatlarının qanunvericilik orqanları tərəfindən sənədlər (məsələn, qondarma "Dağlıq Qarabağ respublikası"nın müstəqilliyinin tanınması barədə) qəbul edilməsində və Konqres komitələrində lobbiçilik çoxdan məlumdur.

Lakin ekspert arayışlarının hazırlanmasında ayrı-ayrı analitik mərkəzlərin və beyin mərkəzlərinin qərəzli mövqeyi Amerikanın öz KİV-ləri tərəfindən ifşa edilib. Onların arasında Brukinqs İnstitutu, Atlantika Şurası, Strateji və Beynəl-





xalq Araşdırmalar Mərkəzi kimi nüfuzlu təsisatlar və beyin mərkəzləri var. Norveç, Qətər, Birləşmiş Ərəb Əmirlikləri kimi ölkələr bu institutların iri donorlarıdır. Məsələn, Qətər dövləti 4 ildə Brukinqs İnstitutuna təxminən 15 milyon dollar sərmayə qoyub[1].

Bu və digər ölkələrin sifarişinə əsasən hazırlanan ekspert arayışlarının əksəriyyəti müəyyən şəxslərə (konqresmenlərə, nazirlərə, hətta prezidentə) təqdim olunur və onların əsasında siyasi qərarlar qəbul edilir. Nəticədə ABŞ-da xarici siyasət məsələlərinə dair qərarlar qərəzli və qeyri-obyektiv informasiya əsasında qəbul olunur. Buna görə də Ağ Evin bir sıra regionlarda xarici siyasəti subyektiv xarakter daşıyır və əsasən ABŞ-ın özünün hesab etdiyi kimi, "obyektiv qlobal lider" tərəfindən problemlərin ədalətli həllinə deyil, ilkin korporativ sifarişin icrasına yönəlmiş olur.

Konkret fakta müraciət edək. "Baltimore Jewish Times" qəzetinin sabiq baş redaktoru, tanınmış publisist Maayan Jaffe "Times of İsrael" qəzetində dərc olunmuş "Erməni lobbisinin ABŞ Konqresinin üzvlərinə təsiri haqqında" sərlövhəli məqaləsində qeyd edir ki, ermənilər Konqresdə yaradılmış lobbi qrupuna 88 konqresmen və senator cəlb ediblər. O yazır ki, Amerikadakı erməni lobbisi bir qrupdan yox, bir neçə təşkilatdan ibarət şəbəkədir. O yazır: "Bu qruplar arasında Amerika erməni siyasi fəaliyyət komitəsi, Amerika erməni milli komitəsi və Amerika erməni assambleyası var. Onlar dövlət strukturları tərəfindən tanınır və dəstəklənir". Müəllif vurğulayır ki, Ermənistanın Konqresdəki dostları bu ölkənin ABŞ-ın düşmənləri ilə sıx əlaqələrini gizlətməyə çalışırlar.

Belə hesab etmək olmaz ki, Dövlət Departamentində bütün bunları bilmirlər. Məsələnin mahiyyəti bunda deyil,

[1] Иностранные державы покупают себе влияние в аналитических центрах
http://www.inopressa.ru/article/08sep2014/nytimes/influence.html

Ağ Evin rəhbərliyinin sadiq qaldığı "ikili standartlar" konsepsiyasındadır. Məsələn, ABŞ Ermənistanın 20 ildən artıq müddətdə Azərbaycanın (Amerikanın rəsmi dairələrində hesab edildiyi kimi onun strateji tərəfdaşının) ərazisinin 20 faizini işğal altında saxladığını bildiyi halda, guya "yumşaq güc" prinsipinə əsaslanaraq təcavüzkarın nazı ilə oynayır.

Yaxud başqa misal. ABŞ bu fakta necə göz yuma bilər ki, Ermənistan Azərbaycanın ərazisini işğal edərək burada, özü də qarşıdurma vəziyyətində olan iki qoşunun təmas xəttinin lap yanında 40 mindən çox hərbi qulluqçunun və minlərlə vahid döyüş texnikasının iştirakı ilə hərbi təlimlər keçirir. Üstəlik, ermənilərin Mi-24 döyüş helikopteri Ermənistan və Azərbaycan qoşunlarını ayıran kiçik sahəyə soxularaq təhdidedici uçuşlar keçirir, bizim qoşunların mövqelərinə hücum etməyə cəhd göstərir. Bu, bizim hərbçiləri cavab hərəkətlərinə sövq etmək üçün şüurlu şəkildə törədilən provokasiya idi. Buna görə də tamamilə təbiidir ki, silahlı qarşıdurmanın bütün qaydalarına əsasən həmin helikopter vurulmalı idi və o, vurulub. Bəs nəyə görə ABŞ Ermənistanı bu təhlükəli provokasiyaya görə qınamır, halbuki Ukraynada baş verən hadisələrlə əlaqədar Rusiyanın ünvanına az qala hər gün xəbərdaredici bəyanatlar səslənir. Ermənistanın ünvanına isə heç nə deyilmir. Məgər bu, ABŞ-ın xarici siyasətində ikili standartların göstəricisi deyilmi?

Vaşinqton artıq başa düşməlidir ki, "yumşaq güc" o vaxt səmərəli olur ki, o, ABŞ-ın başqa ölkələrin (məsələn, Azərbaycanın) milli maraqları ilə üst-üstə düşən milli maraqlarının həyata keçirilməsinə əsaslansın. Azərbaycanın milli maraqları ilə hesablaşmadan öz siyasi məqsədlərini həyata keçirmək cəhdləri heç vaxt uğur qazanmayacaq. Məsələn, ABŞ Ukraynanın ərazi bütövlüyünə tərəfdar çıxır və bütün mümkün üsullarla onu qorumağa çalışır. Bəs, nəyə görə ABŞ Azərbaycana münasibətdə müvafiq yanaşma tətbiq etmir, onun ərazi bütövlüyünü açıq müdafiə etmir, təcavüzkarı pisləmir?





Əgər demokratiyanın inkişaf etdirilməsi ABŞ üçün milli təhlükəsizlik məsələsidirsə, onda Azərbaycan üçün də işğal altında olan ərazilər üzərində nəzarətin bərpa edilməsi milli təhlükəsizlik məsələsidir. Başqa sözlə desək, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi də demokratik dəyərlərin inkişaf etdirilməsi strategiyasının tərkib hissəsi olmalıdır. Qafqazdakı münaqişələr həll edilmədən bütövlükdə bu regionda səmərəli transmilli əməkdaşlığa nail olmaq mümkün deyil. Səmimi etiraf etmək lazımdır, ABŞ Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi üzrə Minsk qrupunun həmsədri kimi, bu problemin həllində lazımi maraq göstərmir. Axı, onun həlli, Vaşinqtonun bəyan etdiyi kimi, geniş mənada ABŞ-ın da marağındadır.

Amma bununla belə ABŞ 1992-ci ildən bəri Ermənistana iki milyard dollardan artıq, Dağlıq Qarabağ separatçılarına isə 1998-ci ildən bəri 83 milyon dollardan çox maliyyə yardımı göstərib. Göründüyü kimi, Amerika əsla gizlətmir ki, o, Ermənistanın yürütdüyü, bu uzanan münaqişənin dondurulmasına yönəlmiş fəaliyyət xəttini dəstəkləyir.

Qeyd etməliyəm ki, ABŞ rəsmiləri bu sətirlərin müəllifinə dəfələrlə etiraf ediblər ki, "Amerikada erməni lobbisinin Konqresdə və Senatda mövqeləri güclüdür, bundan əlavə, çoxsaylı erməni diasporu bizim elektoratdır, ona görə biz bu amillə hesablaşmağa məcburuq. Biz Dağlıq Qarabağ münaqişəsinin həllində hər hansı təzyiq metodları tətbiq edə bilmərik".

Bax belə: nə az, nə də çox – erməni diasporunun "məclisi idarə etdiyi" regionlarda ədaləti bərpa etməyə qabil olan "yeganə dünya dövlətinin" xarici siyasət strateqlərinin mövqeyi belədir.

Hərçənd, burada təəccüblü heç nə yoxdur. Axı, ABŞ-ın indiki dövlət katibi Con Kerrinin özü senator ikən Azərbaycana qarşı yönəlmiş 907-ci düzəlişin müəlliflərindən biri olub. Heç kəs üçün sirr deyil ki, o, ABŞ-ın Erməni Milli Konqresi ilə sıx bağlıdır. Lakin ədalət naminə deməliyik ki, əvvəlki dövlət katiblərindən fərqli olaraq o, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələlərinə daha çox diqqət yetirir. Lakin nəticə yoxdur.

Problemin mahiyyəti ondan ibarətdir ki, ABŞ ikili standartlar siyasəti apardıqca, bəzi ölkələrdə işğalı pislədiyi halda, başqa ölkələrdə buna nəinki göz yumduqca, hətta faktiki olaraq bu vəziyyəti təşviq etdikcə, başqa ölkələrin hökumətləri ilə razılaşdırmadan, onların milli mənafelərinə və qanunvericiliklərinə məhəl qoymadan hərəkət etdikcə onun səmərəli xarici siyasət həyata keçirməsinə heç bir güc – istər "yumşaq güc", istərsə də "sərt güc" kömək etməyəcək. ABŞ-da bunu nə qədər tez başa düşsələr və regionda öz xarici siyasətini bu reallığa nə qədər tez uyğunlaşdırsalar, bir o qədər səmərəli nəticə əldə edərlər.

## "Beşinci kolon": dağıdıcı fəaliyyətin eskalasiyası cəhdləri

*"... Xaricdən ianələr alan, vicdanını xaricilərə satan ünsürlərə Azərbaycan siyasətində yer yoxdur".*

**İlham ƏLİYEV**

Amerika Birləşmiş Ştatları və onun müttəfiqləri tərəfindən radikal müxalifət fəallarının və QHT-lərin dəstəklənməsi, bu təşkilatların qeyri-qanuni maliyyələşdirilməsi, onların köməyi ilə ölkəmizdə hakimiyyətə təzyiq göstərmək, hərc-mərclik və qanunsuzluq şəraiti yaratmaq cəhdləri ilə bağlıdır. Deməliyik ki, bu, Qərbin "beşinci kolon" ilə iş ssenarisinə üzvi şəkildə daxildir. Bu cür qeyri-qanuni siyasi və maliyyə dəstəyi, müvafiq göstərişlər nəticəsində başlıca nümayəndələri qismində ayrı-ayrı radikallarla yanaşı, Xalq Cəbhəsi və Müsavat partiyalarının çıxış etdiyi "beşinci kolon" öz pozucu hərəkətlərini gücləndirməyə çalışır.

Getdikcə daha da radikallaşan Xalq Cəbhəsi Partiyası artıq çoxdan bəri təhrikçilərin və intriqabazların, hərc-mərclik və dağıdıcılıq ehtirası ilə yaşayan insanların yuvasına çevrilib. Gerçəkliyi şüurlu surətdə dərk edə bilməyən insanlar da burada kök salıblar. Bunlar öz təfəkkürlərinə görə irrasional adamlardır. Bu partiyaya məxsus olan "Azadlıq" qəzeti yalan və iftira ruporu rolunu yerinə yetirir, onun hər bir səhifəsi intriqalarla, insanların şərəf və ləyaqətini alçaldan materiallar, uydurma və böhtanlarla doludur. Bu partiyanın imici belədir.

Bu gün həmin partiya təşkilati böhran və tam deqradasiya həddindədir. Onun fəaliyyəti o dərəcədə abırsız xarakter alıb ki, hətta "Yeni Müsavat" qəzetinin redaktoru da Əli Kərimlinin və onun partiyasının fəaliyyətini kəskin pisləyərək bəyan edir: "Əli Kərimli və onun partiyası sağalmaz xəstəliyə tutulub. Əli Kərimlinin və partiyasının – siyasi savadı, geridə qalmış, sivilizasiya və demokratik qaydalar haqqında elementar təsəvvürləri olmayan insanların hakimiyyətə gəlməsinə yol verməkdənsə, indiki iqtidarın mövcudluğunu qat-qat faydalı hesab edirəm". Bax, belə səmimi etiraf.

Xalq Cəbhəsi Partiyasının daxilində vəziyyəti tam parçalanma, vurnuxma, hərc-mərclik kimi səciyyələndirmək olar. Partiyanın üzvlərinin çoxu Əli Kərimlinin və onun qrupunun qəbuledilməz radikalizmindən və barışmaz mövqeyindən, radikal dini qruplaşmalarla əməkdaşlıqdan narazı olduqlarını bildirirlər. Partiyadaxili repressiyalar, partiyadaxili demokratiyanın olmaması, Əli Kərimlinin avtoritarizmi, parti-

yalararası münaqişələr buna gətirib çıxarıb ki, KİV-lərdə verilən məlumata görə, AXC-nin Sumqayıt bölməsinin 52 üzvü bu günlərdə onun sıralarından çıxıb. Müsavat Partiyası da oxşar vəziyyətdədir. Bu partiya da tam parçalanma mərhələsindədir.

Ölkədə cərəyan edən ciddi quruculuq dəyişiklikləri kimi, zaman özü də "beşinci kolon"un vəziyyətinə təsir göstərir. Yüksək rütbəli müəyyən şəxslərin Xalq Cəbhəsi və Müsavat partiyaları sıralarından kütləvi şəkildə, qalmaqalla çıxmaları batan gəmidən qaçmağı xatırladır. Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu hesab edir ki, çoxdan müxalifətdə olan bu adamlar sadəcə çox yorulublar və buna görə özləri kənarlaşmaq istəyirlər. Lakin o, sözünü axıracan demir – onlar özlərini kimdən və nədən kənarlaşdırırlar? Axı, adamlar o partiyaların sıralarını tərk edir ki, həmin partiyalar pozucu fəaliyyəti genişləndirməyə çalışırlar. Məsələ burasındadır ki, "beşinci kolon" zəruri sosial bazadan məhrum olub və buna görə onlara yuxarıdan verilən göstərişləri həyata keçirə bilmir. Bu partiyaların sıralarında qalmağın mənasızlığı bununla izah edilir.

Bu il noyabrın 9-da Bakıda qondarma "Milli Şura"nın, əslində isə Xalq Cəbhəsi Partiyasının azsaylı tərəfdarlarının şəhər hakimiyyəti ilə razılaşdırılmış mitinqi oldu. Mitinqin əsas təşkilatçıları Əli Kərimli və Cəmil Həsənli idi. Mitinqin keçirilməsi faktının özündən göründüyü kimi, radikal müxalifətin səsini heç kəs boğmur. Onlar öz mitinqlərini maneəsiz keçirirlər (bu, müxalifətin xaricdəki donorlarına xatırlamadır. Onların fikrincə, agentlərinin mitinq keçirmələrinə imkan verilmir). Siyasi ekspertlər hesab edirlər ki, bu mitinq əvvəlkilərdən heç nə ilə fərqlənməyib, tam iflas olub və biabırçılıqla başa çatıb: "O, radikal müxalifətin peşəkarlıq baxımından tamamilə yararsız olmasını göstərdi. Yenə az sayda adam, eyni şüarlar, bir-birinə oxşar çıxışlar, çeynənmiş,





zəhlətökən sözlər. Mitinq "Milli Şura" üçün növbəti biabırçılıq oldu". Ekspertlərin fikrincə, bu, radikalların sosial bazasının olmamasının və aqressivliyinin artmasının nəticəsidir.

Eldar Namazovun da missiyası bundan yaxşı olmayıb. O, "beşinci kolon"un ən "parlaq" nümayəndələrindən biridir. Bunu yalnız kor adam görməz. O, bu yaxınlarda David Şahnazaryan ilə birgə verdiyi bəyanatda bunu yerinə yetirilmiş borc hissi ilə təsdiq etdi. Bu bəyanat vətənpərvərliyə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mahiyyətinə tamamilə ziddir. Bu bəyanat heç də sülhə, problemin mərhələli həllinə çağırış deyil, obyektivliyin, prinsipial mövqeyin olmamasıdır. Axı, Ermənistan bizim torpaqlarımızı işğal edib. Deməli, bu vəziyyətdən çıxış etmək lazımdır. Bir də ki, Namazov Dağlıq Qarabağ münaqişəsi problemləri ilə "məşğul olarkən" kimi təmsil edir? Məlum olduğu kimi, heç kəsi. Görünür, həyat bu reneqatı gücü çatan işlə məşğul olmağa hələ də öyrətməyib. Aydındır ki, marginal Eldar Namazov "beşinci kolon" maraqlarına o dərəcədə bağlanıb ki, təcavüzkarı ondan zərər çəkmiş ölkəyə bərabər tutur. O, başa düşə bilmir ki, bizə özgəninki lazım deyil, biz yalnız Azərbaycanın ərazi bütövlüyünü bərpa etməyə çalışırıq. Bizim üçün bu, problemin alfa və omeqasıdır.

Təəssüf ki, Eldar Namazov və həmçinin "beşinci kolon"un önündə gedən radikal müxalifət üçün Dağlıq Qarabağ problemi (son dərəcə vacib problem) onların fəaliyyətində prioritet deyil, onun liderlərinin bu məsələyə dair demaqoqcasına bəyanatlarının arxasında isə şəxsi ambisiyaları və üzdə qalmaq arzusu gizlənir. Onları ən çox narahat edən özlərinin xaricdəki bosslarına daha yaxşı yarınmaq, onların xoş münasibətini qazanmaqdır.

Bu məsələdə ən çox irəli gedən "Azadlıq" radiosunun jurnalisti Xədicə İsmayıldır. O, öz "dostları" olan həmkarları ilə birlikdə "cidd-cəhdlə" çalışaraq anti-Azərbaycan verilişləri

təşkil edir, cəfəng bəyanatlarla çıxış edir, ictimaiyyətin tanınmış nümayəndələrinə açıq-aşkar düşmən münasibət nümayiş etdirir, təhqiramiz məzmunlu yalanlar yayır. Aydındır ki, cəmiyyətə bu cür meydan oxumaq öz Vətənini sevənlərin deyil, X.İsmayılın xaricdəki himayədarlarının xoşuna gəlir. Üstəlik, onun tutduğu mövqenin jurnalist peşəsinə, ümumiyyətlə, heç bir aidiyyəti yoxdur. İctimaiyyətdə belə bir qəti inam yaranıb ki, "Azadlıq" radiosunun əməkdaşları çox iyrənc bir yol tutublar. Sübuta ehtiyac yoxdur ki, saxtalaşmış informasiya təqdim edilməsi xarici xüsusi xidmətlər üçün işləməyə bərabərdir. Bu, xəyanətdir. Jurnalistlərin və normal düşüncəli adi insanların fikri belədir: "Əgər demokratiyanın rəmzi Xədicə İsmayıldırsa, gələcəkdə cəmiyyəti nələrin gözlədiyini təsəvvür etmək dəhşətdir".

Ölkəmizin sürətli sosial-iqtisadi inkişafı "beşinci kolon"u pozucu fəaliyyət üçün geniş meydandan məhrum edib. Onun nümayəndələrinin son sığınacağı cəmiyyəti və hətta Prezidentin ətrafını parçalamaq cəhdləridir. Rəhbər işçilər haqqında mütəşəkkil qaydada açıq-aydın yalan məlumatlar yaymaqla hakimiyyəti zəiflətmək üçün gülünc cəhdlər, hakimiyyətdə olan şəxslər arasında guya müharibə qızışması barədə fantaziyalarla onları bir-birinə qarşı qoymaq istəyi onların bəsitliyini və siyasi savadsızlığını bir daha nümayiş etdirir. Onlar İlham Əliyevin ətrafının əvvəlki kimi monolit olmasını, bu ətrafı parçalamaq mümkün olmamasını, Prezidentin ölkə əhalisi arasında və ölkənin hüdudlarından kənarda nüfuzunun və populyarlığının yüksək olmasını başa düşməyərək, dövlətimizin başçısına qarşı birbaşa şəxsi təhqirlərə və çirkin hücumlara keçməyə başlayıblar. Əlbəttə, yaxşısı budur, onlar başa düşsünlər ki, onların aqressiyası özlərinə biabırçılıqdan başqa heç nə gətirməyəcək və nəticədə onlar siyasət səhnəsini tərk etməyə məcbur olacaqlar.





Qərbin rəsmi dairələri öz hərəkətlərini xeyirxah niyyətlərlə izah etmək üçün nə qədər çalışsalar da, fakt faktlığında qalır: müstəqil partiyalardan fərqli olaraq onların maliyyələşdirdiyi və dəstəklədiyi vətəndaş cəmiyyətinin bütün strukturları və radikal partiyalar "beşinci kolon"ların müasir nümunələridir. Əlbəttə, onların pozucu fəaliyyəti kənar qüvvələr tərəfindən dəstəklənir və tənzimlənir.

Qərəzlilik, ikili standartların tətbiq edilməsi Avropa İttifaqının rəhbərlərini də səciyyələndirir. Lap yaxın vaxtlarda, noyabrın 26-da Saxarov adına mükafatın təqdim edilməsi mərasimində Avropa Parlamentinin sədri Martin Şults Azərbaycandakı üzdəniraq "siyasi məhbuslar" barədə də bəyanat verib, Leyla Yunusu xatırlayıb. Əlbəttə, Martin Şults kimi şəxsin dilindən bu cür tənqid səslənməsi nonsens kimi qəbul edilməlidir.

Bu misal onu göstərir ki, keçmiş tarixi dövrlə müqayisədə bu gün dünya arenasında siyasi hadisələrin gedişini müəyyən edən siyasətçilər sırasında tam böhran müşahidə edirik. Təəssüf ki, dünya siyasətinin taleyüklü məsələləri ilə məşğul olan şəxslər regional və qlobal siyasi proseslərin incəliklərini anlamaq kimi zəruri qabiliyyətdən məhrumdurlar və beynəlxalq xarakterli məsələləri həll etmək üçün son dərəcə səriştəsizdirlər. Bir də ki, nə deyəsən, Qərb mətbuatının özündə Martin Şults barədə heç də xoşagələn xarakteristika verilmir: o, sağlam məntiqdən məhrum olan çıxışları və qeyri-adekvat mühakimələri ilə "məşhurdur", islamofobiya ideyaları ilə "ad çıxarıb", onun çıxışları və bəyanatları çox vaxt siyasi qalmaqallarla müşayiət olunur. Onun İtaliya barədə və Böyük Britaniyanın Avropa İttifaqında rolu haqda sözləri ciddi beynəlxalq qalmaqala səbəb olur. Britaniyada çıxan "Economist" qəzetinin 11 may 2013-cü il tarixli nömrəsində Martin Şultsun Brüsseldə yüksək vəzifə tutmaq istəyi karikatura formasında təqdim edilir.

Azərbaycanda vəziyyətə qiymət vermək istəyən Avropa Parlamentinin sədri belə şəxsdir. Mən qəti əminəm ki, Martin Şults öz istəyi ilə hərəkət etmir: bu gün o, sadəcə olaraq "böyük qardaş" vəzifəsini yerinə yetirir, əks halda o, indi əyləşdiyi kürsünü görə bilməzdi. Axı, məlumdur ki, o, Azərbaycan haqqında, onun Avropa üçün əhəmiyyəti barədə müsbət sözlər söylədiyi hallar da olub.

Qərbdə müəyyən dairələr nahaq yerə Azərbaycan haqqında yalan rəy yaratmağa çalışırlar. Hərçənd bu dairə çox məhduddur. Əksinə, biz məmnunuq ki, bilikləri və nüfuzu korporativ maraqlara xidmət etməyən siyasətçilərin sayı daha çoxdur. Kim bunu istəyirsə görür ki, Azərbaycan demokratik cəmiyyətə xas keyfiyyətlərə malik olan müasir dövlət kimi davamlı inkişaf edir.

Hələ dünən hər bir əhəmiyyətsiz məsələyə görə insanları meydana çağıranların çoxunun şüuru dəyişir. Onlar başa düşürlər ki, bu yolun axırı yoxdur. Transformasiya etməyən yalnız özlərini müxalifətin – konstruktiv müxalifətin yox, "beşinci kolon"un lideri adlandıran əvvəlki radikallardır. Buna görə də onlar getdikcə daha aqressiv olur: özü də təkcə iqtidara qarşı yox, həm də dünənki partiya yoldaşlarına qarşı. Müxalifət nəşrlərini vərəqləsək, bunu asanlıqla yəqin edə bilərik. Liderlik uğrunda mübarizədə qarşılıqlı nifrət, radikallar arasında söyüş və iyrənc təhqirlər həddinə çatan qarşıdurma adi hala çevrilib.

Bu gün kənardan maliyyələşdirilən müxalifəti təmsil edənlər və insanları mitinqlərə çıxmağa çağıranlar 1990-cı illərin əvvəlində dövlət çevrilişi edərək hakimiyyəti güclə ələ keçirmişdi. Onlar bu hakimiyyəti heç bir il də əldə saxlaya bilmədilər, ölkəni dərin böhran vəziyyətinə çatdırdılar. Səbəblər məlumdur: dövlət idarəçiliyi haqqında elementar anlayışların olmaması, hakimiyyəti ələ keçirməyin təşkilatçılarının ambisiyaları ilə onların intellekt səviyyəsinin uyğunsuzluğu, hakimiyyətdə olarkən yeritdikləri zərərli daxili və xarici siyasət və ən başlıcası, bu insanların siyasi və əxlaqi yararsızlığını başa düşərək onları dəstəkləməyən xalqın mövqeyi.





Klassik Xalq Cəbhəsi Partiyasının sədri Mirmahmud Mirəli oğlu "Reytinq" qəzetinin müxbirinə müsahibəsində (09.11.2014) etiraf edir: "Biz öz üzərimizə götürdüyümüz işlərin öhdəsindən gələ bilmədik. Hakimiyyəti əldə saxlaya bilmədik... Üstəlik, baş verən proseslərdən nəticə çıxarmayıb, indiki vəziyyətə düşdük".

Beləliklə, öz üzərinə "beşinci kolon" rolunu götürmüş radikal müxalifətin əsas səciyyəvi cəhətləri ideya-siyasi boşluq, sosial bazanın məhdudluğu və pərakəndəlik, korporativ maraqların dövlət maraqlarından üstün tutulması, qisasçılıq cəhdləri, konstruktiv dialoqdan və siyasi mübarizənin sivil metodlarından çəkinməkdir.

Radikal müxalifət düşərgəsində yaranmış bu vəziyyət ilk növbədə tarixi şəraitlə bağlıdır. İş burasındadır ki, onun sıraları lap əvvəldən əsasən həyatda bəxti gətirməyən, bizim regionda cərəyan edən proseslərin həqiqi mahiyyətini anlamaqdan uzaq olan qeyri-sosial, riyakar elementlər hesabına artmışdır. Paradoksdur ki, bu partiyalar ciddi dəyişikliyə məruz qalmayaraq, bu gün də öz dağıdıcı siyasətini davam etdirir.

Bu siyasi qrupların fəaliyyətinin təhlili göstərir ki, onların dövlət quruculuğu, ölkənin daxili və xarici siyasəti, geosiyasi reallıqlar və çağırışlar barədə lazımi təsəvvürləri yoxdur. Radikal müxalifət cəmiyyətə faydalı ideyalar və real proqramlar təklif etmək, vətəndaşların etimadını qazanmaq iqtidarında olmadığından, ölkə hüdudlarından kənarda özünə dayaq axtarmağı üstün tutur. O, öz hakimiyyət ambisiyalarını təmin etmək xatirinə beynəlxalq instansiyalara çirkin insi-

nüasiyalar, böhtanlar göndərir, xaricdəki antiazərbaycan dairələri ilə əməkdaşlıq edir və dövlətimizin müstəqil siyasətinə xaricin təzyiq aləti kimi çıxış edir. İndiki radikal müxalifətin aqressivliyinin və millətə zidd mahiyyətinin səbəbi onun qisasçılıq cəhdləri, özünün acizliyini etiraf etmək istəməməsidir.

Siyasi naşılıq və vətənpərvərliyin, konstruktivizm qabiliyyətinin olmaması, hakimiyyət hərisliyi, hadisələrə dövlətçilik təfəkkürü mövqeyindən qiymət verməyi bacarmamaq və xaricdəki antiazərbaycan qüvvələrindən asılılıq nəticəsində radikal müxalifət hökumətə qarşı mübarizəni dövlətin maraqlarına qarşı mübarizəyə çevirib.

Bugünkü radikal müxalifətin daha bir səciyyəvi antimilli cəhəti cəmiyyətin siyasi, iqtisadi, sosial və mədəni həyatında müsbət nə varsa, hamısının tamamilə inkar edilməsində ifadə olunan sosial-siyasi nihilizmdir. O, "nə qədər pis olsa, bir o qədər yaxşıdır" prinsipini rəhbər tutaraq, iqtidarın siyasətini hər vasitə ilə hörmətdən salmağa çalışaraq özünün bütün cüzi resurslarını müstəqillik illəri ərzində ölkəmizdə qazanılmış uğurlara və müsbət dəyişikliklərə qara yaxmağa yönəldir.

Radikal müxalifətin daimi siyasi uğursuzluqları və ambisiyalarının perspektivsizliyini başa düşməsi nəticəsində öz planlarına ümidi itmiş, o, bədbinliyə və marginallaşmaya məruz qalmış, hakimiyyət uğrunda mübarizəsi isə pozucu fəaliyyət səviyyəsinə enmişdir.

## Strategiya – postsənaye cəmiyyətinin qurulması

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev güclü iqtisadiyyat yaradılması xəttini əsas götürərək müasir müstəqil Azərbaycanın möhkəm təməlini qoyub. O, çox yaxşı bilirdi ki, üzdəniraq "beşinci kolon" kənar qüvvələr tə-





rəfindən formalaşır və dəstəklənir, bu qüvvələrə güclü Azərbaycan dövləti lazım deyil və onlar həmişə güclü müstəqil Azərbaycan yaradılması prosesinə qarşı çıxacaq, ölkəmizin imicini ləkələməyə çalışacaqlar. Ümummilli lider Heydər Əliyev bu cəhdlərin qarşısını almaq üçün çoxvektorlu xarici siyasət yürütməyə başladı. O, "Əsrin müqaviləsi"ni imzalamaqla əslində müstəqil Azərbaycanı iqtisadi yolla boğmağa çalışanlara tarixi hökm imzaladı.

Heydər Əliyev ABŞ-ın banilərinin və ya demokratik Avropa siyasətçilərinin prinsiplərini tətbiq etməklə bilirdi ki, Azərbaycan Respublikası üçün beynəlxalq birliyə ən yaxşı inteqrasiya yolu sabitlikdən, iqtisadiyyatdan və demokratiyadan keçir. Bu cür dərindən dərk edilmiş və uzaqgörən siyasət qısa müddətdə böyük uğurlar qazanmağa imkan verdi. Ölkəmizin iqtisadiyyatına xarici sərmayələr gəldi, beynəlxalq şirkətlərin ölkəmizdə nümayəndəlikləri açıldı, Azərbaycanın səsi beynəlxalq tribunalardan eşidildi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqət, nəhayət, dünya ictimaiyyətinə çatmağa başladı.

"Şahdəniz" yatağının işlənilməsinin ikinci mərhələsinə dair bu yaxınlarda imzalanmış yekun investisiya sazişi də çox böyük uğur oldu. "Əsrin müqaviləsi"nin imzalanmasının 20 illiyi günündə "Cənub" qaz dəhlizinin təməlinin təntənəli şəkildə qoyulması hadisəsi artıq "XXI əsrin müqaviləsi" adlanır. Bu, Azərbaycanın beynəlxalq arenada mövqelərini daha da gücləndirəcək, ölkəmizin enerji tərəfdaşı kimi etibarlılığını və onun geosiyasi mövqeyinin əhəmiyyətini bir daha sübut edəcəkdir. Prezident İlham Əliyev "Əsrin müqaviləsi"-nin imzalanmasının 20 illiyinə həsr edilmiş təntənəli mərasimindəki çıxışında xüsusi vurğulayıb ki, bu layihə azı 100 il ərzində təkcə Azərbaycana deyil, tərəfdaş dövlətlərə də dividend gətirəcəkdir.

Heç kəs şübhə etmir ki, Azərbaycan sadəcə neftin və qazın səmərəli təchizatçısına deyil, Avropanın enerji təhlükəsizliyinin qarantlarından birinə çevrilir. Bu, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş böyük strategiyanın – Azərbaycanı müasir özünəyetərli dövlətə çevirmək strategiyasının yalnız bir hissəsidir. Prezident İlham Əliyev Heydər Əliyevin siyasi irsini yeni ideyalarla zənginləşdirərək son on ildə Azərbaycanı dünya birliyinin uğurlu ölkələri sırasına çıxarıb. Bu gün Azərbaycan Cənubi Qafqazda liderdir və regionda heç bir iri beynəlxalq layihə bizim milli maraqlarımız nəzərə alınmadan uğurla həyata keçirilə bilməz.

Bakı-Tbilisi-Qars, Astara-Rəşt-Qəzvin dəmir yolu layihələri və onların tezliklə, uğurla başa çatdırılması nəticəsində Bakı Qərb ilə Şərq, Şimal ilə Cənub arasında münasibətlərin əsas mərkəzinə çevriləcək.

Bu gün Azərbaycan postsənaye (informasiya) cəmiyyəti quruculuğu yolundadır. Postsənaye cəmiyyətinə keçid ideyası son on ildə Azərbaycanın inkişaf məntiqinə uyğundur. Bizim üçün postsənaye cəmiyyəti elə bir cəmiyyətdir ki, onun iqtisadiyyatında innovasiya sektoru, ona xas olan yüksək məhsuldarlıqlı sənaye, sosial-iqtisadi fəaliyyətin bütün formalarında zəruri biliklər bazası, ümumi daxili məhsulda yüksək keyfiyyətli innovasiya xidmətlərinin payının yüksək olması, bütün fəaliyyət növlərində rəqabət qabiliyyəti üstünlük təşkil edir.

Əlbəttə, Azərbaycan üçün postsənaye cəmiyyəti gələcəyin iqtisadi sistemidir. Lakin artıq bu gün həmin gələcəyin ciddi təməli yaradılır: milli innovasiya sistemi formalaşır, istehsalın texnolojiləşməsi tədricən artır. İnnovasiya sisteminin əsas məqsədi əhalinin həyat səviyyəsinin və həyatın keyfiyyətinin artırılması üçün dinamik iqtisadi inkişafın obyektiv ilkin şərtlərini yaratmaqdır.





Hökumət "insan kapitalı"nın təkrar istehsalı probleminə böyük diqqət yetirir, bu kapital investisiya resursu və istehsalın əsas amili hesab edilir. Yəni, insan kapitalı quruculuq prosesinin getdikcə daha əhəmiyyətli resursuna çevrilir.

Hökumət başa düşür ki, ölkənin sosial-iqtisadi inkişafının səmərəliliyini yalnız innovasiyalı iqtisadiyyatın təşəkkülü və inkişafı əsasında artırmaq mümkündür. Bu məqsədə nail olmaq üçün respublikada güclü innovasiya fəaliyyəti vüsət alıb. Bu, istehsalatda yüksək iqtisadi səmərəyə nail olmağa imkan verəcək. Bu baxımdan ölkədə bir neçə il bundan əvvəl yaradılmış texnoloji parklar həmin sistemin mühüm elementidir. Tezliklə texnoloji biznes inkubatorları, habelə sənaye müəssisələri klasterləri, yəni, birgə məqsədlərə nail olmaq və ya ümumi problemləri həll etmək üçün birləşən sənaye müəssisələrinin məcmusu yaradılacaq. Prezidentin Fərmanı ilə (noyabr 2012-ci il) Pirallahı qəsəbəsində informasiya texnologiyaları sahəsində biznes-inkubator üçün 50 hektar sahə ayrılıb, burada ofis mərkəzinin, elmi tədqiqat institutlarının, inkubasiya mərkəzinin, istehsalat obyektlərinin yaradılması üzrə intensiv iş aparılır.

Bütün bunlar bizim iqtisadiyyatda yeni istiqamətlərdir. Bu proseslər texniki, texnoloji və sosial yeniləşmənin, yəni, yeni, kreativ sinfin formalaşmasının təsiri altında baş verəcək. Bu, təbiidir, çünki postsənaye cəmiyyəti quruculuğu bu yeni sosial elementin formalaşması ilə müşayiət olunur. İstehsalın postsənaye mərhələsinin həlledici amili, onun mahiyyəti cəmiyyətin sosial-iqtisadi inkişafının ən vacib və mühüm resursları olan informasiya və biliklərin müstəqil formalaşması olacaq. Elmdə bu mərhələyə informasiya cəmiyyəti və informasiya iqtisadiyyatı kimi tərif verilir.

Qeyd etmək lazımdır ki, informasiya cəmiyyətinə keçid strategiyasını 2003-cü ildə təsdiq etmiş Azərbaycan bu sa-

hədə dünyada ilk dövlətlərdən biri və Cənubi Qafqazda yeganə dövlətdir.

Azərbaycan kreativ iqtisadiyyatın yaradılması ilə paralel olaraq başqa dövlətlərin daxili işlərinə qarışmamağa əsaslanan "yumşaq güc" konsepsiyasını da formalaşdırmağa başlayıb. Bizim "yumşaq güc" konsepsiyamız Azərbaycan xalqının tarixinin, mədəniyyətinin, tolerantlığının, onun potensialının hərtərəfli nümayiş etdirilməsi yolu ilə milli maraqların təbliği ideyasına əsaslanır, bununla da beynəlxalq arenada dövlətimizə etimad artırır.

Başqa amillərlə yanaşı, ölkənin imicini inkişaf etdirən turizm, mədəniyyət və idman kimi spesifik sahələrin maddi bazasının sürətli inkişafı bu konsepsiyanın tərkib hissələridir. Azərbaycanda Beynəlxalq Humanitar Forumun, Mədəniyyətlərarası Dialoq üzrə Dünya Forumunun, Davos İqtisadi Forumunun, "Eurovision-2012" mahnı müsabiqəsinin, 2015-ci ildə birinci Avropa Oyunlarının, 2016-cı ildə "Formula-1" avtoyürüşlərinin və 2020-ci ildə futbol üzrə Avropa çempionatı matçlarının keçirilməsi – bütün bunlar Azərbaycanın sosial-iqtisadi həyatının müxtəlif sahələrində qazandığı böyük nailiyyətlərin beynəlxalq strukturlar tərəfindən etiraf edilməsi və qiymətləndirilməsi deməkdir.

Azərbaycanın qarşıya qoyduğu hədəflərə nail olması yolunda tərəqqisi nüfuzlu nəşrlərin və təsisatların dünya reytinqləri ilə də təsdiqlənir. Məsələn, Davos İqtisadi Forumunun ("The World Economic Forum") bu yaxınlarda dərc edilmiş reytinqində Azərbaycan iqtisadiyyatı qlobal rəqabət qabiliyyəti göstəricisi üzrə 38-ci yeri tutub. Dünya Bankının araşdırmalarının nəticələrinə görə, "Doing Business 2014" beynəlxalq reytinqində Azərbaycanın mövqeləri xeyli yaxşılaşıb.

Dünya standartları baxımından Azərbaycan iqtisadiyyatı ÜDM-in həcminə görə də yüksəlib. Ümumi daxili məhsulun





50 faizdən çoxu qeyri-neft sektorunda istehsal edilir. İşsizlik göstəricisi 5 faiz səviyyəsindədir. Ölkənin xarici borcu ÜDM-in təxminən 8 faizinə bərabərdir. Azərbaycan internetdən pulsuz istifadənin təmin edildiyi azsaylı ölkələrdən biridir. BMT-nin insan potensialının inkişafı göstəricisinə görə Azərbaycan 2013-cü ildə region ölkələrinin çoxunu qabaqlayaraq dünyada 76-cı yeri tutub və insan potensialının inkişaf göstəricisi yüksək olan dövlətlər sırasındadır.

2014-cü ildə ölkəmiz əldə edilən gəlirin illik artımına görə lider ölkələr sırasına daxildir. Bu barədə Euromonitor İnternational şirkətinin araşdırmasında qeyd edilir. 2014-cü ildə əldə edilən real gəlirin artımının 11,5 faiz səviyyəsində olacağı proqnozlaşdırılır. Həmin araşdırmada deyilir: "Qeyri-neft sektoru ölkədə gəlirlərin artmasını təmin etməklə Azərbaycanda məşğulluğun artmasının əsas mənbəyinə və generatoruna çevrilib". Bu göstərici üzrə lider ölkələr sırasına Azərbaycandan başqa Səudiyyə Ərəbistanı, Çin və Qazaxıstan da daxildir.

Artıq 20 ildir ki, Azərbaycan balanslaşdırılmış xarici siyasəti uğurla davam və inkişaf etdirir. Bu strategiya postsovet məkanında 2008-ci ilin avqustunda Gürcüstanda müharibə və 2014-cü ildə Ukrayna böhranı kimi hadisələrdə uğurla sınaqdan çıxarılıb. Azərbaycan bəzi dövlətlərdən fərqli olaraq ayrı-ayrı fövqəldövlətlərin maraqlarının icraçısı olmadığını dünyaya ardıcıl surətdə nümayiş etdirməklə hadisələrin qiymətləndirilməsində və beynəlxalq problemlərin həllində müstəqil yanaşma tərəfdarıdır, həmişə beynəlxalq hüququn normalarından və ölkənin maraqlarından çıxış edir.

Məsələn, Gürcüstan üçün ağır dövrdə Azərbaycan onu qazla təchiz etməklə dəstəkləyib, İranın nüvə proqramı məsələlərinin dinc yolla həlli üçün ardıcıl olaraq çıxış edir. Ukrayna böhranında biz BMT-nin Baş Məclisində səs ver-

məklə Ukraynanın ərazi bütövlüyünü dəstəklədik, eyni zamanda, bu ölkənin daxili işlərinə qarışmağı, ölkədə hərcmərcliyə səbəb olmuş siyasəti pislədik. Bizim fikrimizcə, bu cür hərəkətlər, yalnız odun üstünə yağ tökür, nəticədə heç bir təqsiri olmayan dinc insanlar zərər çəkir. Bizim dövlətimiz hər hansı ölkəyə qarşı hər hansı sanksiyalar tətbiq edilməsinin perspektivsiz olmasına əmindir. Ədalətlilik, beynəlxalq hüquqa, dövlətlərin ərazi bütövlüyünə riayət edilməsi, onların daxili işlərinə qarışmamaq və dialoq ən mürəkkəb dövlətlərarası problemlərin həllinin açarıdır. Tam ədalətli söhbət gedirsə, onda Maydan tribunasından iğtişaşlara və hakimiyyəti ələ keçirməyə çağıranlara, yaxud 20 ildən artıq müddətdə Azərbaycan ərazisinin 20 faizini ilhaq etmiş, zəbt olunmuş torpaqların azad edilməsi barədə BMT-nin 4 qətnaməsini yerinə yetirməyən Ermənistana qarşı sanksiyalar tətbiq etmək lazımdır.

2011-ci ildə Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi bizə uğurlu xarici siyasət strategiyamızın qlobal səviyyədə həyata keçirilməsini davam etdirməyə imkan verdi. Dünya nizamı və onun yaxşılaşdırılması imkanları barədə danışarkən 2014-cü ilin oktyabr ayında Bakıda keçirilən Beynəlxalq Humanitar Forumda Prezident İlham Əliyevin çıxışından aşağıdakı sözləri qeyd etmək yerinə düşər: "Hesab edirəm ki, əgər hər bir ölkə müstəqil xarici siyasət aparsa, onda dünyada müharibələr də az olar, anlaşılmazlıq da azalar. Hər bir ölkə digər ölkəyə hörmətlə yanaşmalıdır. Hər bir ölkə digər ölkənin seçiminə də hörmətlə yanaşmalıdır – həm beynəlxalq müstəvidə, həm dinlərarası dialoq, humanitar sahədə...". Prezidentin bu sözləri Neovestfal beynəlxalq münasibətlər sisteminin möhkəmləndirilməsi zərurətinə diqqəti artırmağa çağırışdır. Həmin sistemdə dövlətlərin qərarlar qəbul etməkdə real suverenliyi qlobal sabitlik üçün bazis olmalıdır.





Biz çoxqütblü dünya anlayışını adi ritorika kimi deyil, strateji zərurət kimi qavrayırıq. Bir "qüvvə mərkəzi"nin hegemonluğu özünü doğrultmadı. O, qlobal xarakterli problemlər yaradır, dünya nizamını və beynəlxalq münasibətlərdə tarazlığı pozur, dövlətlər arasında etimada əsaslanan münasibətlər yaranmasına mane olur. Qlobal təhlükəsizliyin təmin edilməsi, terrorizmin və separatizmin, dini fanatizmin aradan qaldırılması dövlətlərarası münasibətlərdə dövlətlərin daxili işlərinə qarışmamaq, habelə hüquq bərabərliyi və qarşılıqlı hörmət prinsiplərinə riayət edilmədən mümkün deyil.

Bizim üçün dövlət suverenliyinin dəstəklənməsi məsələsi ölkədə sabitliyin saxlanması üçün əsasdır. Lakin özünütəcrid siyasəti bizə yaddır. Azərbaycan heç vaxt özünü dünyadan "Çin səddi" ilə ayırmağa çalışmayıb. Biz ikitərəfli əməkdaşlığa böyük əhəmiyyət veririk. Bu, bizim üçün prioritetdir. Sivilizasiyalı dövlət olan Azərbaycan bütün dövlətlərlə, Avropa Şurası ilə, digər beynəlxalq təşkilatlarla ikitərəfli münasibətləri inkişaf etdirmək arzusundadır. Biz ən yaxşı dünya təşkilatı praktikasını əks etdirən, öz üzvlərini dəstəkləyən Avropa İttifaqına daha yaxın olmağa çalışırıq. Biz istəyirik ki, bu siyasi qurumla münasibətlərimiz praqmatik yanaşmaya əsaslansın, qarşılıqlı maraqları əks etdirsin. Biz dünya xalqlarının maraqlarımıza cavab verən, mentalitetimizə uyğun olan və inkişafımızın sürətlənməsini təmin edən təcrübəsini əxz etməyə çalışırıq və bu niyyətlər konkret əməli addımlarla dəstəklənir.

Prezident İlham Əliyev Azərbaycanın xarici siyasətinə hücum xarakteri verib. Lakin bu kursla yanaşı, biz həm də müdafiə qabiliyyətimizi möhkəmlədirik. Ərazisinin beşdəbir hissəsi Ermənistan tərəfindən işğal edilmiş ölkə realizmin "Sülh istəyirsənsə, müharibəyə hazırlaş" prinsipinə riayət et-

mədən mövcud ola bilməz. Bu gün bizim təkcə hərbi büdcəmiz Ermənistanın bütün büdcəsindən xeyli artıqdır, Azərbaycanın modernləşdirilmiş hərbi sənaye kompleksinin (HSK) məhsullarına isə artıq xarici bazarda tələbat var. Əlbəttə, biz münaqişənin dinc yolla həll edilməsinin tərəfdarıyıq. Lakin əgər beynəlxalq birlik fəaliyyətsizlik göstərsə və problemin həllini sonsuz uzatsa, bizim başqa variantımız – bu məsələnin Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi çərçivəsində həlli variantı da var.

Güclənən iqtisadiyyat, uğurlu xarici siyasət strategiyası və möhkəmlənən hərbi potensial Azərbaycanın uğur qazandığı yeganə sahələr deyil. Vətəndaş cəmiyyətinin inkişafı da bizim hökumətin prioritetləri siyahısındadır. Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsindən keçən iyirmi beş ilə yaxın müddətdə demokratiyanın inkişafı, insan hüquqları, dövlət orqanlarının açıqlığı və onların vətəndaş cəmiyyətinə hesabat verməsi, dövlət orqanları tərəfindən ölkə vətəndaşlarına təqdim olunan xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması sahələrində mühüm islahatlar aparılıb. Azərbaycan əsla inkar etmir ki, vətəndaş cəmiyyətinin inkişafı və demokratiya təsisatlarının möhkəmlənməsi sahəsində hələ çox işlər görülməlidir. Biz başa düşürük ki, demokratik inkişaf siyasi mədəniyyətin, sosial psixologiyanın və vətəndaşların davranışının mürəkkəb və uzun təkamül, transformasiya prosesidir. Bu problemlər yuxarıdan, xüsusən kənardan zorla qəbul etdirilmə yolu ilə dərhal həll oluna bilməz. Bu cür eksperimentlər bizə yaxşı məlumdur və onların necə hərc-mərcliyə və qanunsuzluğa gətirib çıxarmasını əyani şəkildə görürük.

2013-cü il prezident seçkilərində İlham Əliyevin parlaq qələbəsi ölkə əhalisinin əksəriyyəti tərəfindən onun Azərbaycanı inkişaf etdirmək kursunun dəstəklənməsini göstərən bariz nümunədir. Ölkəmizin hər bir vətəndaşı Azərbaycanın sosial-iqtisadi və siyasi inkişafının artan tempini öz nümunəsində hiss edir. Azərbaycan hökuməti tərəfindən həyata keçirilən uzunmüddətli islahatlar bütün bunların səmərəli bazasıdır. Həmin islahatlar arasında qeyri-neft sektorunun, insan kapitalının, informasiya texnologiyalarının, vətəndaş cəmiyyətinin inkişafını, dövlətin öz vətəndaşlarına hesabat verməsini və aşkarlığı qeyd etmək olar.





Aşkarlığın və vətəndaşlara göstərilən xidmətlərin səmərəliliyinin artırılması sahəsində son uğurlu islahatlardan biri Prezidentin ideyası əsasında yaradılmış "ASAN xidmət"dir. Avropa Şurasının baş katibi Turbyörn Yaqland ölkəmizdə səfərdə olarkən ASAN sosial infrastrukturunu nadir, innovasiyalı və korrupsiyadan uzaq sistem adlandıraraq Qərbi Avropa ölkələrini Azərbaycandan nümunə götürməyə çağırıb. Bu gün məhz "ASAN xidmət" korrupsiyaya qarşı mübarizə və dövlət orqanlarının transparentliyinin təmin edilməsi sahəsində uğurlu islahat nümunəsidir. BMT İnkişaf Proqramının rəhbəri Helen Klark bu yaxınlarda Azərbaycanda səfərdə olarkən məhz bu təcrübəni qeyd edib, başqa ölkələri Azərbaycandan nümunə götürməyi tövsiyə edib.

Transparency İnternational təşkilatı tərəfindən aparılmış sorğunun nəticələrinə görə vətəndaşların 68 faizi korrupsiyaya qarşı mübarizə sahəsində aparılan islahatlardan razıdır. Təbii ki, bu işdə ölkənin regionlarında yaradılmış ASAN mərkəzləri mühüm rol oynayır. Həmin mərkəzlər sayəsində bu gün ölkəmizin vətəndaşları "bir pəncərə" prinsipi üzrə işləyən 10 dövlət orqanının xidmətlərindən istifadə edə bilirlər. Vətəndaşlar bu mərkəzi tərk etmədən operativ, açıq, keyfiyyətlə və bürokratik əngəllərsiz öz məsələlərini həll edirlər. Əgər Qərb və onun yaratdığı beynəlxalq vətəndaş cəmiyyəti təsisatları Azərbaycanda demokratiyanın inkişafı, insan hüquqları və transparentlik barədə belə narahatlıq

keçirirlərsə, onda bu sahədə bizim uğurlarımızı niyə qeyd etmirlər?

Azərbaycan vətəndaş cəmiyyətinin inkişafının bəzi aspektlərində hətta Avropanın da bacarmadığı sahələrdə uğur qazanıb. Məsələn, multikulturalizm və tolerantlıq sahəsində. Azərbaycan özünün hər bir vətəndaşının konstitusion hüquq və azadlıqlarına təminat verməklə müxtəlif konfessiyalara və millətlərə məxsus insanların onun ərazisində dinc yanaşı yaşamasını təmin edib. Bununla bərabər, əhalinin əksəriyyətinin İslam dininə etiqad etməsinə baxmayaraq, Azərbaycan dünyəvi dövlət kimi qalıb.

Bu il oktyabrın 2-3-də keçirilmiş Bakı Beynəlxalq Humanitar Forumunda Prezident İlham Əliyev deyib: "Azərbaycanda bütün xalqlar dostluq, mehribanlıq şəraitində, bir ailə kimi yaşayır. Heç vaxt Azərbaycanda dini, milli zəmində qarşıdurma, anlaşılmazlıq olmayıb və bu, bizim böyük sərvətimizdir... Multikulturalizm Azərbaycanda həyat tərzidir...". Prezidentin bu sözləri ölkəmizdə müxtəlif etnik və dini qrupların dinc yanaşı yaşamasının və kooperasiyasının bütün mahiyyətini və reallığını əks etdirir. Bu, Avropa ölkələrində eyni qəbildən problemlərin həlli üçün uğurlu nümunə ola bilər.

Bunlar, necə deyərlər, "aysberqin yalnız görünən hissəsidir", yəni, ölkəmizin qazandığı nailiyyətlərdən yalnız bir neçəsidir. Fundamental demokratik prinsiplərə möhkəm sədaqətini qoruyub saxlayan müstəqil respublikamız müxtəlif sahələrdə öz potensialını günbəgün artırır. Azərbaycan müasir müstəqil dövlət kimi hələ gənc olmasına baxmayaraq, böyük siyasətin iştirakçısına çevrilib. Heydər Əliyevin təbirincə desək, bu siyasəti cılız hisslərə və maraqlara tabe etmək olmaz. Hərçənd, "beşinci kolon"un nümayəndələri xaricdən aldıqları göstərişləri rəhbər tutaraq bunu etməyə uğursuz cəhdlər göstərirlər.





Sevindirici haldır ki, dünyada dostlarımızın sayı daim artır. Lakin britaniyalı yazıçı Kolin Qrinlendin dediyi kimi, "Uğurlu olmaq paxıllıq üçün münbit mühitdir". Buna görə də təəssüf ki, elə opponentlər və bədxahlar var ki, güclü Azərbaycan onlar üçün sanki boğazda qalan sümükdür. Ölkəmizin mürəkkəb geosiyasi məkanda yerləşməsinə baxmayaraq, müstəqil siyasət yeritməsi də heç də hamının xoşuna gəlmir.

Bizim uğurlarımıza sevinənlərlə yanaşı, Azərbaycanın əleyhdarları da var. Beləları arasında erməni lobbisi və onun təsiri altında olan riyakar və korrupsiyaya qurşanmış, o cümlədən amerikalı siyasətçilər xüsusi yer tutur. Beləları erməni lobbisinin pulu hesabına yaşadıqlarına görə həqiqəti israrla görməzliyə vurur və daim Azərbaycanı hörmətdən salmağa çalışırlar. Azərbaycanın ümummilli lideri Heydər Əliyev 1998-ci ildə "The New-York Tayms" qəzetinin jurnalistinin ABŞ-da korrupsiyaya onun münasibəti barədə sualının cavabında çox nəzakətlə demişdi: "Mən konqresmenlərdən soruşdum ki, onların Ermənistanla əlaqələri nə üçün bu dərəcədə sıxdır? Dedilər ki, erməni diasporu onlara çoxlu pul verir. Mən də sizdən soruşuram – məgər bu, korrupsiya deyilmi?".

"Qara qızıl"ın insan kapitalına çevrilməsini, qeyri-neft sektorunun inkişafını nəzərdə tutan uzaqgörən milli neft-qaz strategiyası, siyasi və iqtisadi islahatlar, vətəndaş cəmiyyətinin tərəqqisi və Azərbaycan xalqının milli maraqlarının müdafiəsi – bütün bunlar bizim dövlətimizə dünyanın 100-dən çox ölkəsi ilə qarşılıqlı faydalı və bərabərhüquqlu münasibətlər yaratmağa, 155 ölkənin dəstəyini qazanmağa imkan verib. Hər bir qlobal məsələyə dair Azərbaycanın beynəlxalq hüquq normalarına əsaslanaraq bəyan etdiyi prinsipial və birmənalı mövqeyi bu işdə az rol oynamayıb. Prezident İlham Əliyevin həyata keçirdiyi bu cür düşünülmüş

və müdrik xarici siyasət sayəsində Azərbaycan qısa müddətdə dünyada böyük etimad və hörmət qazanıb. Bu, şüurlu şəkildə demokratiya və tərəqqi yolu seçmiş bütün Azərbaycan xalqının xidmətidir. Azərbaycan Prezidenti dəfələrlə vurğulayıb ki, demokratiya yolunu biz kiminsə təzyiqi altında deyil, özümüz seçmişik.

Bizim prioritetlər demokratik, sivil, hüquqi dövlət qurulması, özünəyetərli iqtisadiyyat yaradılması, əhalinin həyat şəraitinin daha da yaxşılaşdırılması, ənənəvi dəyərlər və Vətənə məhəbbət əsasında milli həmrəylikdir. Bütün bunlar postsənaye (informasiya) cəmiyyəti quruculuğu məcrasında həyata keçirilir. Bu yol böyük dövlət və siyasət xadimi Heydər Əliyevin müəyyənləşdirdiyi, Prezident İlham Əliyevin reallaşdırdığı strateji seçimdir.

Bir daha vurğulamaq istərdik ki, bugünkü Azərbaycan sürətlə inkişaf edən, Qafqazda regional gündəliyi formalaşdıran dövlətdir. Bizimlə beynəlxalq hüquq normalarına uyğun münasibətlər qurmağa meyil edən ölkələr və beynəlxalq münasibətlər sisteminin digər iştirakçıları Azərbaycanda həmişə hörmət və dəstək görəcəklər. Bizim dövlət beynəlxalq münasibətlərdə nəsihətçi tonunu, xüsusən "müəllimlər" öz dövlətlərindəki ciddi problemlərə göz yumanda, qəbul etmir. Biz bəyanatları və sözləri ilə əməlləri üst-üstə düşən ölkələrə həmişə hörmət göstərmişik. Dildə bir söz deyən, əməllərində isə Azərbaycana tamam başqa münasibət nümayiş etdirən dövlətlər bizim etimadımızı qazana bilməzlər.

## Dövləti idarə etmək məharəti

Məşhur amerikalı filosof Frensis Fukuyamanın fikrincə, "güclü dövlət qurulması dünya birliyinin ən mühüm prob-





lemlərindən biridir. Çünki dövlətlərin zəifliyi və dağılması dünyanın çoxsaylı ən ciddi problemlərinin mənbəyidir"[1].

Onunla razılaşmalıyıq. Dövlətin funksiyasını heç vaxt zəiflətmək olmaz, hərçənd müasir liberalizmin tərəfdarları cəmiyyətə bunu təlqin etməyə çalışırlar ki, vətəndaş cəmiyyəti təşkilatları dövlətin vəzifələrinin çoxunu öz üzərinə götürə bilərlər. Zənnimcə, onlar ciddi yanılırlar. Liberalizmin adeptləri və idealistlər nə deyirlər desinlər, onlar öz baxışlarını əsaslandırmaq üçün nə qədər çalışsalar da, bizim güclü dövlətə və müxtəlif növ anarxistlərin "qırmızı xətti" keçmələrinə imkan verməyən güclü hakimiyyətə ehtiyacımız var.

Cəmiyyətdə sabitliyin təmin edilməsində dövlətin rolu o qədər böyükdür ki, onu heç bir ictimai təşkilat əvəz edə bilməz. Yaxın keçmişdə Franklin Ruzvelt, Uinston Çörçill, general Şarl de Qoll, İosif Stalin, sonrakı illərdə isə Konrad Adenauer, Fransua Mitteran, Mao Tszedun kimi görkəmli dövlət xadimləri bunu öz fəaliyyətləri ilə sübut ediblər. Bunu tarixin gedişi də sübut edib.

Təbii ki, hər bir siyasətçi, ilk növbədə, öz dövlətinin maraqlarını qoruyur. Lakin bununla bərabər, müharibədən sonrakı dövrdə dünya nizamının, qlobal və regional təhlükəsizliyin prinsipləri məhz bu cür parlaq siyasətçilər tərəfindən, onların səyləri ilə müəyyən edilib. Bu gün dünya siyasi səhnəsində belə güclü şəxsiyyətlər və dövlət xadimləri yoxdur. Onların yerlərini bu cür lider keyfiyyətlərinə, fitri xarizmaya və yüksək nüfuza malik olmayan adamlar tutub. Məhz bu səbəbdən, onlar dəyişmiş dünyada ümumbəşəri həmrəyliyi təmin etmək iqtidarında deyildir.

Bu gün bir sıra ölkələrdə siyasətçilər öz hərəkətlərində ikili mövqe tuturlar: onlar bir tərəfdən diqqətlərini daxili

[1] Фрэнсис Фукуяма. Сильное государство. М., 2006, стр.5.

problemlər üzərində cəmləşdiriblər, çünki dünya siyasət səhnəsinə çıxmaq üçün əvvəlcə müxtəlif vədlərlə seçicilərin dəstəyini qazanmalı olurlar. Digər tərəfdən – əsrlər boyu dövlət xadimlərinin düşüncəsinə hakim kəsilən regional və qlobal təhlükəsizlik məsələləri bu gün yenidən onların diqqət mərkəzində olmalı və hətta əvvəlkindən daha artıq əhəmiyyət kəsb etməlidir. Çünki müharibə çox baha başa gəlir.

Lakin Qərbin aparıcı dövlətlərinin müasir liderləri zəruri şəxsi keyfiyyətlərə malik olmadığına və dövləti idarə etmək məharətinə yiyələnmədiyinə görə öz sələflərindən xeyli geri qalırlar.

Xarici siyasət və ölkənin təhlükəsizliyinin təmin edilməsi çox geniş əhatəli məsələlərin həlli ilə bağlıdır. Uzaqgörən dövlət xadimi risklərin və imkanların bütöv spektrini nəzərə almalı və qiymətləndirməlidir. İndiki şəraitdə xarici siyasət və təhlükəsizliyin təmin edilməsi, ilk növbədə, qüvvələr balansı və etibarlı müdafiə sistemi yaratmaq milli mənafeləri qorumaq deməkdir.

Bu mürəkkəb məsələnin həlli üçün milli lider dövlətin idarə edilməsi məharətinin bütün nüanslarına yiyələnməlidir. Azərbaycan xalqının iki dəfə bəxti gətirib – bu, 1993-cü və 2003-cü illərin prezident seçkiləri ilə bağlıdır. Ağılı dövlət xadimi həmişə yadda saxlayır ki, dövləti vəzifə, ilk növbədə, xalqın etimadı deməkdir. Buna görə dövlət xadiminin ali vəzifəsi öz xalqına, dövlətin firavanlığına xidmət etməkdir.

Bu baxımdan, tale Azərbaycan xalqı üçün gözəl gələcək hazırlayıb. Bu gələcəyi bütün varlığı ilə öz xalqına xidmət edən Prezident İlham Əliyevsiz təsəvvür etmək qeyri-mümkündür. 2003-cü ilin payızında ölkənin ən birinci vəzifəsində Heydər Əliyevi əvəz edən İlham Əliyev hərtərəfli düşünülmüş fəaliyyət strategiyasını daha da zənginləşdirib. Onun fəaliyyəti inqilabi fəaliyyət oldu, çünki bir onillik ərzində





böyük ümidlərin həyata keçməsinə gətirib çıxardı. Əslində məhz bu, əhalinin iqtidara münasibətini, ictimai qüvvələrlə dialoqun taleyini müəyyənləşdirir.

Prezident İlham Əliyevin öz qurucu fəaliyyətində əsaslandığı innovasiyalı inkişaf konsepsiyası ölkənin modernləşməsi, postsənaye cəmiyyəti quruculuğu proqramında müstəsna rol oynayır. Dövlətimizin başçısı sosial-iqtisadi xarakterli mühüm təşəbbüsləri bir-birinin ardınca həyata keçirməklə öz müasirlərində fəaliyyət əzmini coşdurmağa, layiqli gələcəyin möhkəm əsaslarını qurmaq üçün həmfikirlərini arxasınca aparmağa nail oldu.

O, xalqa verdiyi sözünün üstündə durdu. Quruculuq sərhədlərini ilbəil genişləndirən nəhəng islahatlar proqramının xalqa faydası göz qabağındadır. Bu proqram Azərbaycanın beynəlxalq birlikdə mövqelərini möhkəmlətməyə imkan verir. Azərbaycanın regionda lider imicinin möhkəmlənməsi bir daha təsdiq edir ki, Prezident sosial-iqtisadi inkişafda sarsıntılarsız və itkilərsiz böyük sıçrayış etməyə imkan vermiş universal uğur formulu tapıb.

Azərbaycanda "cazibə mərkəzi" var. Onun mahiyyəti Prezident İlham Əliyevin irəli sürdüyü "milli ideya"dır. Milli həmrəylik bu ideya ətrafında cərəyan edir. O, ölkənin inkişafı üçün əsas mənəvi özəyə çevrilib. Bu ideya postsənaye, informasiya cəmiyyətinin yolunu işıqlandırır, böyük vəzifələrin həllinə hədəflənmiş insanları ruhlandırır və birləşdirir. Prezident Azərbaycan xalqının dəstəyinə arxalanaraq, milli mənafeləri müdafiə edərək firavan dövlət qurmağa yönəlmiş siyasət yürüdür. Ölkəmizin hər bir vətənpərvər vətəndaşı əmindir ki, qarşıya qoyulmuş vəzifələrin həlli yalnız güclü prezident hakimiyyəti və cəmiyyətdə sabitlik olduğu halda mümkündür.

Güclü hakimiyyətin vəzifəsi zamanı şəraitə və özünə tabe etməkdən, onlardan ölkə üçün maksimum səmərə əldə

etməkdən ibarətdir. Bu istək həmişə və hər yerdə özünü doğruldur, ölkə vətəndaşlarının inamını möhkəmləndirir. Qeyri-ordinar qərarların müəllifi olan, orijinal fikirləri məharətlə böyük işlərə çevirən İlham Əliyev yeni siyasi dəbin yaradıcısı obrazını təcəssüm etdirir.

O, zamanın və məkanın şəraiti və vəziyyətini ustalıqla idarə edərək öz komandası ilə birlikdə ölkənin resurs bazasını genişləndirməkdə, yeni niyyətlər və uğurlarla dünyanı təəccübləndirməkdə davam edir.

Prezident İlham Əliyevin son on ildəki fəaliyyəti sübut edir ki, tarixdə şəxsiyyətin rolu böyük və danılmazdır. İlham Əliyevin islahatlar proqramının əsl mahiyyəti hazırkı şəraitdə milli sənayenin, sosial infrastrukturun, indiki nəsillərin maddi rifahını və zəngin mənəvi həyat tərzini təmin edə bilən bütün sahələrin yenilənməsinin cəsarətli və geniş əhatəli layihələrinə tələbatın nə dərəcədə böyük olmasını nümayiş etdirdi.

Xatırladaq ki, İlham Əliyev dövlət başçısı olan zaman Azərbaycanda görkəmli siyasi xadim və milli lider Heydər Əliyevin səyləri ilə iqtisadi və siyasi sabitlik təmin edilmişdi. Ölkə artıq o vaxt özünü dünya birliyinə özünəyetərli və müstəqil subyekt kimi təqdim edə bilmişdi. Lakin varis özünün yüksək intellekti və təşkilatçılıq istedadı sayəsində böyük sələfinin kölgəsindən çıxmağa və ölkənin nailiyyətlərini artırmağa, səmərəli iqtisadiyyat yaratmağa nail oldu. Hazırda bu iqtisadiyyat inkişaf indekslərinə görə dünyada ən dinamik iqtisadiyyatlardan biridir.

Bu, yeni beynəlxalq koordinatlar sistemində gənc müstəqil dövlətin əhəmiyyətinin və yerinin müəyyən edilməsində mühüm amil rolu oynadı. Təsadüfi deyil ki, son illərdə Azərbaycan dünyanın aparıcı ölkələri ilə strateji tərəfdaşlıq qurmağa və inkişaf etdirməyə, qlobal inteqrasiya proqramına töhfəsini davamlı şəkildə artırmağa qabil olan subyektə çevrilib.





İndi Azərbaycan təkcə Avropanın enerji təhlükəsizliyinin deyil, həm də böyük Avrasiya məkanında ümumi təhlükəsizliyin qarantıdır. Bu, daxili sabitlik, iqtisadi inkişaf, davamlı ictimai-siyasi nizam, cəmiyyətin həyatının demokratikləşməsi sayəsində mümkün olub. Bu, qüvvələri və imkanları genişmiqyaslı modernləşmə proqramlarının həyata keçirilməsi üzərində cəmləşdirməyə imkan verir.

İlham Əliyevin söylədiyi fikirlərin və həyata keçirdiyi işlərin mahiyyətinə diqqətlə varsaq asanlıqla başa düşmək olar ki, bu fikirlər və əməli işlər dərindən dərk edilmiş milli ideyadır. Dövlətimizin başçısı məhz bu ideyadan çıxış edərək ölkəni postsənaye cəmiyyəti relsləri üzərinə – yüksək səviyyəli orbitə çıxarmaq kimi möhtəşəm bir planı həyata keçirir. Belə cəsarətli fəaliyyət xəttini həyata keçirməyi yalnız enerjili, uzaqgörən və istedadlı lider özünə rəva görə bilər.

Ulu əcdadlarımız deyiblər: "Dövlətin müdrikliklə idarə edilməsi təhlükəni azaltmaq və onu xalqdan uzaqlaşdırmaq deməkdir". Dövlətin idarə edilməsi məharətinin mahiyyəti də bundadır. İndiki mürəkkəb şəraitdə İlham Əliyev həm dövlət maşınını enişli-yoxuşlu yollardan keçirərək nəzərdə tutulan məqsədə yönəltməyə, həm də gələcək üçün etibarlı möhkəm təməl yaratmağa nail olub. Daim fəaliyyətdə olan, beynəlxalq əhəmiyyətli problemlərin həllində ədalətlilik prinsiplərini müdafiə edən Prezident təkcə öz həmvətənləri arasında deyil, həm də beynəlxalq dairələrdə yüksək hörmət və nüfuz qazanıb. O, özünün qeyri-adi qabiliyyətləri, beynəlxalq təhlükəsizlik problemlərinin, regional və qlobal məsələlərin həllinə, onun təşəbbüsü ilə başlanmış beynəlxalq layihələrə töhfəsi sayəsində dünyada sayılıb seçilən siyasi xadim kimi qəbul edilir. Bu, inkarolunmaz faktdır. Bu

cür diqqətə və ehtirama, bir qayda olaraq, xarizmatik, istedadlı, qeyri-ordinar təfəkkürə və siyasi intuisiyaya malik olan siyasətçilər layiq görülürlər.

Bu gün Prezident İlham Əliyevin təşəbbüsləri ölkənin və regionun iqtisadi landşaftını dəyişir, öz liderini inamla dəstəkləyən xalqın mənəvi dirçəlişi üçün güclü stimula çevrilir. Məhz bu səbəbdən, Prezident bütün həmvətənlərinin güclü dəstəyini hiss etdiyindən, Dövlət Bayrağı Meydanındakı nitqini bu sözlərlə bitirib: "Əminəm ki, biz qarşıya qoyulmuş bütün məqsədlərimizə çatacağıq".

Bütün bunlar Azərbaycan xalqını böyük işlərə ruhlandırır.

**Рамиз Мехтиев**

руководитель Администрации Президента Азербайджана, Действительный член Национальной Академии Наук Азербайджана

# МИРОПОРЯДОК ДВОЙНЫХ СТАНДАРТОВ И СОВРЕМЕННЫЙ АЗЕРБАЙДЖАН

Издательский Дом Шарг-Гарб
Баку – 2015

Данная книга руководителя Администрации Президента Азербайджанской Республики, академика Рамиза Мехтиева посвящена актуальным вопросам эффективного государственного управления, правовым и институциональным реформам в области борьбы с коррупцией, деятельности и задачам НПО, новому сложившемуся миропорядку и политике двойных стандартов, применяемой Западом в отношении Азербайджана.

В книге дается широкий анализ общественно-политической обстановки в мире после развала Советского Союза, рассказывается об истинных причинах «Арабской весны» и прочих «бархатных» и «цветных» революций.

Книга предназначена для ученых-политологов, преподавателей и студентов высших учебных заведений, а также для широкого круга читателей.

## ИЛЬХАМ АЛИЕВ – НОВЫЙ ЛИДЕР НОВОГО ВЕКА

*Интервью АЗЕРТАДЖ*
*(14.03.2013 г.)*

***– Уважаемый Рамиз муаллим, начало XXI века вошло в историю как годы серьезных противостояний, нестабильности и экономического спада в мире. Уверенное развитие Азербайджана под руководством Президента Ильхама Алиева в столь сложный период стало темой обсуждений во всем мире, в различных влиятельных аудиториях. Как Вы оцениваете достижения, нынешнее положение, внутреннюю общественно-политическую ситуацию в нашей стране?***

– После распада СССР в конце прошлого века на политической карте мира произошли важные перемены, начал формироваться новый миропорядок. Считаю, что этот процесс не завершился полностью и именно с этим фактором связаны наблюдаемые в настоящее время сложные политические и экономические процессы. Но азербайджанский народ, воспользовавшись этой уникальной исторической возможностью, сумел под руководством общенационального лидера Гейдара Алиева построить свое независимое государство, добился его развития, однозначно поддержав принцип политической преемственности, и превращения в одну из влиятельных стран мира. Несомненно, проводящая свой независимый политический курс, динамично развивающаяся, ставшая страной-лидером

региона и пользующаяся авторитетом в мировом масштабе Азербайджанская Республика является историческим достижением и самым большим достоянием нашего народа, действительно источником нашей гордости. Сегодня заключения и прогнозы ведущих экономических и финансовых институтов мира, самое главное, реальная панорама наших успехов еще раз подтверждают, что заявленные Президентом Ильхамом Алиевым еще в 2004 году стратегические цели и поставленные задачи стали реальностью. Не случайно, Азербайджан уже в 2009 году завершил экономический переходный период и в настоящее время его сравнивают с современными и развитыми странами мира. За последние 10 лет мы добились диверсификации нашей экономики, роста внутреннего валового продукта на 300 процентов, самое главное, увеличения ненефтяного сектора экономики в 2,4 раза. За прошедший период стратегические валютные резервы нашей страны увеличились почти в 30 раз и превысили 46 миллиардов долларов. Считаю, что сокращение уровня бедности с 49 до 6 процентов, а безработицы – до 5,2 процента должно считаться самым большим успехом проводимой социальной политики. Неузнаваемо изменились и модернизировались города и районы, поселки и села республики, повысилось благосостояние населения.

Успешно реализуя со своими партнерами важные транснациональные энергетические и коммуникационные проекты, наша страна продолжает изменять и обогащать экономическую карту региона и Европы. Сегодня почти 80 процентов экономики Южного Кавказа приходится на долю Азербайджана. Наша страна, обеспечившая свою энергетическую безопасность, становится важным фактором на энергетическом рынке





Европы, а также вносит свой вклад в ее безопасность. Согласно подсчетам, в настоящее время доля Азербайджана на энергетическом рынке некоторых европейских стран составляет 30-40 процентов.

Как член Совета Безопасности Организации Объединенных Наций, Азербайджан участвует в формировании глобальной политики, вносит свой ценный вклад в обеспечение мира и безопасности. Наша страна, принимавшая у себя «Евровидение», Форум ООН по интернет-управлению, Международный гуманитарный форум, саммит Организации Экономического Сотрудничества и десятки других важных международных мероприятий, стала также благоприятным пространством, где обсуждаются глобальные вопросы социальной, экономической, культурно-гуманитарной и других сфер. Принимая в следующем месяце Давосский экономический форум, город Баку укрепит свой статус экономического центра мирового значения. А в 2015 году мы войдем в историю как страна, организовавшая I Европейские игры. Считаю, что запуск на орбиту в этом году нашего телекоммуникационного спутника, создание космической промышленности в Азербайджане, являясь вершиной нашего развития, олицетворяют масштабы наших успехов и достижений.

